İSLAM
Və
MOTIVASIYA

NİCAT TARVERDİYEV

İslam
və
Motivasiya

NİCAT TARVERDİYEV

NİCAT TARVERDİYEV

İslam və Motivasiya

BAKI – 2020

Redaktor:
Qabil Ədalət

Rəyçilər:
Elvin Talışınski
Siyasi elmlər üzrə fəlsəfə doktoru, Beynəlxalq Təhsil Akademiyasının həqiqi üzvü.

Aslan Həbibov
Fəlsəfə üzrə fəlsəfə doktoru, İlahiyyatçı, Alim.

Hacı Atif İsmayılov
İlahiyyatçı, Alim.

Kapak ve İç tasarım:
Osman Aslanoğlu

"Kitabın içeriğiyle ilgili yasal sorumluluk yazara aittir."

Mündəricat

Önsöz.....1
İslam və motivasiyanın vəhdəti 4
Motivasiya nədir? 10
İslam İdeologiyası..... 16
Rus tədqiqatçısı..... 17
Motivasiyada sevgi və məhəbbət amili..... 18
Motivasiyada Səbr 19
Müdrik Qoca – Çin hekayəsi 23
Özünə inam, İnadkarlıq, İsrarlılıq..... 30
Özünə inam hissi 31
Özünə inam artırmağın düsturu : 32
İsrarlılıq 34
Vərdiş 34
Vərdişlər və onların mahiyyəti. 34
“Mənim ki, belə gətirib” –Qismət 39
Çarəsizlik –İnsanın ən böyük düşməni 41
“Onun yerində olsaydım” 44
“Mən o müəllimi sevirəm ki. . .” 44
Şeytanın hiyləsi - Qorxu 45
İnkişafdan geri qalmaq –“Bəhanələr”..... 49
Məşhur Biznesmenlərdən Motivasiya 51
Motivasiyanın 11 qızıl qaydası..... 53
Harvard tələbələri üçün motivasiya planı 55

Cəsarət amilinin Motivasiyaya təsiri 57
Niyə özümüzü motivasiya etməliyik?! 68
Məqsəd nə üçündür və motivasiyanın təsiri 70
Motivasiyada zamanın anlayışı..... 71
C. Qarsianın 50 motivasiya məsləhəti 76
Bəşəriyyətin ən güclü varlığı insan..... 87
Uğursuzluqların səbəbləri..... 88
Qətiyyətsizlik və onun əlamətləri : 100
Sublimasiya 101
Uğur prinspi..... 103
Mein balıqçısı –Uğur hekayəsi 106
Qorxunc uşaqlıq..... 118
Arzunu"Qızıla" çevirmək 119
Dua böyük motivasiyadır..... 122
Hedonizm prinsipi 124
V. Q. Leontyev motivasiya nəzəriyyəsi..... 125
Bəs motiv nədir?..... 126
Motivasiyanın"Düşməni"- Frustrasiya 126
Motivasiya edici Kitablar 127
Motivasiya nəzəriyyələri 131
Məsumların həyatından motivasiya axtarışı 139
İstifadə olunan kitablar: 146

Önsöz

Allahın salamı, rəhməti və bərəkəti olsun üzərinizə. Kaş, insan öz daxili gücündən xəbərdar olaydı. Kaş, insan bir dəfə məğlub olduğu, uğurlu yolunda təkrar atdım atmağı bacaraydı. . İnsan yıxıla bilər.

Amma, daim insan öz məqsədləri uğrunda çalışmalıdır. Rəsullulahımız (s) buyurur :

Müsəlman o şəxsdir ki, birinci günü ikinci günü kimi olmasın. Yəni, insan elə necə var qalmamalıdır, daim irəli və inkişaf naminə çalışmalıdır.

Qurani Kərimin insana baxışı, ona verdiyi dəyər son dərəcə yüksək qiymətlə səciyyələnir. Dinimiz insana şərafətli və kəramətli bir varlıq dəyərini verir. Qurani-Kərimin"***İsra" surəsinin 70-ci ayəsində buyrulur:"Biz Adəm övladını şərəfli və hörmətli etdik".***

Bu dünya görüşünə, baxış bucağına görə, insan kəramətli və hörmətli bir varlıqdır. Mühüm cəhət odur ki, bu baxışa görə, insanın şərafətinin və hörmətinin mənbəyi Rəbbdir. Bu nəzərə görə, əgər insan şərafət və ehtiram daşıyıcısı olmaq istəyirsə, bunun mənbəyi Allahdır, Ona tapınmaqdır. İnsan Allahla olduqda, bu hörmət və şərafətə yiyələnə bilir. Allahdan qırıldıqda isə insanın hər hansı qiymətindən, dəyərliliyindən, hər hansı kəramətindən danışmağa əsas yoxdur…

Allah Təala insanı dəyərli bir varlıq olaraq xəlq edib, onun zatında dəyərli olmaq istedadını müəyyən edib.

İnsanın mahiyyətində dəyərli olmaq qabiliyyəti, potensialı qoyulmuşdur. İnsan var ki, Allah verdiyinə sahib çıxar, öz potensialını realizə edə bilər, Allahın istədiyi durumu yaşada bilər. Onun yaşayışı, davranışı, hərəkətləri, əməlləri - istər ticarəti, istər təhsili, istər ailə münasibətləri, ictimai mövqeyi - məhz buna yüklənir, onun Allahla birgə olmaq, Rəbbinin istədiyi surətdə yaşamaq məfkurəsindən irəli gəlir. Şərafətlilik, bu insana xas xüsusiyyət olmaqla yanaşı, onun kamal istedadlarının tam açılmasına xidmət edən vəsilədir.

İnsanı digər məxluqatdan fərqləndirən amil :

Əgər toxunduğumuz bu yanaşma tərzindən irəli gələrək, insan öz yaşam tərzini tənzimləsə, bütün gücünü bu istiqamətə doğru yönəltsə, vəziyyət tam dəyişər. Bu insan kimliyini, insani necəliyini unutmaz. Böyük İslam Peyğəmbəri (s) buyurmuşdur:

"Allah yanında heç bir şey Adəm övladı kimi hörmətli deyil". Soruşdular:"Ey Allahın Peyğəmbəri, hətta mələklər də?" Həzrət (s) buyurdu:
"Mələklər, Günəş və Ay kimi məcburdurlar".

Buradan mühüm bir mövzu irəli gəlir ki, Peyğəmbərimiz (s) insanın bütün varlıqlardan üstünlüyünün, cəmi məxluqatdan aliliyinin əsas amili kimi, insanın məcbur olan varlıq olmamasını vurğulayır. İnsan icbarla yaşayan varlıq deyil.

İnsan ixtiyar sahibidir, seçim sahibidir. İnsanın iradəsi var. İnsan yaxşını da seçə bilər, pisi də. İnsan haqqı da deyə bilər, batili də. İnsan gözəlliyi də yaya bilər, idbarlığı da. Hər bir halda seçim insanın özünündür. Mələklərdən, Aydan, Günəşdən, dağdan, dənizdən insanı ən çox fərqləndirən cəhət

də məhz budur - bütün bunlar etdiklərində məcburdurlar, onların seçimi yoxdur. Günəş edə bilməz desin, mən bu gün çıxmayacağam. Ay edə bilməz işıq verməsin. Çay özbaşına hərəkət edə və ya hərəkətini dayandıra bilməz. Bunlardan hərəkətlərinə görə də sorulmaz - bunların iradədən irəli gələn hərəkətləri zatən yoxdur.

Bakı İslam Universitetinin məzunu,

İlahıyyatçı Nicat Tarverdiyev

İslam və motivasiyanın vəhdəti

Ümümiyyətlə İslam dininin nə qədər ecazkar və gözəl din olduğunu əvvəlcə anlamaq lazımdır. İslam sülh dinidir. İnsanları bir araya birləşdirən vəhdət yaradan dindir. İslam, yalan, nifaq, həsəd, riya, paxıllıq kimi insanı daxildən yeyən ünsürləri qəti şəkildə əleyhinədir. Motivasiyanın ən birinci qarşısını alan amillər məhz sadaladığımız pisliklərdir. İnsan yaşadığı müddətdə çalışmalıdır ki, bu cür amillərdən uzaq olsun.

İslamın insana verdikləri dəyərlərdən bir az danışaq.

Elə ilk növbədə bunu qeyd edək ki, İslam iki əsas ünsürdən yaranan yəni, ərsəyə gələn dindir.

1) Allahın kitabı - (Quran) –bütün ilahi kitabların ən üstünüdür. Niyə?!

a) Özündən əvvəl gələn ilahi kitabların hamsının hökmlərini özündə toplayır, yəni özündən əvvəl gələn şəri hökmləri nəsx edir və bütün ilahi kitabları təkmilləşdirilmiş formada özündə cəmləşdirir.

b) Ümümi bəşərə göndərilən kitabdır, digər kitablar sırf müxtəlif ümmətlər üçün göndərilib.

2) Hz Rəsullulah (s) bütün gəlib-keçmiş peyğəmbərlərin ən üstünüdür.

Allah təala bu iki dəyəri bir yerdə toplayıb vahid, bütün kainatın ən üstün dinini məhz bizə bəxş etdi.

Allah təala insanı bütün varlıqların ən üstünü və mürəkkəbi yaratdı. Amma, insan bütün bunlara rəğmən

yenədə Rəbbinə qarşı nankordur. Elə insan sözünün mənası da unutqan deməkdir.

Quran buyurur:"Həqiqətən Biz Adəm övladlarına (maddi və mənəvi nemətlərdə atanın varisi olmaqla) kəramət və şərafət bəxş etdik, onları quruda və dənizdə (hər birinə münasib miniklərə) mindirdik, onlara müxtəlif paklardan (təbiətlərinə uyğun olan şeylərdən) ruzi verdik və onları yaratdıqlarımızın bir çoxundan (canlılardan, cinlərdən və mələklərin bir çoxundan) tam üstün etdik". ("İsra" 70) .

Təfsirçilərin bəziləri, insanın kəramətini zahiri gözəlliyində, bədən quruluşunun mütənasibliyində görürlər.

Ancaq bəzilərinin nəzərinə görə, insan kəraməti ruhi üstünlüklərinə və ali istedadlarına, ağıl gücünə, Allaha qarşı mərifətinə əsasən tanıdılmalıdır.

Əlbəttə, insan bütün bu üstünlüklərə malikdir. Allah Təala bütün bu deyilənlərin hamısına görə insanı kəramət sahibi hesab edə bilər.

Ancaq əsil məqsəd odur ki, bu qədər üstünlüyə sahib olan insan təkamül edə bilirmi? Əgər təkamül edirsə, dəyərlidir. Əks halda, heyvandan da aşağı səviyyəyə düşə bilir.

Bu ayədən çıxartdığımız nəticələr:

1. İnsan bəşər aləminin gözəlliyidir.

2. İnsan Allah yanında başqa məxluqlardan daha dəyərlidir.

3. Allah insana nəql vasitələri, minik vasitələri kimi nemətlər vermişdir.

4. Ona pakizə yeməklər vermişdir ki, bu da insana nə qədər dəyər verməsinin göstəricisidir.

5. Allah Təala istəyir ki, insan qalan məxluqlar və varlıqlar arasında öz yerini yaxşı tanısın və özünə dəyər versin.

Bütün bunlar onun şəxsiyyətinin mürəkkəb olmasına dəlildir. Allah təala insanı mürəkkəb varlıq kimi yaratması məhz onun üstün olmasına dəlillərdən biridir. Allah insana hər zaman çox dəyər bu mürəkkəb şəkildə olan şəxsiyyət iki qismə bölünür: onlardan biri onun insanlığına, o biri isə heyvanlığına (heyvanlarda olan xüsusiyyətlərə) aid olan hissədir.

Deməli, insan həqiqətən təzadlı sifətlərin təzahür etdiyi bir məkandır. Heç bir varlığın vücudunda insanda olan qədər daxili ziddiyyətlər hökm sürmür. Başqa sözlə desək, insana xas olan xüsusiyyətlərdən biri, onun mələkut və səmavi aləmlə məhdud və dünyəvi aləm arasında hökm sürən ziddiyyətləridir. Qədim alimlər insanın daxilində baş verən bu prosesi, ağıl və nəfs arasında olan çəkişmələr adlandırmışlar. Odur ki, insan daimi olaraq cəzbedici maddi və təbii istəklərin təsirinə məruz qalır.

Yeməyə olan meyl, cinsi məsələlər, istirahət etmək və bu kimi sair işlər insanı maddiyyat və təbiətə doğru çəkib aparır. Amma insanı özünə doğru çəkən cəzbedici qüvvələr tək bunlar deyil. Onu qeyri-maddi şeylərə tərəf çəkib aparan ayrı cəzbedici qüvvələr də vardır. Bu gün artıq bütün insanlar

tərəfindən qəbul olunan bir sıra mənəvi baxışlı, cəzbedici qüvvələr kəşf olunmuşdur. Onlar aşağıdakılardır:

1. Elm və bilik (həqiqət istəyi) ;
2. Əxlaqın xeyirli olması (fəzilət və dəyər istəyi) ;
3. Gözəllik və camal;
4. Yaradıcılıq və ixtira;
5. Eşq və pərəstiş.

İnsanın bütün bu istəkləri, onun ilahi yaradılışından doğur. Çünki, İslam dini baxımından, insanın ilahi xilqət və zatında bu şeylər mövcuddur. Onun başqa canlılarla əsas fərqi, fitrət məsələsində, yəni aləmə baxış və istəklərindəndir.

Uca Allah Quranı Kərimdə buyurur ki,"İnsan" deyilən varlıq Allahın yaratdıqları bütün varlıqlar içində yaradılış baxımdan ən əşrəfdir. (üstünüdür) .

Biz insanı ən gözəl surətdə yaratdıq! (Tin sürəsi, 4- cü ayə)

Yaradılış baxımdan ən gözəl olmasından əlavə insana şüur verərək insanı daha da üstün varlıq kimi qərar verib. Yəni, insan düşüncə sahibidir. Allah təala buyurur ki, insan öz əməllərinin sayəsində mələklərdən üstün də ola bilər, heyvandan aşağı da enə bilər. O qədər dəqiqliklə ədalətli davranır ki, Allah - yəni, iynə ucu qədər bəhanə tapmaq olmaz.

Allah Quranı Kərimdə buyurur ki, Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər. (Bəqərə sürəsi 286 –ci ayə) Digər ayədə isə :

Kimdir o kəs ki, Allah yolunda könül xoşluğu ilə borc versin, O da onun əvəzini qat-qat (birə on, yaxud birə yeddi yüz) artırsın?! Onu həm də çox qiymətli bir mükafat (Cənnət) gözləyir!.

Göründüyü kimi Allah təala həddindən artıq rəhim və rəhman sifəti ilə insanla danışır. Quran məhz Rəbbinin insanla danışmasıdır. Fikir versək, Allahın insana dəyər verməsinin digər amillərdən biri də uca Allahın insanı bütün pisliklərdən qorumasıdır.

Allah bizləri bizdən çox istəyir. Buna sübut olaraq, Rəbbimizin bizi haramlardan çəkindirməsidir. Ziyanlı və zərərli vərdişləri bizə haram etməsi sırf onun qəddarlığından deyil, bizə mərhəmətindən qaynaqlanır.

Həqiqətən, Allah insanlara zərrəcə zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər! (Yunus, 44)

Biz kitabın girişində Allahın və insanlara haqq olaraq göndərdiyi"İslam" dininin insanlara qarşı necə dəyər verdiyini və mərhəmətlə davrandığını göstərmək istədik.

Hz Əlinin məhşur hədisi:

Motivasiya mövzusuna başlamadan öncə mütləq istəyərdim, Hz Əli (ə) kimi həyatı başdan-başa motivasiya olan dahi şəxsiyyətin, hədisini qeyd edək:

(Kim özünü tanısa (dərketsə) Allahı tanıyar.

Özünü dərk etsə yəni nə?!

İnsan daima nəyinsə axtarışındadı. . Xüsüsən, əziyyət, bəla və müsibət kimi şeylər baş verdikdə insan mənfi reaksiya verir. .

Amma, bunun əksi baş verdikdə, sevinc, şadlıq və. s insanın sevincinin həddi hüdudu olmur. . Hz Əlinin(ə) hədisi bu məsələnin içində gizlənmiş həqiqətdir. . İnsan ləzzət üçün yaradılıb. Yəni nə?!

İnsan daima yaxşı şeylərin baş verməsini və yaxşılıqların olmasını arzulayır. **Fitri olaraq eşqilə (sevgi ilə yaradılmışıq)** ondan qaynaqlanır. . Bizim bir mənfi xüsüsiyyətimiz budur. . Fitri sevgini, məhdud bir çərçivəyə salmaqla kifayətlənmək. . Məhdudiyyət budur, dünyada o xoşbəxtliyi axtarmaq.

Fitrətdəki sevgi daimidir- sevgini bəxş edən də daimi və əbədidi.

Demək, həqiqi ləzzət almaq üçün mütləq, təfəkkür (dərk etmə lazımdır)

Qeyri məhdud şeyi, məhdudiyyətlə çərçivələndirsək, ondan elə məhdud sevgi yaranacaq.

Ona görə, Allah buyurur qəlb hərəmullahdır. . (Fitrətimizdə, qeyri məhdud bir yer varsa, o da qəlbdir. . Sevgi orda yerləşir axı)

İndi bizim işimiz budur, qeyri məhdud sevgi qəlbimizdə idi, bu sevgini cəmiyyətə ötürə bilmək. . (Buna da deyirlər İlahi övliya)

İlahi övliyalar müvəqqəti sevilmir, daima qəlblərdə qalırlar, yaşayırlar (Ayətullah Behcat ağa kimi)

Yaxşı, bəs bu necə olur, necə baş verir?!

Ona görə, Əmirəl Muminin(ə) deyir ki, özünü tanı. .

Əvvəl qəlbindəki qeyri məhdudiyyəti bütün vucuduna hoptur. . (Dil, ağız, nəfəs, və s.)

Bütünlüklə, qeyri məhdud olandan sonra, sən biləcəksən ki, SƏN KİMSƏN!!!

Motivasiya nədir?

Motivasiya uğur qazanmaq istəyən hər bir şəxsin önəmli tələbatlarındandır.

İnsanın məhz özünə inanmasının başlıca amili motivasiyadır. İnsan hər bir an özünə inanmalıdır. Əks halda, ümidsizlik onu bu həyatda nailiyyət əldə etməyə imkan vermir.

Motivasiya xoşbəxt və uğurlu olmaq üçün həyatı əhəmiyyət daşıyır. İnsanların xarakterləri müxtəlif olduğu kimi motivasiya yolları da müxtəlifdir.

Mənim çıxartdığım və hər zaman əməl etdiyim bir dərs var, cəhd etmək, cəhd etmək, yenə də cəhd etmək! Və heç vaxt təslim olmamaq! Riçard Brenson.

Bəli, motivasiya budur. İnsan heç vaxt təslim olmamalıdır. Daim irəli getməyi bacarmalıdır. Uğur qazanmağın yolu çalışmaqdır.

Fikir versəz, istənilən sahədə nailiyyət qazanmaq üçün özünə inam hissi mütləqdir. Hər sahədə rəhbərlik işçi götürərkən onun nə dərəcə optimist olmasını yoxlayır. Çünki, heç bir rəhbərlik istəməz ki, pessimist, özünə inanmağı bacarmayan, irəli getmək üçün səy göstərməyən işçi kollektivi olsun.

Müsəlman optimist olmalıdır.

İmam Əli(Ə)"Nəhcul Bəlağə" kitabında insanları müsbət düşünməyə çağırır. Misal üçün, dünyanın gözəlliklərinə diqqət edək. Allahın mübarək sifətlərini təbiətdə görməyə çalışaq. Başqalarının yaxşı işlərini xatırlayaq. Motivasiyanın ən böyük amilləri insan öz daxilini idarə etməsidir. Kin, həsəd, paxıllıq bunları qəlbimizdən çıxartmağa çalışmalıyıq.

İmam Əli (ə) buyurur:"Nikbinlik odur ki, əməli xalis edəsən. Günahlardan bağışlanmaq üçün Allaha ümid bəsləyəsən".

Həzrət (ə) başqa yerdə buyurur:"Müsəlman insan xəyanətdən uzaq olduğu üçün gələcəyinə görə iki gözləntisi vardır: ya Haqqın nidasına"Ləbbeyk deyər" - Allahın yanında nə varsa, hamısı ən yaxşı şeylərdir. Ya da bu dünyada Allahdan ruzisini alar. Ona görə də, müsəlman insan gələcəyinə nikbin olan insandır".

Müsəlman olan şəxs, başqalarının eyb və nöqsanlarının axtarışında olmamalıdır. Daim düşüncələrini belə, yaxşılığa doğru sürükləməlidir.

İmam Əli (ə) buyurur:"Bədbin insanlar başqalarının yanlış rəftar edəcəyini gözləyirlər. Çünki, özləri də bədbin olduqları üçün düzgün iş görməzlər. İnsanların ən pisi o kəsdir ki, bədbin olduğu üçün başqalarına etimad etməz. Başqaları da onun pis rəftarına görə ona etimad etməzlər"

Müsəlman olan şəxs öz eyb və nöqsanlarının üzərində işləməli və digərlərinin nöqsanlarını və eyblərini ictimaiyyətə təqdim etməməlidir. Fikir versəz, bu cür nöqsanlı işlər bizi irəli getməkdən geri saxlayır. Öz həyatınızın yaxşı olması öz əlinizdədir bunu unutmamalısız.

Müsəlman yaxşı hadisələrin baş verməsini gözləyər. O zaman ki, müsəlman Allah tərəfindən gələn yardımı gözləyər və başqalarının da yaxşı əməllərinin intizarındadır, nəticədə məntiqi belə olar ki, gələcəkdə baş verəcəklər də müsbət hadisələr olacaqdır.

Necəki, Həzrəti Muhəmməd (s) buyurub ki, müsəlman o şəxsdir ki, camaat onun əlindən və dilindən amanda qalar.

Müqəddəs islam dinində müsəlmanların üzərinə düşən vəzifə və məsuliyyətlər müştərəkdir. Onlar təkcə ümumi məsələlərdə deyil, fərdi və xüsusi işlərdə də bir-birinə qarşı cavabdehlik daşıyırlar.

«Kullukum raun və kullukum məsulun ən rəiyyətihi».

«Yəni, sizin hər biriniz digərinə qarşı məsuliyyət və cavabdehlik daşıyır».

Motivasiyanın içində gizlənən ən böyük, vacib ünsür məsuliyyətdir. Məsuliyyət hər bir işdə ən vacib faktordur. İnsan əvvəlcə məsuliyyətliliyi dərk edib, sonra isə ətrafındakılara məsuliyyətlə davranarsa, bu böyük inkişafın göstəricisi olacaq.

Şübhəsiz, çalışqanlıq yüksək ruhun, tənbəllik isə cılız ruhun nişanəsidir. İradə və əzmini yüksəlt ki, tarixin böyük şəxsiyyətləri yüksək iradə və əzmlə ucalıblar. Başqa bir müdrik sözdə:

Bülbül bağı, bayquş xarabalıqları sevər. Hər bir şəxs öz əzm və iradəsi miqdarında ev tikə bilər.

Deməli, danışdığımız kimi insan öz düşüncələrini idarə etməyə bacarmalıdır. Elə məhz bu səbəbdən Müqəddəs İslam dini xüsüsilə niyyətə önəm verir. İnsanın niyyəti onu mənzilə çatdırır.

Böyük ruh sahibinin cismi də istər-istəməz həmişə əzab-əziyyət içindədir. Təkcə kiçik ruhlu və qədir-qiyməti olmayan şəxslər rahat yaşayış tərzi keçirir, rahat yatır, yeyir və bəzən də uzun ömür sürürlər. Amma, ruhun böyük olması, ruh sahibinin zəhmətlə qarşılaşmasına və bəzən də onun ömrünün qısa olmasına səbəb olur.

Mütənəbbi deyir:

İza kanətin nüfusu kubara Təibət fi muradihil əcsam.

Mənası: Ruhun böyük olması, cismin zəhmət çəkməsinə səbəb olur.

Elə buna görə də, böyük ruh sahibləri həmişə zəhmət içində olmuşlar. Hz Əli (ə) tarixin yeganə şəxsiyyətidir,

fəhləlikdən tutmuş, xilafət rəhbərliyinə qədər bütün işlərdə çalışmışdı. Hz Əli (ə) fəhləliklə məşğul olanda işin zəhmətini və ya əziyyətini heç kimə hiss etdirməzdi.

Hansı sahədə olursa-olsun, böyük ruha yiyələnən şəxslər cismi rahatlıqdan məhrum olacaqlar.

Əziyyət çəkmək, əziyyətə qatlaşmağa hazır olmaq lazımdır. Əks halda, bəhər (ləzzət) heç bir zaman olmayacaq. İnsan öz ruhunu tərbiyyələndirməlidir. Əvvələrdə qeyd etdiyimiz kimi, çalışmaq lazımdır ki, ruh çirkinliklər və pisliklərdən uzaq olsun. Bütün bunlar motivasiyanın başlıca amillərindəndir.

İnsanın ruh və mənəviyyatının məsx olub heyvana çevrilməsi mümkün olan bir şeydir. Hətta elə bir heyvana çevrilə bilər ki, dünyada o çirkinlik və pislikdə heyvan olmasın. Qurani-kərimin «**Əraf» surəsinin 179-cu ayəsində «bəl hum əzəll»** — yəni bəzi insanların heyvandan da aşağı səviyyədə olması barədə söhbət açılır. Bu necə olar bilər? Bəli, insanın ruhən heyvana çevrilməsi mümkün olan bir şeydir! Çünki hər bir insanın şəxsiyyəti onun əxlaqi və psixoloji xüsusiyyətləri ilə ölçülür.

Səhabələrdən biri söyləyir ki, İmam Səccad (ə) ilə Məkkəyə getmişdik; Ərəfatda minlərlə hacı görüb dedim: «Ma əksərəl həcic» yəni, maşallah bu il hacı çoxdur.

İmam (ə) buyurdu: «Ma əksərəz-zəcici və əqəllil həcic» yəni necə də səs-küy və fəryad çox, hacı isə azdır.

O şəxs deyir: İmam (ə) -ın nə etdiyini bilmədim, amma bir də baxdıqda səhranı müxtəlif heyvanlarla dolu gördüm. Onlardan yalnız bir neçəsi həqiqi insan surətində idi. Sonra

İmam (ə) buyurdu: İndi başa düşdün ki, bu işin batini nə yerdədir?

Bu məsələ İmam (ə) və saleh bəndələr üçün gün kimi aydın məsələlərdən biridir. Əgər biz müasir insanlar, söylənilənləri qəbul etmiriksə, yanılırıq.

Bütün tanınmış filosoflar, ilahi məqama çatmağın ən böyük yolunun əxlaqdan keçməsini vurğulayırlar. Əxlaq – Allah tərəfindən insana verilən böyük nemətdir.

Əgər hansısa bir şəxs pulpərəstdirsə, qiyamətdə həmin qızıl-gümüş əridilmiş qızmar şəkildə onu yandıracaqdır, çünki maddəyə ibadət edən bir şəxs məsx olunub anormal şəklə çevrilmiş bir insandır.

Yəhşərun-nasi əla niyatihim.

İnsanlar qiyamətdə öz məqsəd, istək və niyyətləri əsasında tanınacaqlar. Siz bu dünyada kimsiz və necə olmaq istəyirsiniz? Sizin istəkləriniz insaniyyətə layiq bir istəkdir, yoxsa yırtıcı heyvanların istəkləri ilə oxşardır?

İstəkləriniz nədirsə, o cür də tanınacaqsınız. Elə buna görə də, Allahdan başqa, bütün şeylərə ibadət etməyin qarşısı alınır, çünki insan nəyə pərəstiş etsə, o cür də olacaqdır.

Əgər bir şəxs, hansısa bir heyvanın xüsusiyyətlərini əldə etmiş olsa, ruhi və mənəvi baxımdan həmin heyvana çevrilmiş olur.

Ona görə İslamda niyyət və məqsəd çox önəmlidir. İnsanın məqsədi və niyyəti ali olmalıdır. Özünə inam hissinin qaynaqlandığı ilkin mərhələ elə bundan başlayır.

«Əhbib linnasi ma tuhibbu linəfsikə və əkrəh ləhum ma təkrəhu linəfsikə».

Yəni, «özün üçün istədiyini başqaları üçün də istə və özün üçün xoşlamadığını başqaları üçün də rəva bilmə».

Xalis müsəlman olmaq üçün, insan öz daxilini idarə etməyi bacarmalıdır.

Biz Əli (ə) -ı Allahın şiri adlandırırıq, çünki o həzrət hər iki cəbhədə hamıdan üstün olmuşdur. Birincisi, xarici və ictimai cəbhə sayılan döyüş meydanlarında güclü pəhlivanları yerə vurması, ikincisi, daha əhəmiyyətli sayılan daxili cəbhədə isə öz üzərindəki hakimiyyətidir. O, bütün meyl və hisslərinə hakim olan bir insandır. .

Həzrət Əli(ə) məhz daxilinin hakimi olduğu üçün o səviyyəyə çatmışdır. Bəli, insan birinci növbədə özündən başlamalıdır. .

İslam İdeologiyası

İdeologiya varlığa münasibətin bir formasıdır. Hər bir ideologiya dünyaya öz pəncərəsindən baxır. Həyatın hər sahəsində ideologiyanın öz programı olur.

İdeologiya həyatı bu program əsasında qiymətləndirir.

İdeologiya məhz düşünməkdir. Düşünən insan yaşayan insandır. Allah təala Quani Kərimdə bir çox ayələrdə bizləri düşünməyə çağırır. Çünki, düşünmək insanın xilaskarıdır.

Quran deyir ki, sən əvvəl əqidəni islah etməlisən. Çox vaxt sənin ilk cihadın öz düşüncələrinlə olur. Əvvəlcə əqidənlə

cihad edərək düzgün əqidə əldə etməlisən, haqqı kəşf etdikdən sonra isə onun yolunda cihad etməlisən.

Rus tədqiqatçısı

T. Stoyçev ideologiyanı özündə çoxaspektli, siyasi, etik, estetik, bəzi hallarda, dini və bədii ideya adlandırır. Onun fikrincə, ideologiya sosial həyatı, onun vasitəsilə təbii gerçəkliyi sistemli nəzəriyyə səviyyəsində, qneseoloji inikas etdirir.

Fransız filosofu R. Aron yeni ideoloji əsrin başlanğıcını bəyan etdi.

Alman filosofu O. Lemberq iddia edirdi ki, insanlar ideologiyaya xilaskar kimi baxırlar. İdeologiyanın tükənməz mənəvi potensiala malik olduğunu göstərir. İdeologiyanın dirçəldilməsi neokonservativ, neoliberal, radikal dönümləri ilə fərqlənirdi.

Görkəmli filosof

E. Fromm ideologiyanın səfərbər edici mənəvi qüdrətə malik olduğunu göstərməklə, onun"həyatın mənəvi-ruhi və fiziki dəyərlərini cəmləşdirmək" qabiliyyətinə malik yeni istiqamət, yeni fəlsəfə olduğunu qeyd edir.

İdeologiyalar idrakı yükünə görə elmi və qeyri-elmi, həqiqi və yanlış, doğru və illüziyalı növlərə ayrılır. Sosial yönümlərinə və funksiyalarına görə isə ideologiya mütərəqqi və konservativ, inqilabi və təkamülçü, liberal və radikal, millətçi və beynəlmiləlçi, habelə, sinfi, milli və irqi, dini və

dünyəvi, rasional və irrasional, universal və partikulyar, uzunmüddətli və qısamüddətli və s. növlərə ayrılır.

Bəzən insan cəmiyyətdən və həyatdan əlini üzür, yəni bədbinləşir. Məhz zehnindəki ideyalarla insan həyata qayıdır. eməkk ki, həqiqətən düşünmək insanı bu həyatda irəli aparır.

Motivasiyada sevgi və məhəbbət amili

Bəzən biz sevmədiklərimiz işlərlə məşğul olanda, sevmədiklərimiz insanlarla əhatələndikdə çox məyus oluruq. Bunun başlıca səbəbi kainatın yaradıcısının fitrətimizi sevgi, məhəbbət mayesi ilə yoğurmasındadır. Həyatın quruluş strukturu sevgi ü Sevgisiz həyat təsəvvür edilə bilmir. Biz amma həqiqi sevgi anlayışını düzgün anlaya bilmirik.

Muhyiddin Ərəbinin sözü ilə desək:

«Heç kəs öz yaradıcısından başqasını sevməmişdir. Allah-təala müxtəlif adlar altında hər an sevilir. Məcnun elə zənn edir ki, onun eşqi Leyliyədir, amma öz fitrətinin (qəlbinin) dərinliyindən xəbərsizdir. »

Peyğəmbərlər Allahın adını və Ona ibadət etməyi öyrətmək üçün göndərilmişlər.

Bu ki, bütün insanların fitrətində vardır. Onlar insanlara düz və əyri yolu tanıtmaq üçün göndərilmişlər. Bəşəriyyətin yol göstəricisi olan peyğəmbərlər, onları səhv yoldan düz yola yönəltmək üçün göndərilmişlər. Onların insanlara sözü budur: «Ey insan, sən mütləq bir kamal aşiqisən, zənn etmə ki, pul, məqam, şan-şöhrət kamaldır».

Qurani-kərimin «Rəd» surəsinin 28-ci ayəsində buyurulur:

«O kəslər ki, Allahı zikr etməklə ürəkləri rahat olduğu halda iman gətirmişlər. Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aram tapar!»

Quran demək istəyir ki, bəşər heç bir fəlsəfə və ideya ilə rahatlıq tapa bilməz.

Əvvəla onu bilməliyik ki, motivasiyadan əvvəl insanın zehnindəki fikirləri və məqsədləri onu irəli aparmalıdır, yəni əksinə uçruma yox.

İnsan özü-özünə verdiyi inam və dəstəyi sevməlidir. Bütün bunlardan öncə insan özünü sevməlidir. Çünki, Allah insanı sevilməyə laiq olaraq yaradıb. Sevgi olan yerdə inkişaf var. İnsan öz düşüncələrini bölüşməyi bacarmalı və sevməlidir.

Motivasiyada Səbr

Hər bir işdə insan həm məsuliyyətli, həm də səbrli olmalıdır. Səbr insanın məqsədinə nail olmasına böyük köməkçi vaistədir. İslamınn əsas meyarı məhz səbrdir. Fikir versək, Qurani Kərimin bir çox ayələrində Allah insanları səbrli olmağa çağırır. Allah səbr edənləri çox sevir. Bəşəriyyətin əşrəfi Məhəmməd (s. a. s) buyurur ki, səbr imanın yarısıdır. Müsəlman olan şəxs, gərək hər cür hadisələrə, hətta bəla və müsibətlərə səbrlə yanaşmağı bacarsın. Hz Muhəmməd ilkin dövrdə, yəni

Peyğəmbərliyin ilk illərində çox əziyyətlərə qatlaşdığından ona təbliğ etmək çox çətin gəlirdi. Uca Allah Rəsuluna səbr et deyə müraciət edirdi.

Allah (subhənəhu və təalə) Peyğəmbərinə səbrli olmağı əmr edərək buyurur:

– ***Səbr et! Sənin səbrin ancaq Allahdandır! (Nəhl surəsi, 127)***

– ***Elçilərdən möhkəm iradə sahiblərinin səbr etdiyi kimi, sən də səbr et! (Əhqaf surəsi, 35)***

Göründüyü kimi, öz elçisinə səbrin nə qədər əhəmiyyətli olduğunu buyurur. Nəyəsə nail olmaq istəyirsənsə, ilk öncə səbr edəcəksən. İnsan başa düşməlidir ki, birdən-birə insan heçnəyə nail ola bilməz. İşin əvvəlində uğursuzluq da ola bilər, qəzəb də ola bilər, bütün bunlara rəğmən insan səbrli olmalıdır.

Həmçinin Uca Allah səbr edənləri mükafatlandıracağını vəd edərək buyurur:

– ***Səbrli olanlara etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik. (Nəhl surəsi, 96)***

– ***Yalnız səbr edənlərə mükafatları saysız-hesabsız veriləcəkdir. (Zumər surəsi, 10)***

Allah Yusif peyğəmbərin (aleyhissələm) belə dediyini xəbər vermişdir:

– ***Kim Allahdan qorxub pis əməllərdən çəkinsə və səbr etsə, (bilin ki) Allah yaxşı işlər görənlərin mükafatını əsla zay etməz! (Yusuf surəsi, 90)***

Yusif peyğəmbər (ə) bu ayədə səbr və təqvanın onu yüksək məqama çatdırdığını, qurtuluşun da, məhz səbr və təqva ilə

bağlı olduğunu xəbər vermiş, möminlər də bu ayəni qurtuluşun səbr etməklə və Allahın əmrlərini yerinə yetirib, qadağan etdiklərindən çəkinməklə mümkün olduğunu anlamışlar. Rəsulullah (səlləlallahu aleyhi və səlləm) buyurur:

– Möminin işi necə də qəribədir. Həqiqətən, onun bütün işləri qəribədir. Allah ona elə bir şey təqdir etməmişdir ki, onun üçün xeyirli olmasın. Başına yaxşı bir iş gəldikdə şükr edər və bu onun üçün xeyirlidir. Müsibət üz verdikdə isə səbr edər.

Bu da onun üçün xeyirlidir. (Muslim, Səhih, Kitəbuz-Zuhd, 8/227; Əhməd, Musnəd, 1/173; əd-Darimi, Sunən, Kitəbur-Raqaiq, 2/318)

Ayələrdən və hədislərdən göründüyü kimi, müsəlman olan şəxs mütləq səbrli olmalıdır. Motivasiyanın əsası səbrdir. Bir işə, uğura nail olmaq üçün insan səbrlə hərəkət etməli və məsuliyyətli olmalıdır.

Səbr insana əvvəlcə zəhər kimi görünür, lakin buna öyrəşəndən sonra bal olur. Səbri olmayanlar nə qədər də yoxsuldurlar.

Səbrli olmaq çox çətin məsələdir. Səbr elə bir nemətdir ki, Allah onu bütün insanlara paylayıb. Amma kimlərsə, qəzəb hissi ilə onu öz daxili aləmində öldürüb. Elə o səbəbdən, qəzəbli insan üçün səbrli olmaq çox çətin məsələdir. Özünə inam hissi yaratmaq üçün ilk öncə özünü səbrli olmağa hazırlaşdırmaq lazımdır. Səbrsiz insanlar adətən heç nəyə nail ola bilmirlər. Qəzəb insanı uçruma aparan amildir. Bütün Peyğəmbərlər və imamlar bizlərə ən böyük tövsiyyələri səbrli olmağa çağırmaqlarıdır.

Əxlaq elmində səbri müxtəlif cür şərh edirlər.

1. Səbr ibarətdir: nəfsi ağlın və dinin buyurduqlarına vadar etməkdən. Və ağlın və dinin qadağan etdiklərindən çəkindirməkdən.

2. Səbr - yəni, nəfsin çətinliklər və bəlalar zamanı sabitliyini saxlaması. Belə ki, dilini şikayət üçün açmasın, bədənini bəyənilməyən hərəkətlərdən saxlasın.

3. Səbr, yəni dini hədəflərin şeytani və nəfsani hədəflər qarşısında durmasıdır. Bu mənada ki, insan müsibət və çətinlik zamanı şeytanın (lən) vəsvəsələrinə müqavimət göstərər və Allaha itaət yolundan azmaz.

Əziz Peyğəmbərimiz (s) buyurur:"Səbr üç növdür: müsibət zamanı səbr etmək, itaətə səbr etmək, günahı tərk etməyə səbr etmək".

Müsibətə səbr etmək - İlahi qürb məqamına çatmağın yollarından biridir. Ona görə də Allah Təala bu sifətə malik olan sabirləri Öz məhbubu olan insanlar adlandırmışdır.

İmam Baqir (ə) buyurur:"Həqiqətən, hər kim səbr edər, öz səbri ilə oruc tutan, gecə oyaq qalanın məqamındadır. (Həmçinin) Peyğəmbərin (s) bayrağı altında qılınc vurmuş şəhid məqamını əldə edər".

Hz Eyyub Peyğəmbər övliyalar içində öz səbri ilə ən üstün məqam sahibi idi. Quranda bu barədə ayədə buyrulur:

Eyyubun başına gələn sıxıntı və kədərlər haqqında olan ayələrin məalı belədir:"***Eyyubu da xatırla! O bir zamanlar;"Mənə bu dərd mübtəla oldu. Amma Sən***

mərhəmətlisən!" - deyə Rəbbinə yalvarmışdı. Biz də onun duasını qəbul etmiş və onu bu bəladan qurtarmışdıq; daha doğrusu qatımızdan bir rəhmət və layiqi ilə qulluq edənlərə bir nəsihət olsun deyə, yaxınlarını bir qat artıraraq ona geri vermişdik." [Ənbiya, 83-84]

Müdrik Qoca – Çin hekayəsi

Kəndin birində bir yaşlı adam yaşayarmış. Çox kasıbmış, amma,

Kralın belə qısqandığı bir ata sahib imiş. Kral bu at üçün qocaya az qala xəzinəsinin hamısını təklif etmiş, amma qova heç önəm verməmişdir."Bu at, bir at deyil mənim üçün bir dost. İnsan dostunu satarmı?"deyərmiş.

Bir səhər qalxmışlar ki at yoxdur! Kəndli qocanın başına toplanmış." Ay səni qoca, ağlını itirmiş qoca, bu atı səndən alacaqları müəyyən idi. Krala satsaydın, ömürünün sonuna qədər bəylər kimi yaşardın. İndi nə pulun var, nə də atın,"demişlər.

Qoca,"Qərar vermək üçün tələsməyin," demiş."Yalnız at itib deyin, çünki həqiqət yalnız budur. Qalanı sizin zənninizdir. Atımın itməsi bir talehsizlikdirmi, yoxsa şansdır bunu hələ bilmirik."

Kəndlilər qocaya qəhqəhələrlə gülürmüşlər. Aradan on beş gün keçmədən, at bir gecə qəflətən geri qayıtmışdır. Sən demə at oğurlanmamış sadəcə dağlara çəkilmişdir. Dönərkən də vadidəki on iki vəhşi atı arxasına taxıb gətirmişdir. Bunu görən kəndlilər toplanıb üzr istəmişlər.

"Bağışla," demişlər."Sən haqlı çıxdın. Atının itməsi bir talehsizlik deyil sanki bir dövlət quşu oldu sənin üçün. İndi bir at sürün var."

"Qərar vermək üçün yenə tələsirsiniz," deyirmiş qoca."Yalnız atın geri döndüyünü söyləyin. Görünən həqiqət yalnız budur. Ondan sonrasının nə gətirəcəyini hələ bilmirik. Bu daha başlanğıcdır.

Kəndlilər bu dəfə açıqca qocaya lağ etməmişlər amma içlərində,"Bu adam doğrudan dəlidir," deyə söyləmişlər.

Bir həftə keçmədən, qocanın tək oğlu vəhşi atları əhliləşdirməyə çalışarkən atdan düşmüş və ayağını qırmışdır. Evin dolanışığını təmin edən oğul, indi uzun bir müddət yataqda qalacağmış.

Kəndlilər yenə gəlmişlər qocanın yanına."Bir dəfə daha haqlı çıxdın," demişlər."Bu atların ucbatından tək oğlun uzun müddət qıçından istifadə edə bilməyəcək. Sənə baxacaq başqası da yoxdur. İndi əvvəlkindən daha kasıb, daha yazıq olacaqsan."

Qoca,"Siz erkən qərar vermə xəstəliyinə tutulmusunuz," deyə cavab vermiş."O qədər tələsik etməyin. Oğlum qıçını qırdı. Həqiqət budur. Sonrası sizin şərhiniz, sizin verdiyiniz qərardır.

Həyat belə kiçik parçalar halında gəlir və ondan sonra nələr olacağı sizə əsla bildirilməz."

Bir neçə həftə sonra düşmənlər qat-qat böyük bir orduyla hücum etmək qərarına gəlmişdir. Kral son bir ümidlə əli silah tutan hər kəsi əsgərliyə çağırmışdır.

Kəndə gələn vəzifəlilər, qocanın qırıq qıçlı oğlu xaric bütün gəncləri əsgərliyə götürmüşlər! Döyüşün qazanılmasına imkan yox imiş. Gedən gənclərin öləcəyini ya da əsir düşəcəyini hər kəs bilirmiş.

Kəndlilər yenə qocanın yanına gəlmişlər.”Yenə haqlı olduğun sübut edildi,”demişlər.” Oğlunun qıçı qırıq amma heç olmasa yanındadır. Halbuki bizimkilər, bəlkə heç qayıtmayacaqlar. Oğlunun qıçının qırılması bəxtsizlik yox, şansmış məgər.”

"Siz erkən qərar verməyə davam edin,” demiş qoca.”O, isə gələcəkdə nə olacağını kimsə heç vaxt bilməz. Bilinən tək həqiqət var, mənim oğlum yanımda, sizinkilər əsgərlikdədir . Bunların hansının taleh, hansının şanssızlıq olduğunu kim bilə bilər ki?”

Bu mənalı əhvalatdan çıxarılacaq dərslər hansılardır?

Müdrik qoca, yenə onlara başa salmaq istədi ki, qərar verməyə, fikir bildirməyə heç zaman tələsməyin. Bəzən elə bizim səhflərimizin əksəriyyəti tez qərar verdiklərimizə görə olur.

Bu hekayə bizə, başdan –ayağa ibrət və səbr dərsi öyrədir. İnsan hər zaman çalışmalıdır ki, dilini və bütün bədən əzalarını idarə etsin ki, sonra peşman olmasın. Hz Əli (ə) buyurur ki, çox üzr istəməyə aludəçi olmayın. Hədisin davamında buyurur ki, elə işlər görün ki üzr istəməyisiz.

Belə rəvayət edirlər ki, bizim ellərdən çox-çox uzaqlarda, uzaq Xorasan elində Abdulla ibn Tahir adında çox adil bir vali hakim imiş. Bütün işlərində və qərarlarında ədalət meyarına daim əməl edərmiş. Ədaləti ilə çox məşhur imiş.

Günlərin bir günüdə Abdulla ibn Tahirin yasavulları Nişapur şəhərinə yaxın bir yerdə bir dəstə ev oğrusunu yaxalayırlar. Bu oğrular indiyə qədər çox ev yarmışdılar, onları ələ keşirmək heç cür mümkün olmamışdı. Oğruların söz-söhbəti bütün Xorasana yayılmışdı və onların qorxusundan heç kəs evində dinc yata bilmirdi. İndi isə ələ keçmişdilər. Odur ki, yasavullar sevinc içində idilər və valiyə müjdə verrməyə, ondan muştuluq istəməyə tələsirdilr. Tələsdikləri üçün də ehtiyatı əldən vermişdilər.

Yasavulların ehtiyatsızlığından istifadə edən oğrulardan biri fürsətdən yararlanaraq qaçmağı bacarır. Yasavullar bundan çox gec xəbər tuturlar, xəbər tutan kimi də dörd tərəfə səpələnib onu axtarmağa başlayırlar.

Elə bu vaxt Heratdan Nişapura, evinə dönən bir dəmirçi öz yolu ilə gedirdi.

Yasavullar onu qaçan oğruya oxşatdılar, üstünə cumub yıxdılar, əl-qounu bağlayıb digər oğrulara qatdılar. Bir müddət sonra yasavullar şəhərə çatırlar və valiyə oğruların tutulduğu barədə müjdə verirlər. Vali onları hüzuruna gətirməyi əmr edir. Oğrularla birlikdə yazıq dəmirçini də onun hüzuruna gətirirlər. Vali oğruların əlindən bərk qəzəbli idi, odur ki, onları dindirmədən əmr etdi:

-Hamısını dərhal zindana salın, qoy, ömürlərinin sonuna qədər orada qalıb, canları çıxsın!

Yasavullar əmri yerinə yetirdilər və dəmirçini də oğrularla birlikdə dama basdılar. Ağzını belə açmağa imkan vermədilər. Yazıq kişi zindana girər-girməz dəstəmaz alıb,

namazını qıldı, sonra da əllərini göyə tutub ucadan yalvarmağa başladı:

-Ya Rəbb, Özün şahidsən ki, heç bir günahım yoxdur. Məni nahaqdan tutub dama basıblar. İndi Səndən başqa heç bir ümidim yoxdur. Yeganə nicat yerim Sənsən. Məni bu bəladan qurtar!

Kişi duasını bitirib, gözünün yaşını sildi və bir köşəyə çəkilib oturdu.

Həmin gecə vali yuxusunda gördü ki, dörd cüssəli pəhləvan gəlib, onun taxtını başına çevirirlər. Abdullah ibn Tahir təlaş içində yuxudan ayıldı. Gördüyünün yuxu olduğunu başa düşüb sakitləşdi, başını yastığına basıb yenidən yuxuya getdi. Yenə eyni yuxunu gördü. Bu dəfə də yuxudan hövləng ayıldı. Bir daha yata bilmədi, gördüyünün nəyəsə işarə olduğunu anladı. Çox düşündü və birdən hər şeyi başa düşdü, barmağını dişlədi:

-Deyəsən, məni hansısa günahsız, məzlum kimsənin ahı tutub. Dərhal məsələni araşdırmalıyam.

Vali səhərəcən yata bilmədi. Səhər namazından dərhal sonra zindan rəisini yamma çağıtdırıb soruşdu:

-Mənə düzünü söylə, dustaq olanlar içərisində günahsız, məzlum bir kimsəyə rast gəlməmisən ki? İçlərində oturuşundan, duruşundan, baxışından günahslza bənzəyən, üz-gözündən məzlumluq yağan bir kimsə varmı?

Rəis dedi:

-Canım, gözüm ağam. Bilmirəm necə deyim? Biri var. Elə hey abdəst alıb, namaz qılır, gecə-gündüz gözlərindən yaş

axır, elə hey Allaha yalvarır. Bütün görkəmindən məzlum və məsum adama oxşayır.

Vali:

-Onu dərhal hüzuruma gətirin! Haydı, tələs!

Zindan rəisi"baş üstə" deyib çıxdı.

Bir neçə dəqiqə sonra dəmirçini valinin hüzuruna gətirdilər. Vali ondan haləhvalını, niyə tutulduğunu soruşdu. O da başına gəlnləri bircə-bircə danışdı.

Vali kişini dinləyib günahını başa düşdü. Üzünü dəmirçiyə tutub peşiman halda dedi:

-Səndən üzr istəyirəm. Gerçəkdən də böyük xəta etmişəm. Mənim xətam üzündən zindanda yatmalı olmusan, ailən də, yəqin, indi çox narahatdır. Bəlkə, heç çörək almağa pulları da yoxdur. Qarşında günahkaram və günahkardan min gümüş pul qəbul etməyini xahiş edirəm. Və bundan sonra bir çətinliyin olsa, çəkinmədən yanıma gəl. Mütlıq kömək edərəm.

Dəmirçi cavabında dedi:

-Sən, ağa, heç qəm etmə. Haqqımı sənə halal edirəm. Hədiyyə etdiyin pulu da qəbul edirəm. Allah razı olsun! Amma bir çətinliyim, işim və ya istəyim olsa, yanına gəlməyəcəyəm, əlacını Allahdan istəyəcəyəm. Dərdi verən də, alan da Rəbbimizdir. Zindanda ikən, Ona dua etdim, ondan istədim. Elə O da məni muradıma çatdırdı.

Bu rəvayətdən göründüyü kimi, qərar verərkən tələsmək lazım deyil. Bir xəbər eşitdikdə, ya bir hadisə baş verdikdə

təmkinli olub həqiqətin necə olduğunu meydana çıxarmaq, yalanla doğrunu birbirindən ayırmaq lazımdır. İki düşmən gəlib bir-birinin əleyhinə danışdıqda şah hansının tərəfində olduğunu bildirməməlidir ki, haqlı tərəf qorxub özünü çaşdırmasın, haqsız tərəf isə ürəklənib cəsarətlənməsin.

Deyilənə görə, Herat şəhərində məşhur bir alim var idi. Təsadüfən bir dəfə sultan Herata getdikdə bir müddət orada qalmalı oldu, sultanın dayısı həmən alimin evinə düşmüşdü. Bir gün sultanla şərab içərkən dayısı ona evində qaldığı qoca barədə yalan danışaraq dedi: -Bu qocanın xüsusi bir otağı vardır, gecələr ora gedir və bütün gecəni namaz qılır.

Bir gün mən o otağın qapısını açdım, şərab kuzəsi və bürünc büt gördüm; anladım ki, sən demə, o, bütün gecəni şərab içib, bütə sitayiş edir.

Sultanın dayısı şərab kuzəsini və bürünc bütü də özü ilə gətirmişdi və elə güman edirdi ki, bu sözü deyən kimi sultan əmr edəcək, qocanı öldürəcəklər. Sultan qocanı çağırmaq üçün vəzirin yanına bir qulam göndərdi ki, tez həmin qocanı tapdırıb onunla birlikdə hüzuruna gəlsin.

Vəzir qocanın nə üçün çağırıldığını bilmirdi. Elə əmri yerinə yetirməyə hazırlaşırdı ki, başqa bir qulam gəlib dedi:

-Lazım olmadı, qocanı çağırtdırma, özün də gəlmə.

Bu işə məəttəl qalan vəzir o biri gün sultandan soruşdu:

-Dünən o qoca alimi gah çağırıb, gah da çağırmamağının mənası nə idi?

Sultan dedi:

-Dayımın qorxmazlığı.

Sultan əhvalatı vəzirə danışdı. Sonra dayısına dedi

-Hərçənd sən bu sözü mənə dedin, şərab kuzəsini və bürünc bütü gətirib mənə göstərdin, lakin mən həqiqəti bilməyincə ona bir şey etməyəcəyəm. İndi əlini ver mənə və canıma and iç ki, dediklərin doğrudur, ya yalan.

Dayısı dedi:

-Yalan demişəm.

Sultan:

-Doğrusunu söylə, nə üçün o qoca alim haqqında yalan danışıb onun qanına bais olmaq istəyirdin?

Dayısı dedi:

-Ona görə ki, onun gözəl mülkü var, mən də ora düşmüşəm. Sən onu öldürsəydin, yəqin ki, mülkünü mənə bağışlayacaqdın.

Özünə inam, İnadkarlıq, İsrarlılıq.

Özünün ilk və yeganə biznesini Kemp Gilette yalnız 50 yaşında yaratmışdır!

Bu əfsanə və ya nağıl deyil… sadəcə öz ixtirasının sübutu və istehsal edilməsi üçün Gillette nə az, nə çox düz 22 il vaxt sərf etmişdir. İlk əvvəl heç kim (hətta ailə üzvləri belə) dəmir parçasının insan həyatını belə rahatlaşdıracağına inanmırdı. Buna baxmayaraq, əfsanəvi milyonerin inadkarlığı onu

yolunda döndərmədi və dünyanın ən varlı şirkətlərindən olan Gilette yarandı.

İkinci misal – İntel. İntel şirkəti"İntel İnside" brendini yaradan zaman heç kimin bunu uğuruna inanmırdı. Hətta şirkətdə belə bir brendin yaradılması haqqında danışılanda hamı, sadəcə belə şeylərə gülürdü. O zaman ki, menecment bu sözlərə fikir vermədin brendin inkişafı üçün investitsiyalar ayırdı, və bu günə qədər dünyanın ən rentabelli brendi yaradıldı. Səhmdarlardan başlayaraq şirkət işçilərinə qədər hər kəs bu qərardan razı deyildi, sadəcə İntel şirkətinin əfsanəvi vitse prezidenti olan Denis Karter öz inadı hesabına dünyada ilk dəfə sənaye məhsulunu son müştərilər üçün reklam etdi. Şirkətin o vaxt CEO-su olan Endi Qrouv:"Bu fəlakətdir" desədə razılıq verdi və tezliklə əmin oldu ki, Denis Karter bazarı daha doğru görür.

Nəticə olaraq, istənilən böyük şirkətlər inadkarlıq sayəsində böyük zirvələrə çatmışlar. Insan öz hədəfinə çatmaq üçün, inadkar olmağı bacarmalıdır.

Özünə inam hissi

İnsanın mənəvi aləminin strukturunda yer tutan ən önəmli komponentlərdən biri inamdır. «İnam» dedikdə, çox vaxt dini inam nəzərdə tutulur. Lakin əslində inanmağın çox müxtəlif aspektləri və dərəcələri vardır.

İnsanın dünya ilə münasibətlərinin qnoseoloji, aksioloji və praktik istiqamətlərinə uyğun olaraq üç müxtəlif inam formasından bəhs etmək olar. Digər tərəfdən, başqasının da hər üç istiqamətdə qabiliyyətlərinə inanmaq olar. Birinci halda insan özü subyektdir. Bu zaman iradə və inam üst-üstə

düşür. İkinci halda inanan biri, subyekt isə başqasıdır. Yəni, iradi akt başqasına məxsusdur.

İnsanın özünə inamı və başqasına, özündən kənar bir qüvvəyə inamı fərqli təbiətə və mənşəyə malikdir. İnsan özü subyekt olaraq çıxış edərkən söhbət onun öz idraki qabiliyyətinə, öz zövqünə, qiymətləndirmə qabiliyyətinə və nəhayət, öz əməli fəaliyyətinin motivinə və vasitələrinə inamından gedir.

İnsan öz ideyasını həyata keçirdərkən, mütləq ilk öncə özünə, sonra isə öz düşüncələrinə inanmalıdır. Əks halda, bu uğur qazanmayacaqdır. və yaxud vaxt itkisinə səbəb olacaq.

Özünə inam artırmağın düsturu :

1) Mən həyatın əsas məqsədinə çatmağa nail olduğumu bilirəm, buna görə də hər gün dayanmadan reallaşdırmağı tələb edəcəm və elə indicə hərəkətə keçməyə başlayacam.

2) Mən anlayıram ki, şüurumda üstünlük təşkil edən fikirlər sonunda həyata keçirdiyim hərəkətlər sayəsində fiziki reallığı əldə edəcək. Bu hərəkətlərə isə məni məhz fikirlərim sövq edəcək.

Mən bilirəm ki, özünə təlqin planı istənilən məqsədə çatmağa kömək edə bilər. Mən daima beynimdə öz arzumu saxlayacam və bu, sonunda mənə arzumu reallaşdırmaq üçün praktik çıxış yolu tapmağa kömək edəcək. Elə bu gündən özünlə məşğul ol. Özündəki gücü kəşf et.

3) Mən həyatımın əsas məqsədini bir ağ kağıza yazacam və hər gün özüm özlüyümdə bu barədə danışacam. Məqsədə çatmaq üçün vuraşacağam bütün manelərə rəğmən. .

4) Çox yaxşı başa düşürəm ki, heç bir var-dövlət və ya cəmiyyətdəki mövqə əgər həqiqət və ədalət üzərində qurulmayıbsa, stabil ola bilməz, elə buna görə də hamıya xeyir gətirməyən işlərdə iştirak etməyəcəm.

Başqalarının güc və qüdrətini cəlb etməklə mütləq irəli gedəcəm. Digər insanlarla əməkdaşlığın necə kömək ola biləcəyini dərk edirəm. Mən nifrətdən, paxıllıqdan, qısqanclıqdan, eqoizm və ədəbsizlikdən qurtulacam və özürndə bəşəriyyətə qarşı sevgini tərbiyələndirəcəm, çünki bilirəm digərlərinə mənfi münasibət mənə heç vaxt uğur getirməyəcək. Mən başqalarını mənə inanmalarına məcbur edəcəm, çünki özüm özümə və digərlərinə inanacam.

5) Mən öz şəxsi düsturumun müddəasını tapacam, onu öyrənəcəm və gündə bir dəfə tam inamla ucadan təkrar edəcəm. O, tədricən mənim fikirlərimdə və hərəkətlərimdə təsir göstərəcək. Belə ki, sonda mən uğurlu insana çevriləcəm.

7) Yox, mazoxizm lazım deyil. Sadəcə çətinliyin bizi məhv edəcəyinə yox, onun bizi daha güclü edəcəyini bilin. Problem qaçmaqla onu həll etmək olmur. Nə qədər çətin və ağır olsa da, onun üzərinə gedin, həll yolların axtarın. Zəif nöqtələrinizi, çatışmazlığınızı deyib özünüzü günahlandırmaqdansa, onları sevin.

8) Surprizlər həmişə xoş hislər vermir, bəzən ağrılı anlar da yaşadır. Necə ki xoş hadisələrə qollarınızı açırsınız, pis şeylərlə qarşılaşanda da eyni reaksiyanı verməyə çalışın. Axı həyat bəzən alça kimidir, turş olsa da, heç cür yeməkdən doymaq, imtina etmək olmur.

İsrarlılıq

İnsan təbii haldır, bəzən düşüncələri digər insanlar tərəfindən gülünclə qarşılana bilər. Bunun iki səbəbi vardır. 1) Düşmənlərinizin çoxluğu sizin inkişafınıza mane olmaq üçün bu vaistələrə əl atır. 2) Seçimdə yanılmısız, yəni doğru istiqamət götürməmisiz. Əvvəlcə bunu aid etməlisiz. Çox vaxt elə birinci variantla qarşılaşırıq. Əgər belədirsə, siz daim ətrafınıza fikir vermədən irəli gedəcəksiz.

Birinci, ikinci dəfə də uduza da bilərsiz, yəni ola bilər ki, istədiyinizə nail ola bilməyəsiz. Amma siz davam edəcəksiz nə vaxt ki istədiyinizə nail olacaqsız.

Fikir verin, Allah təala duada, ibadətdə israrlı olan bəndələri çox sevir. Çünki bu bəndələr həqiqətən nəyəsə nail olmaq istəyirlər. Bəzən biz hər hansı bir işə başlayırıq. Birinci cəhddən baş tutmadığı təqdirdə, işi yarımçıq dayandırırıq. Amma Allah təala daim cəhd etməyə, israrlı olmağa çağırır bizləri.

Vərdiş

Motivasiyanın əsas ünsürlərindən biri məhz vərdişdir.

Vərdiş – insanın təlim və iş prosesi dövründə qazandığı, təkmilləşdirdiyi və lazım olan anda asanlıqla (avtomatik şəkildə) tətbiq edə bildiyi avtomatlaşmış hərəkətlərdir. Hərəkətlərin yalnız tənzim və icra üsulları avtomatlaşır, sensor nəzarət saxlanılır.

Vərdişlər və onların mahiyyəti.

Əvvəl qeyd etdiklərimizdən aydın olduğu kimi, fəaliyyət insanın şüurlu məqsədləri ilə tənzim olunan fəallığıdır. Bu o deməkdir ki, insan fəaliyyəti üçün şüurluluq əsas,

fərqləndirici amildir. İnsan hər hansı bir fəaliyyətin icrasına ilk dəfə başlayarkən işin müəyyən cəhətlərini əvvəlcə müfəssəl şəkildə və şüurlu tənzim etməli olur. Həmin işin dəfələrlə icrası, təkrarı nəticəsində get-gedə həmin işi şüurun daha az iştirakı ilə yerinə yetirməyə başlayır, başqa sözlə həmin işin icrası bir növ avtomatlaşır. Şüurlu təkrarlar nəticəsində insanda fəaliyyətin icra və tənzim olunmasının bu cür qismən avtomatlaşmış ünsürləri vərdiş adlanır. Fəaliyyətin mənimsənilməsi, vərdişlərin yaranması zamanı yerinə yetirilən iş və hərəkətlər şüurlu iş və hərəkətlər olaraq qalır, yalnız onların icra tərzləri avtomatlaşmış olur.

Aparılmış tədqiqatlar göstərmişdir ki, vərdişin yaranması nəticəsində hərəkətlərin getdikcə avtomatlaşması həmin hərəkətlərin daxil olduğu işin şüurlu tənzim olunmasının daha çox genişlənməsinə səbəb ola bilir.

Vərdişlər yaranarkən qismən avtomatlaşmadan asılı olaraq, işin strukturunda bir sıra dəyişikliklər özünü göstərir. Bunlara aşağıdakıları aid etmək olar:

1. Vərdiş yaranarkən birinci növbədə hərəkətlərin icra üsulları dəyişir. Hələ vərdiş yaranmamışdan qabaq ayrı-ayrılıqda icra etdiyimiz bir sıra hərəkətlər vahid, mürəkkəb bir hərəkətdə birləşir. Biz həmin hərəkətləri ardıcıl olaraq fasiləsiz şəkildə, sürətlə yerinə yetirə bilirik. Məsələn, hər hansı bir musiqi parçasını çalmağı ilk dəfə öyrənən adam əvvəlcə müvafiq notları ayrı-ayrılıqda icra edir. Vərdiş yarandıqdan sonra həmin musiqi parçasını rəvan və sürətlə ifa edir.

2. Vərdiş yaranarkən artıq, lazımsız hərəkətlər aradan çıxır. Məsələn, xarici dili yenicə öyrənməyə başlayan adam

danışarkən tez-tez dayanır, fikirləşir, artıq sözlər işlədir, ana dilinin strukturundan uzaqlaşa bilmir. Lakin vərdiş yarandıqdan sonra bu kimi artıq hərəkətlərə yol verilmir.

3. İş üzərində sensor nəzarət üsulları dəyişir, görmə nəzarəti hərəki nəzarətlə əvəz olunur. Məsələn, kompyüterdə işləməyə təzəcə başlayan adam daima gözü ilə əlini nəyin üzərinə aparacağını, nəyə toxunacağını izləyir. Lakin bu sahədə vərdişə yiyələnmiş təcrübəli adam nəyi edəcəyini gözü ilə axtarmadan sanki barmaqları lazımi nöqtəyə yönəlir. Musiqi vərdişlərinə, müəyyən cihazlarda, maşınlarda işləmək vərdişlərinə yiyələnmiş adamlarda da görmə nəzarə-tinin hərəki nəzarətlə əvəz olunması özünü aydın şəkildə göstərir.

4. Vərdiş yarandıqda işin mərkəzi tənzimetmə üsulları dəyişilir. Nəticədə insanın diqqəti iş üsullarını qavramaqdan azad olur və ən çox şəraitin və işin nəticəsinin üzərinə keçirilir. Məsələn, enməyə başlayan təyyarəçi təyyarəni mövcud şəraitdə yerə oturtmaq tipindən irəli gələn bütün standart priyomlar seriyasına daxilən hazır olur. Ona görə də mövcud priyomdan sonrakına keçmək üçün təyyarəçi xüsusi planlaşdırma aparmır. Bu zaman o, yalnız təyyarəni hansı üsulla yerə endirməyi planlaşdırır.

Yuxarıda qeyd edilənlərdən göründüyü kimi, fəaliyyətin mənimsənilməsi bacarıq və vərdişlərlə nəticələnir.

Vərdişlər özü özlüyündə iki yerə ayrılır.

Pis vərdişlər – İnsanı ilahi məqamlardan , ibadətin feyzindən kənarda qoyan, dünya həyatında müəyyən mənada sıxıntı içərisində saxlayan hisslərdir. Adətən bu insanlar nikbin olurlar. Pis vərdişlərə misal olaraq, bunları təqdim etmək istərdim:

1) Həddindən artıq yeyən insanlar. Bu tip insanlar adətən həm fəaliyyətsiz olurlar, həm də beyin arteriyalarının sərtləşməsinə səbəb olaraq zehin gücünün azalmasına gətirib çıxarır.

2) Siqaret çəkmək. Həm bir çox İslam alimlərinin qadağa etdiyi və digər alimlərin məkruh buyurduğu bir vərdişdir. Çoxlu beyin büzülməsinə səbəb olar və Alzheimer xəstəliyinə yol açа bilər. Bir çox ağciyər və nəfəsborusu xəstəlikləri yaradır.

3) Vaxtı – vaxtında yatmamaq. Beyin fəaliyyətinə çox pis təsir edir. Yuxu beynimizin istirahət etməsini təmin edir. Yuxudan uzun müddətli məhrumluq beyin hüceyrələrinin ölməsini sürətləndirir.

Göründüyü kimi, bu siyahını artırmaq da olar. Biz irəli getmək üçün pis vərdişlərdən mütləq uzaq olmalıyıq.

Keçək əsas bizim inkişafımıza xeyrli təsiri olan xeyrli motivasiyalara.

Düşünmək, və beyni işlətmək. Allah Qurani Kərimdə bir çox ayələrdə"düşünün" – deyə vurğulayır. Adətən insan özlüyündə düşünəndə çox nailiyyətlər əldə edir. Biz ilk öncə uğur qazanmaq üçün düşüncələrimizi yaxşılaşdırmalıyıq.

1) Gündəlik kitab mütailə etmək. Bəzən biz bütün günü informasiyaları ya internet resusurslarından, yaxud etibar etdiyimiz şəxslərdən öyrənirik. Amma nədənsə kitab mütailə etmək, oxumaq tədricən cəmiyyətdən uzaqlaşmışdır. İnsan özü oxuyaraq öyrənməsi daha əlverişlidir. Belə olduğu təqdirdə daha çox bilik əldə edilir. Motivasiyaya təsiri odurki,

kitab oxumağla insan düşüncələrinə düzgün istiqamət verə bilər. Düşüncələr düzgün olduqdan sonra, insan öz hədəflərinə doğru dəqiqliklə irəliləyər. Hər şeyin əvvəlində bizim düşüncələrimiz və təfəkkürümüzdür. Əgər sağlamdırsa, hədəfə doğru irəliləyəcəksən.

Mütaliə şübhəsiz ki, adamı stressdən azad edir. Bu müasir dünyada xüsusilə əhəmiyyətlidir. Çünki, insanların bir çoxu stressdən əziyyət çəkir.”Fantastika" janrı yuxudan əvvəl sakitləşməyə xüsusilə kömək edir.

Kitab oxumaq insanın söz ehtiyatının inkişaf etdirir, artırır. Xüsusilə əgər siz müxtəlif janrlarda kitablar oxuyursunuzsa bu daha sürətlə baş verir. Axı kitablarda rast gəldiyimiz sözlərə, söz birləşmələrinə gündəlik həyatımızda rast gəlmirik.

Mütaliə bizim beynimizi müdafiə edir. Onu müxtəlif xəstəliklərdən qoruyur. Çünki oxuma zamanı onun fəallığı daha da yüksəlir, bu da onun vəziyyətinə çox yaxşı təsir edir.

Əgər irəli getmək, inkişaf etmək istəyirsizsə, mütləqdir ki, gündəlik beyin fəaliyyətinizi məqsədinizə yönəldin. Mütailə sizin yaddaşınızın keyfiyyətini artırır.

Kitab oxumaq adamı özünə əmin edir. Söhbət zamanı kitab oxumuş adam öz biliklərini nümayiş etdirməyə çalışır, bu zaman onun özünə əminliyi daha da artır. Bu ətraf mühitin də səni tanımasına, hörmət etməsinə şərait yaradır ki, adamın özünə münasibətinə kəskin təsir edir.

Mükəmməl yazıçıların əsərlərini oxuya-oxuya mükəmməl nitqə sahib olmaq olar (F. Volter) .

Oxumağın təfəkkürə faydası fiziki hərəkətlərin bədənə olan faydasına bərabərdir (Cozef Addison) .

Vərdişlərimizi doğru istiqamətə yönəldək. Pis vərdişlərdən uzaq olaq. Belə olduqda motivasiyanın xeyli təsir etdiyini özünüz hiss edəcəksiz.

“Mənim ki, belə gətirib” –Qismət

İnsan Allah Taala tərəfindən”ixtiyarı özündə olan bir varlıq" kimi yaradılmışdır. İnsanın həyatında olan ixtiyarlılığı iki yerdə insanın əlində deyil.

1- Dəyişdirilməsi insanın əlində olmayan şeylər (məsələn: ata-anasının kimliyi, hansı millətdən olması, harada dünyaya gəlməsi, kimin nəslindən olması. . .)

2- Allahın vacib etdiyi şeylərə zərər vura bilməsi mümükün olmayan veylər
(məsələn: Quranı yer üzündən yox etmək, Kəbə evini yer üzündən silmək. . .)

Yerdə qalan mövzular yəni fərdi və ictimai şeylərin hamısı insanın öz əlindədir. İnsan özü-özünün həm fərdi həm də ictimai həyatını necə qurmaqda azaddır.

Allah Taala heç kimin həyatına yazmayır ki, bu adam evlənməsin. İnsanın evlənməməsi ya gec evlənməsi ya istəmədiyi şəxs ilə evlənməsi tamamilə insanın özündə ya başqa insanlardan olan səbəblər üzündəndir. Yəni, bəzən insan özü səbəbkardır, bəzən isə başqa insan ya insanlar buna səbəbkardırlar. Belə ki insanın heç bir fərdi və ictimai

işlərinin necəliyində Allah Taalanın tamamilə təqsiri yoxdur, və heç bir uğyrsuzluğun səbəbini Allah Taalada görmək olmaz. Bu, Allaha böhtan atmaq vəAllaha bəd gümanda olmaqdır.

Qurani Kərim 21-ci Ənbiya surəsinin 23-cü ayəsində buyurur:

- الَ يسُْلُ اعمَّا ايفْ اعلُ او هُمْ يسُْلوُ ا ن

"(Qiyamət günü) Ondan (Allahdan) heç bir şey soyuşulmayacaq amma sizdən soruşulacaq."

Biz bilirik ki, Qiyamət günü hər bir insan məsul (cavabdeh) olduğuna görə sorğuya çəkilməlidir. Çünki Qurani Kərim 37-ci Saffat surəsinin də buyurur:

او قِفوُهُمْ إنـهَّم مَّسْولوُ ان

"(Qiyamət günü nida edililəcək:) Saxlayın onları! Onlar cavabdehdirlər."

Yəni, insanlar etdiyi işlərə görə cavab verməlidirlər.

Hər şey insanın öz əlindədir. Quranı Kərim Maidə surəsinin 105-ci ayəsində buyurur:

ياأايهُا الذِّيَ ان اءا امنوُاْ اعلايْكُمْ أانف اسُكُمْ

"Ey iman gətirənlər, sizin özünüzü özünüzə tapşırırıq (özünüzdən muğayat olun) ."

Deməli, insanın taleyi öz əlindədir, və insanın heç bir uğursuzluğunun müqəssiri Allah Taala deyil. Buna görə də, heç bir işdə Allah Taalaya etiraz etmək olmaz.

Elə isə yol nədir?!

Yol, çalışmaq, çalışmaq yenə də çalışmaq!

Qurani Kərim 53-cü Nəcm surəsinin 39-cu ayəsində buyurur:

او أان ليَّ اس لِلْ ْن اسانِ إلِّ َ اما اسعاى

"İnsan üçün çalışmaqdan başqa yol yoxdur (yəni insan əldə etdiyi hər şeyi yalnız çalışması nəticəsində əldə etmişdir) ."

Çarəsizlik –İnsanın ən böyük düşməni

Neyləyim bacarmadım, kaş mənimdə bir adamım olaydı əl tutardı. Bütün bunlar gün ərzində ətrafımızdakı insanlar tərəfindən eşidilən ifadələrdir. Statistik məlumata əsasən bu insanlar, söylədikləri imkanlara çatdıqları zamanda da heçnə edə bilmirlər. Çünki, daxildəki çarəsizlik bir gün üzə çıxır. İnsan var,"0" büdcə ilə qalxacağına inanır. Olmadığı halda, inancı ona əlavə stimul və güc verir.

Sizə öz həyatımdan bir hissə danışım.

İxtisasım İlahiyyatçı və Dinşünas olmasına baxmayaraq, səliqəli restoranların birində ofisant işləyirdim. Bir gün iş yoldaşlarımdan biri, əlində" Biznesdə uğur qazanmağın sirri" adlı kitab gətirmişdi. Düzünü deyim, o insan məndən daha optimist, gümrah idi. Sanki həyat onundur, heç bir problem, dərdi yox imiş kimi yaşayırdı. Hər dəfəsində, uğura can atmaqdan danışırdı. İlk baxışdan o kitab diqqətimi cəlb etdi.

Kitabı götürüb oxumağa başladım, elə həyatımda hər bir dəyişiklik ordan başladı.

Kitabdakı bir cümlə məni tamamilə dəyişməyi bacardı. Həmin cümlə bu idi.

“Əgər siz, zehninizdə ömrünüzün axırınacan qul kimi işləmək varsa, 1000 manat qazancınız olsa belə, o sizə çatmayacaq. Yox, əgər siz 300 manat qazanmaqla, məqsədlərinizə doğru addım atacaqsızsa, tezliklə uğur sizin ayağınıza gələcək.

İnsan demək olar, nə vaxt səmimiyyətlə əl açıb Rəbbinə üz tutursa, yönəlişinə ilahi yönəlişlə cavab verildiyini vicdanən hiss edə bilir. Lakin, Cənabi Haqq çarəsiz insanlara daha açıq-aşkar kömək edir. Məsələn, Həzrəti Yusifin qissəsinə baxanda qardaşlarının onu bir quyuya atıb ölümlə üz-üzə qoyduğunu görürük. Səbəblər baxımından Həzrəti Yusifin o quyudan xilas olması mümkün deyildir. Allah (cəllə cəlaluhu) xüsusi lütfü ilə vaxtında bir karvan göndərir və karvandakılar vasitəsilə onu oradan çəkib çıxarır. Ardınca onu başqa bir yerə aparıb saray əhlinə satırlar və o da orada qayğı ilə böyüyür. Daha sonra, başqa bir bəla ilə üzləşir, ancaq bu imtahan qarşısında da iradəsini layiqincə ortaya qoyur və bir iffət qəhrəmanı olaraq zindanı saraydan üstün tutur. Həzrəti Yusif (əleyhissalam) Cənabı Haqqa kamil yönəlişi sayəsində həbsxanada da fövqəladə inayət görür; oradan çıxarılır, ana-atasına qovuşur və nəhayət, Misirdə könüllərin sultanı olur.

Allahın (cəllə cəlaluhu) Fironun ordularından qaçan Həzrəti Musaya köməyi də bundan fərqli deyil. Qurani-Kərimin:

افلامَّا تا ارا اءى الْ اجمْ اعانِ قاا ال أاصْ احابُ مُو سٰى إناَّ المُدْ اركُو ان قاا ال اك لَّ ْ إنَّ امعِ اي اربِّ ِي اس ايهْدِينِ

"İki dəstə bir-birinə yaxınlaşanda Musanın camaatı dedi:"(İşimiz bitdi!) Artıq yaxalandıq!" (Musa) dedi:"Xeyr, Rəbbim mənimlədir. O, mütləq mənə qurtuluş yolunu göstərəcəkdir!" dedi" (Şüəra surəsi, 26/61-62) ifadələriylə təsvir edilən həmin anda Həzrəti Musa və yanında olanlar tamamilə çarəsiz qalmışdır. Belə ki, önlərində Qırmızı dəniz, arxalarında isə Firon və əsgərləri vardı. Tariq b. Ziyadın dediyi kimi, önlərində düşmən kimi bir dərya, arxalarında isə dəniz kimi bir düşmən dayanmışdı. Məhz belə bir anda Həzrəti Musa:

إنَّ امعِ اي اربِّ ِي اس ايهْدِينِ

"Rəbbim mənimlədir və O şübhəsiz ki mənə qurtuluş yolunu göstərəcək" (Şüəra surəsi, 26/62) deyərək Allaha yönəlmişdi. Cənabi Allah da:

فاأاوْ احيْنااإِلاى مُو سٰى أانِ اضْرِبْ بعِ ا اصا اك الْ ابحْ ار

"Biz Musaya: 'Əsanı dənizə vur!' deyə vəhy etdik" buyurmuşdu. Həzrəti Musa əsasını yerə vurunca dəniz ikiyə ayrılmış, o da öz dəstəsi ilə birlikdə dənizin ortasından keçib getmiş və qeyri-adi lütf və inayətlə sağ-salamat sahilə çatmışdı.

Bəli, bütün çarələrin tükəndiyi, sözün bitdiyi, əldən heç nə gəlmədiyi bir məqamda qəlb hər şeydən sıyrılıb Rəbbinə yönəlir, Rəbbi (cəllə cəlaluhu) də gözlənilməz yerdən ona bir qapı açır.

“**Onun yerində olsaydım”**

Bir gün bir qısa boylu və zəif gənc yanındakı uzun boylu və nisbətən güclü olan dostuna deyir ki :

”Mən sənin yerində olsaydım, boks üzrə dünya çempionu olardım”.

- Dostu ona : - Səni boks üzrə dünya çempionu olmaqdan saxlayan nədirki? Burdan çıxardılan nəticə budur ki, kimlərinsə hər hansı xüsüsiyyətində nəyisə kəşf etməkdənsə, özünüzün hazırkı mövqeyi haqda ciddi düşünün. Hazırkı durumda əlinizdə olan imkanlardan layiqincə yararlanın.

Qısa olaraq sizə xatırladırıq ki, filankəsin yerinə olsam, filan cür edərdim yox!

1) İnsan çox güclüdür. İstədiyiniz uğuru bacara bilərsiz. Əgər həvəslə istəsəz. .

2) Çalışın olmayan şeylər deyil, özünüzü düşünün və daxilinizdəki potensialı üzə çıxardın.

Ola bilər, heç nəyiniz olmasın başlamağa. Əsas odurki, özünüzdə nəyisə kəşf edəsiz.

“**Mən o müəllimi sevirəm ki. . .”**

Görkəmli İslam filosofu Mürtəza Mütəhhəri deyir ki, mən o müəllimi sevirəm ki, mənə fikirlərini yox, fikirləşməyi öyrətsin.

Digər Çin misalına əsasən, balıqı tutub ona vermə, balıq tutmağı öyrət.

Məşhur bir müdrikə, insan oğlunun ən təəccübləndirən davranışlarından soruşdular.

Belə cavablandırdı:

İnsan uşaqlıqdan sıxılar, böyümək üçün tələsiklik edir,

Sonra da uşaqlığı üçün darıxır!

Öncə pul qazanmaq üçün sağlamlığını sərf edir, sonra da itirdiyi sağlamlığını geri qazanmaq üçün pulunu!

Heç ölməyəcəkmiş kimi yaşayır, sonra da heç yaşamamış kimi ölür!

Həyata hazırlaşmağa o qədər vaxt sərf edir ki, həyatını yaşamağa vaxtı qalmaz.

Sabahı o qədər düşünür ki, bu günün əlindən getdiyini heç düşünməz. Halbuki həyat keçmişdə və ya gələcəkdə yox, indiki zamanda baş verir.

Şeytanın hiyləsi - Qorxu

Qorxu - məlumatsızlıqdan yaranan duyğudur. Məsələn, qaranliqdan yaranan qorxu hissi qaranlığın qeyri müəyyənliyindən irəli gəlir.

Qorxu həm də bir insanın yaşadığı ümidsizliklər və ya uğursuzluqlar nəticəsində yaranmış bir hissdir. Ən əsası qorxu bir ciddi psixoloji xəstəlikdir, müalicə olunmağı mütləqdir.

Qorxular da müxtəlif olur: zərərli və xeyirli. Məsələn, xeyirli qorxular insanı düşünülməmiş addımlardan çəkindirir və belə olduqda onun sağ qalmasını təmin edir. Doğrudan da məhz qorxu bizə maşınların sürətlə şütüdüyü prospekti keçməkdən və ya hündür binadan paraşütsüz tullanmaqdan çəkindirir. Bunun əksi olaraq, zərərli qorxular bizim liftdən istifadə etməyimizə, kinoteatra getməyimizə və ya toyuq ətini iştahla yeməyimizə mane olur, çünki əsassız qorxularımız bizim real düşünmək qabiliyyətimizi iflic vəziyyətinə salaraq beynimizdə təsəvvür etdiyimiz dəhşətləri hər dəfə yenidən yaşamağa vadar edir. Əsassız qorxular canımıza o dərəcədə hopur ki, biz hətta baş verməyən hadisəni təsəvvürümüzdə belə canlandırmaqdan çəkinirik. Belə qorxularla hər birimiz mübarizə aparmalı, gücümüz çatdıqda, mütəxəssislərə müraciət etməliyik. Seçim hər bir insanın öz əlindədir. Bu artıq təhlükəsizlik psixologiyasına tərəf ilk addımdır.

Qorxu hiss etdiyində, qorxu gələndə, fərqinə var, o zaman qorxu yox olacaq. ayıqlıq ilə qorxu birlikdə var ola bilməz. Ayıqkən necə qorxa bilər? Ancaq oyanıqlığı itirdiyində qorxa bilərsiniz. Həqiqətən də, qorxaq insan qorxan insan deyil, qorxaq insan yuxudakı insandır və cəsur insan qorxu anlarına oyanıqlıq yetirə bilən insandır. Buna görə qorxu itir.

Yaponiyada, döyüşçülərə oyanıqlıq təhsili verirlər. Əsas təhsil oyanıqlıq təhsilidir və başqa hər şey ikinci əhəmiyyətə malikdir: Qılınc ustalığı, oxçuluq, hər şey ikinci sırada gəlir. Böyük Zen ustası Rinzainin oxçuluqda heç müvəffəqiyyətli ola bilmədiyi, əsla doğru nöqtəyə, doğru hədəfə isabət etdirə bilmədiyi deyilər. Oxları həmişə əsla doğru nöqtəyə vura bilmirmiş. Və o ən böyük oxçulardan biri olaraq bilinirmiş. Buna görə biri soruşmuş:”Heç hədəfi vura bilmədən, həmişə Rinzai necə ən böyük oxatan olaraq bilinir? Oxları əsla doğru

nöqtəyə çatmır, o zaman necə ən böyük oxçulardan biri olaraq bilinir?"

Rinzainin ardıcılları belə demişdir:"Bu son deyil, başlanğıcdır. Biz oxun hədəfə çatması ilə kifayətlənmirik, biz oxun səfərinə başlaması ilə maraqlanırıq. Biz

Rinzai ilə maraqlanırıq. Ox yaydan çıxarkən, o ayıqdır bu qədər bəsitdir. Nəticə əhəmiyyətli deyil, nəticə mənasızdır."

Rinzainin müridi olan bir adam varmış. Özü böyük bir oxçuymuş, əsla hədəfini vura bilməmişdir. Öyrənmək üçün Rinzainin yanına gəlmiş, buna görən biri belə demiş:"Sən öyrənmək üçün kimin yanına gedirsən? O bir usta deyil, mürid belə deyil. O, uğursuz biridir. Sən böyük bir ustasan və öyrənmək üçün Rinzainin yanına gedirsən, eləmi?"

Oxçu demiş ki:"Bəli, mən texniki olaraq müvəffəqiyyətli oldum. Amma şüurum mövzusunda müvəffəqiyyətsiz biriyəm. O, texniki olaraq uğursuz, amma şüur mövzusunda usta bir oxatandır . Çünki, oxu yaydan çıxarkən ayıqlıq, əsl əhəmiyyətli olan da budur."

Texniki olaraq usta olan bu oxçunun illərcə Rinzaidən dərs alması gərəkmiş və hər gün hədəfləri yüzdə yüz tutdura bilirmiş Rinzai,"Xeyr. Müvəffəqiyyətsiz oldun.

Texniki olaraq oxun doğru çıxır. Amma sən orada deyilsən, ayıq deyilsən. Yəni əqlinlə, gücün birlikdə deyil.

Yaponiyada döyüşçüləri ilk əvvəl ayıq olmaq mövzusunda hazırlaşdırırdılar. Döyüş üçün lazım olan hər şey sonradan gələrdi. Bir döyüşçü, ayıqdırsa, cəsur bir adamdır. İkinci Dünya müharibəsində, Yapon döyüşçülərinə ayıq olmadıqları hiss edilmiş. Cəsarətləri ilə rəqib tanımazmışlar. Bu haradan gəlir? Fiziki olaraq o qədər güclü deyillər, amma, ayıqlıq

içində, qorxusuz biri idilər. Onlar qorxmurlar və qorxu gəldiyində Zen üsullarını əl atırlar.

Narahatlıq hiss etdiyində, çox qorxdun, sına. Nə etməli? Narahatlıq gəldiyində normalda nə edərsən? Nə edərsən? Onu həll etməyə çalışarsan. Seçimlər sınayırsan və getdikcə daha çox dərinə gedirsən. Daha da böyük bir qarışıqlıq yaradarsan, çünki narahatlıq düşünərək həll edilə bilməz. Düşünərək həll edilə bilməz, düşünmənin özü bir növ narahatlıqdır. Buna görə, onun daha çox böyüməsinə kömək olarsan. Düşüncə vasitəçiliyi ilə ondan çıxa bilməzsən. Yalnız ayıq ol. Yalnız ayıq ol!

Qorxunun ilk növbədə məhz düşməni məhz ayıqlıqdır. İnsan özünün irəli getməsini istəyirsə, mütləq qorxulara qalib gəlməlidir. Məhşur biznesmenlərə fikir verin,"bunu etsəm, əlimdəki son məbləğimi itirəcəm deyil, əlindəki son pulunu belə ideyalarına xərcləyiblər". Düzdür, ilkin dönəmdə itkilər çox olub, amma sonradan məhz qorxuya qalib gəldikləri üçün istədiklərinə nail olublar.

Yaxşı, niyə biz ayıq olmalıyıq?! Bizə bunun müsbət təsiri nədir ki?

Ayıqlıq işıq saçan projektor, qibləni və qütbü göstərən kompasdır. İnsan bir səhrada kompassız hərəkət etsə, təsadüfən məqsədə çatmaq ehtimalı azdır. Daha güclü ehtimal budur ki, yolu azıb çoxlu problem və çətinliklərə düşsün. Xüsusən qarşıda düşmən olduqda adama mütləq kompas lazımdır. Əgər kompas olmasa, siz yaraqsız vəziyyətdə düşmən mühasirəsinə düşərsiniz və daha əlinizdən bir şey gəlməz. Deməli, ayıqlıq kompas və projektordur. Ayıqlıq zülmətləri aydınlaşdırır və bizə yol göstərir.

Ayıqlığı artıran ən böyük xüsüsiyyətlərdən biri kitab oxumaqdır. Kitab insanın dünya görüşünü artırır. İnsanın zəkasını inkişaf etdirir. Bütün bunlar o deməkdir ki, insan mütəmadi olaraq, kitabla təmasda olmalı, kitab oxumaqla, ideyalar artırmalı, fikirlər çoxaltmalı və insan özünü inkişaf etdirməlidir. Elə vaxt olur ki, bir kitabdan aldığınız bir cümlə həyatınızı tamamilə yaxşılığa doğru dəyişməyi bacarır.

İnkişafdan geri qalmaq –"Bəhanələr"

Şikayətləndiyiniz həyat bəlkə də başqası üçün xəyaldır. Məhz bəhanələrdən qurtulmağın metodur, devizidir bu kəlmə. Bəhanə tənbəllliyin köküdür.

Biz qarşıya qoyduğumuz hədəflərə çatmadıqda, işimizdə müəyyən uğursuzluqlar olduqda məsuliyyəti boynumuzdan atmaq üçün daim bəhanələr tapırıq. Hər bir uğursuzluqdan sonra məsuliyyəti boynumuzdan atanda bir növ sakitləşir və təsəlli tapırıq.

Özünüzə qarşı digərlərindən daha çox tələbkar olun. Bəhanə axtarmayın, özünüzə acımayın. Özünüz üçün sərt rəhbər digərlərinə isə anlayışlı olun.

Uzun müddətli məqsədlərə nail olmaq üçün özünü nədənsə məhrum eləmək bacarığı və sözsüz bu bacarığı təmin edəcək iradə idarə heyəti üçün mükəmməl treninqdir.

Bütün həyatını eyni bir yol uğrunda sərf etmək faydasızdır, xüsusəndə bu yol ürəyə sahib deyilsə.

Çox izah etmə. Hər bir izahda dəyişiklik gizlidir. Beləliklə, bu və ya digər bir şeyi nəyə görə edə bilməyəcəyini izah etməyə çalışdıqda, əslində qarşında insanın səni başa düşəcəyi və bağışlayacağı ümidi ilə öz çatışmayan cəhətlərinə görə üzr istəyirsən.

Həyatda daha çox şeyə nail olmaq üçün insan dəyişməlidir. Təəssüflər olsun ki, insan böyük çətinliklə dəyişir və bu dəyişiklik çox ləng şəkildə baş verir. Bir çoxları bu dəyişiklik uğrunda illərini sərf edir. Lakin ən çətin məsələ – həqiqətən dəyişməyi arzulamaqdır.

Heç vaxt heç kimə qəzəblənmirəm. Heç bir insan mənim bu reaksiyama sahib ola biləcək heç bir şey edə bilməz. İnsanların hərəkətlərinin mühüm olduğunu anladıqda onlara qəzəblənirsən. Uzun müddətdir ki, belə bir hiss yaşamıram. Hər zaman başa düşməlisən ki, yol – sadəcə yoldur. Bu yolda addımlamamalı olduğunu hiss edirsənsə, heç bir halda yola davam etmək olmaz.

Hər şey yuxu imiş kimi davran. Cəsarətlə hərəkət et və bəhanə axtarma.

İnsanların əksəriyyəti üçün, əsas maneə daxili dialoqdur. Bu hər şeyin açarıdır. İnsan onu dayandırmağa başladıqda hər şey mümkün olur. Hətta ən inanılmaz layihələr belə öz real əksini qazanır.

İnsanlar adətləri üzrə istənilən anda istənilən hər şeyi həyatlarından çıxara biləcəkləri ilə bağlı özlərinə hesabat vermirlər. İstənilən anda. Anidən. Sahib olduğumuz yeganə müdrik məsləhətçi ÖLÜM-dür. Hər dəfə uğursuzluqla nəticələndikdə və əllərin yenidən boş qaldıqda sola dön və öz ölümündən soruş. Bu həqiqətəndəmi belədir? Və sənin ölümün bunun belə olmadığı, yanıldığın cavabını verəcək. O deyəcək:”Mən ki sənə toxunmadım!”. (Karlos Kastaneda)

Məşhur Biznesmenlərdən Motivasiya

“Bacarıqlı insanları işə cəlb edib onlara göstəriş verməyin heç bir mənası yoxdur. Biz bacarıqlı insanları ona görə işə götürürük ki, məhz onlar bizə nə etməli olduğumuzu söyləsinlər”. (Stiv Cobs – Apple şirkətinin yaradıcısı)

“Resursların israfı – böyük günahdır”. (İnqvar Kamprad – ”İKEA” şirkətinin qurucusu)

“Əgər siz uğur qazanmaq istəyirsinizsə, o zaman siz biznesi qəlbinizdə bir arzu kimi daşımamalı, onun reallaşması üçün əlinizdən gələni etməlisiniz”. (Tomas Uotson –”İBM” şirkətinin keçmiş rəhbəri)

“Biznes mühitində gəlirin 2 forması vardır: nağd pul və təcrübə. Unutmayın ki, pul qazanmaq üçün ilk növbədə təcrübə əldə etmək lazımdır. (Harold Henin –”İTT Corporation” şirkətinin keçmiş rəhbəri)

“Bu günə qədər edilən hər şeyi daha yaxşı formada etmək mümkündür”. (Henri Ford –”Ford” şirkətinin qurucusu)

“Sizin ən uğursuz müştərilərəniz əslində sizin ən zəngin bilik mənbəyinizdir”. (Bill Qeyts – Microsoft şirkətinin həmtəsisçisi)

“Mən çoxlu pulum olduğu üçün yaxşı əmək haqqı ödəmirəm. Əksinə, yaxşı əmək haqqı ödədiyim üçün mənim çoxlu pulum var”. (Robert Boş – sənaye sahibi, mühəndis və ixtiraçı)

“Uğurlu biznesə aparan yol kreativ düşüncənin məhsulu olan innovasiyalardan keçir”. (Ceyms Hudnayt –”SAS Institute” şirkətinin qurucusu)

“Əgər siz bir işi bacarağınızı düşünürsünüzsə, deməli, bunu bacaracaqsınız. Yox əgər, bir işə başlamazdan əvvəl onun öhəsindən gəlməcəyinizi düşünürsünüzsə, deməli, həqiqətən də bunu bacara bilməyəcəksiniz”. (Meri Key Eş – ”Mary Kay

Cosmetics” şirkətinin qurucusu. Bu xanım XX əsrin ən uğurlu biznes-ledilərindən biri hesab olunur.)

“Məsuliyyət ona görə mövcuddur ki, insanlar hər kəs tərəfindən qəbul edilmiş qaydalar sırasında məntiqli istisnaları görməyi və seçməyi bacarsınlar”. (Eltinq Morison – tarixçi)

“Düzgün qərar təcrübənin nəticəsidir. Təcrübə isə yalnış qərarların yekunudur”. (Uolter Riston –”Citicorp” şirkətinin rəhbəri)

“Biznesin pozulmaz qaydaları vardır: Sözlərin, izahatların və vədlərin heç biri prosesin icrası zamanı yaranan reallığı əvəz edə bilməz”. (Harold Henin -”İTT Corporation” şirkətinin keçmiş rəhbəri)

“Əgər mənim beynimdə minlərlə ideya varsa və onlardan yalnız biri səmərəlidirsə, mən bu nəticədən razıyam”. (Alfred Nobel – böyük biznesmen-sənyeçi)

“Ona tapşırılan işi görməyən şəxslər, eləcə də ona tapşırılan işdən əlavə başqa bir iş görməyən insanlar heç vaxt karyerada zirvəyə yüksələ bilməzlər”. (Endryu Karneqi – multimilyoner)

Motivasiyanın 11 qızıl qaydası

Çox belə olur ki, nəyəsə nail olmaq üçün bir çox istiqamətlərdə addım atırıq, amma bir müddət sonra bundan əl çəkirik. O an dünüşürsünüzmü ki, bir az da motivasiya olsaydı sonadək gedib uğur qazanardınız? Bir sözlə, motivasiya qazanmağın və motivasiyada qalmağın yolları aşağıda:

1. Hədəfə gedən yolda sizi həqiqətən də motivə edə biləcək real səbəbi tapın.

Əgər sizi hədəfə aparan, işi başlamağa həyəcanlandıran bir səbəb yoxdursa onda; görünür, bu doğru səbəb deyil. Sizi motivasiya edəcək səbəbi tapın. Görünür, düzgün səbəbi tapana qədər bir qədər vaxt sərf edəcəksiniz.

2. Bu hədəfə çatmasanız itirəcəyiniz nə olacaq bilin. İtkinin dəyəri sizi məcbur edəcək ki, hədəfə doğru qaçasınız və ona nail olmaq üçün bütün gücünüzü sərf edəsiniz.

Ağrı, əzab ən böyük motivasiyadır. Çox vaxt belə olur ki, güclü gələcək irəli addımlamağa yetərincə təkan vermir. Ancaq hədəfə çatmamağın sizə hansı əzab əziyyət verəcəyini bilmək bəs edir ki, hədəfə doğru addım atasınız.

3. Səbəb və itkinin dəyəri-ikisi barədə hər zaman düşünün.

İstədiyiniz nədirsə onun şəklini gördüyünüz çox yerdə yerləşdirin, kitab arasında, kompüter ekranında, ofisindəki

masada və s. kimi yerlərdə yerləşdirin. Daha da yaradıcı ola bilərsiniz.

4. Nə planlaşdırdığınızı ailənizlə, dostlarınızla, xüsusən də, etibar etdiyiniz insalarla bölüşün.

Hədəflərinizi, səbəblərinizi və xərclərinizi, bütün təhlillərinizi paylaşmağın əslində çox böyük köməyi var. Bunu etməklə siz planlarınızı daha yaxşı xatırlayacaqsınız. Əgər nəsə düz getməyəndə, kefiniz pozulanda dostlarınız sizə güc verən ideyalarınızı xatırladacaq və sizi ruhlandıracaq. Onlar sizə imkan verməyəcək ki, geri çəkiləsiniz.

5. Hədəflərinizi kiçik tapşırıqlar şəklində bölün.

Böyük hədəflər çox vaxt tələb edir və bu sizə uzun, yorucu gələ bilər. Hədəfinizi kiçik tapşırıqlar şəklinə salsanız, reallaşdırmaq da asan olar.

6. Oriyentasiya təyin edin.

Özünüz üçün istiqamət müəyyən edin; bu sizə kiçik tapşırıqlarınızı yerinə yetirmək üçün kömək olacaq. Kiçik qələbələrinizi paylaşmağa tələsməyin, hədəfə tam nail olduqdan sonra deyərsiniz. Kiçik uğurlar böyük motivasiya ola bilər.

7. Hədəfə doğru qazandığınız uğurlarınızın siyahısını tutun.

Rəqəmlərin gücü böyükdür. Onlar yalan demir. Əgər mümkündürsə uğurlarınızı rəqəmlərlə sıralayın. Rəqəmlər nə qədər ürək açandırsa, özünüzü o qədər yaxşı hiss edəcəksiniz.

8. Əylənməyi unutmayın.

Nə edirsiniz edin, əylənməyi unutmayın. Həyatınızı daha maraqlı edin.

Müxtəlifliyə can atın. Bu, günlük görüləsi işlərin sizi sıxmamasına kömək olacaq. Bütün bunlar hədəfə gedən yolda sizin əhvalınıza təsir edəcək.

9. Hədəflərinizə uyğun olan çevrəni tapın.

Tək olmadığını görmək çox yaxşı hissdir. Hədəflərinizə uyğun insanları, icmaları tapın, onlara yaxın olun. Yeni dostluqlar yaradın. İdeya mübadiləsi edin. Birlikdə inkişaf edin. Bir-birinizlə sağlam rəqabət aparın. Hədəfə nail olma yollarını paylaşın.

10. Sizi maraqlandıran məsələnin bilicisini tapın.

Bu işə bir vaxtlar görmüş adamları tapın. Hədəfə çatmaq üçün təcrübəsi olan insanlarınbilik və təcrübələrindən faydalanın. Onlar sizinlə öz məsləhətlərini, örnəklərini paylaşa bilərlər.

11. Özünüzü günahkar saymayın.

Əgər sizdə heç nə alınmayıbsa, uğursuzluğa görə özünüzü həvəsdən salmayın. Belə hallar olur. Özünüzü ələ alın və yenidən işə başlayın.

Harvard tələbələri üçün motivasiya planı

Biz əminik ki, Harvard universitetinin tələbələrini motivasiya etmək üçün istifadə olunan bu fəlsəfi fikirlər,

nəinki imtahanlara hazırlaşan tələbələr üçün, həm də həyatda uğura hədəflənən digər insanlara da olduqca faydalı olacaq.

1. Əlbəttə əgər sən indi yatsan, sənin xəyalın yuxuda sənə görünəcək, amma sən yuxunu deyil, oxumağı seçsən onda sən bu xəyalı həyata gerçəkləşdirə biləcəksən.

2. "Hər şey artıq çox gecdir" deyə fikirləşdiyin anda, əslində hələ çox tezdir və hər şey hələ qabaqdadır.

3. Təhsilə görə çəkilən əzab müvəqqəti, biliksizliyə görə verilən əzab isə əbədidir.

4. Təhsil daşımalı olduğun yük deyil, bu sənin göstərdiyin səylərdir.

5. Həyat təkcə oxumaqdan –təhsildən ibarət deyil, amma sən hətta bunun öhdəsindən belə gələ bilmirsənsə, onda ümumiyyətlə sən nəyə qadirsən?

6. Gərginlik və əzmkarlıq həm də həzzə çevrilə bilər.

7. Yalnız hər şeyi daha tez edən adam və yalnız həqiqətən söy göstərən adam, həqiqətən də öz uğurundan zövq ala biləcək.

8. Hər şeydə uğur qazanmaq heç kəsdə hər kəsə müyəssər olmur. Amma uğur yalnız özünütəkmilləşdirmə və qətiyyət ilə əldə edilir.

9. Vaxt uçur. (Sokrat buyurur ki, Zaman puldur)

10. Bu gün mənasız şeylərə görə axıtdığınız ağız suyu, sabah tökdüyünüz göz yaşına çevrilə bilər.

11. Öz gələcəkləri üçün yatırım edən insanlar realistdir.

12. Sənin əmək haqqın sənin təhsilinə düz mütənasibdir.

13. Bu gün bir də təkrar olmayacaq, ötən gün bir də geri qayıtmayacaq.

14. Hətta indi də sənin düşmənlərin acgözlüklə kitabları vərəqləyirlər.

15. İşləməyən dişləməz (Tər tökməsən, bəhrəsini görməzsən) .

16. Yalnız 5 dəqiqə, yalnız bu gün. . (Və beləliklə bunu gündəlik həyatına tətbiq et, məşğul ol)

17. Hər şeyə rəğmən möhkəm olun.

18) Hər kəs səhf edə bilər, amma böyük insan odur səhfləri üzərində işləsin.

19) Heş bir ağrı yoxdur, heç bir qazanc yoxdur.

20) Məqsədləriniz və planlarınızdan zövq almağı bacarın.

Cəsarət amilinin Motivasiyaya təsiri

Həqiqi cəsarət Quranda bildirildiyi kimi, Allahın hədlərini qüsursuz şəkildə qoruyaraq Allahdan başqa heç kimdən qorxmadan və çəkinmədən qərarlılıq göstərmək, heç bir mühitdə Quran əxlaqına uyğun olmayan hərəkətlər etməməkdir. Cəsarət sadəcə Allahdan qorxan, Ona dərindən bağlı olan insanların imanlarından qaynaqlanan təbii haldır.

İnananlar Allaha olan imanları, Allah qorxuları və axirət istəklərindən qaynaqlanan təbii cəsarəti göstərirlər. Hər hərəkətləri çox səmimi və cəsurdur. Allah rizası üçün Allahın əmr etdiyi əxlaqı yaşamaq və digər insanların da bu əxlaqı yaşamalarına şərait yaratmaq üçün cəhd edir, ətraflarında baş verən haqsızlıqlara laqeyd yanaşmır, Qurana uyğun hərəkət edirlər. Pisliklərə qarşı fikri mübarizə aparmağı, doğrunu, gözəli, yaxşını insanlara göstərməyi özlərinə borc bilirlər.

Möminlərin cəsarətinin təməlində Allah sevgisi, Allah qorxusu və Allahın rizasını qazanmağı hədəfləyən səmimi cəhd durur, buna görə də gözəl əxlaqı yaşamaqdakı cəsarətləri müəyyən şərtlərə bağlı deyil. Möminlər hər zaman və hər vəziyyətdə Allaha güvəndən qaynaqlanan cəsarətlərini qoruyurlar.

İnanmayanların göstərdikləri cəsarətdə isə mənəviyyatın yerini sadəcə mənfəət və dünyəvi həvəslər tutur, buna görə də Qurandan uzaq yaşayan insanlar cəsarət anlayışını səhv yerlərdə tətbiq edirlər. Cəsarət tələb olunan yerlərdə isə səssiz qalırlar. Bu insanların göstərdikləri cəsarət, əsasən, lazımsız, mənasız və axirətləri üçün faydasız olur.

Allahdan qorxan insanlar cəsarət tələb edən bir hadisə gördükləri zaman bu hadisəni görməməzlikdən gələrək qaçmağı vicdanlarına sığışdırmazlar. Məsələn, bir nəfər günahsız olduğu halda günahlandırılırsa və o da bu insanın günahsız olduğuna şahiddirsə, öz mənfəətlərinə faydalı olmasa da, özünü riskə atsa da, Allah rizası üçün bu insanı müdafiə edir. Bu, həqiqətən, çox gözəl cəsarət nümunəsidir.

Möminin göstərdiyi bu cəsarətin qaynağı Allah qorxusudur, çünki Allah Quranda belə əmr edir:

*… **Şahidliyi gizlətməyin! Onu gizlədən şəxsin qəlbi günahkardır. Allah etdiyiniz əməlləri biləndir! (Bəqərə surəsi, 283)***

Ayədə bildirildiyi kimi, Allah şahidliyi gizlətməyi haram edir. Mömin Allahın əmrlərinə itaət etməkdə zəiflik göstərməkdən və ağır davranmaqdan qorxduğu üçün Allahın bildirdiyi hədləri qorumaqda çox cəsurdur.

Quran əxlaqından uzaq cəmiyyətdə isə vicdanının səsini dinləyib haqqına təcavüz edilən birini müdafiə edənləri"Sən onun vəkilisən?","Sənə qalıb onu müdafiə etmək?" kimi sözlərlə alçaldıb, bu gözəl əxlaqdan uzaqlaşdırmağa çalışırlar. Halbuki, etdiyi təqdirə layiq hərəkətdir. Bu situasiya ilə qarşılaşan insan da din əxlaqından uzaq biridirsə ətrafındakı insanların reaksiyasından təsirlənər, öz mənfəətlərini itirməkdən çəkinər, ancaq bu insan Allaha iman edən, Qurana tabe olan insandırsa Allahın əmr etdiyi əxlaqı tətbiq etməkdə əsla tərəddüd etməz.

Bu insan vicdanının səsinə qulaq asıb ən çətin anda belə haqqı qorumaqda cəsarətli olar. Pisliklə qarşılaşdığı zaman ayədə əmr edildiyi kimi, yaxşılıqla qarşılıq vermək üçün çalışar, buna görə də Quran əxlaqını yaşamayan insanlar tərəfindən saflığa görə mühakimə edilib alçaldılar. Ətrafındakı insanlar onun bu hərəkətini yadırğasa belə, o, gözəl əxlaqlı olmağa üstünlük verər. Quranda qınayanın qınamasından qorxmamaq, cəsur və qərarlı olmaq gözəl əxlaq xüsusiyyəti kimi göstərilir:

Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə, Allah (onun yerinə) elə bir tayfa gətirər ki, (Allah) onları, onlar da (Allahı) sevərlər. Onlar möminlərə qarşı mülayim,

kafirlərə qarşı isə sərt olar, Allah yolunda vuruşar və heç kəsin tənəsindən qorxmazlar. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah (öz lütfü ilə) genişdir, (O, hər şeyi) biləndir! (Maidə surəsi, 54)

Gündəlik həyatımızdan bir neçə nümunə göstərərək mövzunu daha da aydınlaşdıra bilərik. Bir nəfər yolda kasıb, köməyə ehtiyacı olan biri ilə rastlaşır. Kömək etmək istəyir, lakin yanındakılar:"Fikir vermə","Sənə qalmayıb ki, kömək etmək" - deyərək kömək etməsinə mane olmağa çalışırlar. O insan burada artıq seçim qarşısında qalır.

Bəzi insanlar dostlarının qarşısında alçalmaqdan çəkinərək, onları itirməkdən qorxaraq gözəl əxlaq göstərməkdən üz döndərir və həmin insana kömək etmirlər. Müsəlman isə qınaqlardan çəkinmədən o insana kömək edir, çünki köməyə möhtac olan o insanı Allah yaradıb, xüsusi olaraq sənin qarşısına çıxarmışdır. Bu hadisə ilə onun gözəl əxlaqlı olub-olmadığını yoxlayır. İncə düşüncəli mömin bu hadisəni Allahın xüsusilə yaratdığını və özünü imtahan etdiyini dərhal anlayır, Allahın rizasına uyğun olanı seçir. Dostlarının lağ etməsi onu gözəl əxlaqdan çəkindirmir. Doğru bildiyini etməkdə cəsarətli olur.

Gözəl əxlaq göstərməkdə qərarlı olan insanın qarşısına bəzən bu cür insanlar çıxa bilir. Quran ayələrini incələdiyimiz zaman bu cür hadisələrin imtahan üçün yaradıldığını çox açıq görürük. Belə ki, Quranda yaxşıların qarşısında hər zaman pislərin olacağından, bu şəxslərin pisliyi yer üzündə yaymaq istədiklərindən bəhs edilir. Məqsədləri bu olduğu üçün yaxşılıq edənləri də yollarından döndərmək istəyirlər. Allah bir çox ayə ilə bunu bildirmişdir:

… Allahın ayələrini yalan hesab edib onlardan üz çevirəndən daha zalım kim ola bilər?! Ayələrimizdən üz çevirənləri üz çevirdiklərinə görə ən pis cəza ilə cəzalandıracağıq! (Ənam surəsi, 157)

Dini yalan hesab edəni gördünmü? O, elə adamdır ki, yetimi itələyib qovar və yoxsulu yedirtməyə rəğbətləndirməz. Vay halına o namaz qılanların ki, onlar öz namazlarından qafildirlər; onlar riyakarlıq edər və zəkat verməyi qadağan edərlər. (Maun surəsi, 1-7)

Allah Quranda inkar edənlərin yaxşılıqların, xeyirli işlərin qarşısını almaq üçün cəhd edəcəklərinə diqqət çəkir və bunun yaxşılarla pislərin bir-birindən ayrılmasına vəsilə olub inananların xeyrinə nəticələnəcəyini də ayələrdə xəbər verir:

Küfr edənlər öz mallarını Allah yolundan döndərmək üçün sərf edərlər. Onlar mallarını sərf edəcək, lakin sonra peşman olacaq, axırda da məğlub ediləcəklər. Kafirlər cəhənnəm tərəfə sürüklənəcəklər ki, Allah murdarı pakdan ayırd etsin, sonra murdarları bir-birinin üstünə yığıb hamısını bir yerə toplasın və cəhənnəmə atsın. Bunlar özlərinə zərər eləyənlərdir! (Ənfal surəsi, 36-37)

Bəzi insanlar pisliyin təsirində qalaraq pislik edirlər. Başqaları yaxşılıq etmək istədikləri zaman söz və hərəkətləri ilə onları incidirlər. Şeytanın təsiri ilə pisliyi gözəl, yaxşılığı çirkin göstərirlər. Zəif iradəli, qorxaq və həssas xarakterli insanlar da ətrafdakı insanların təsirinə düşərək gözəl əxlaq göstərməkdən uzaqlaşırlar. Pis əxlaqlı şəxslərə çox asanlıqla uyğunlaşa bilirlər.

Ətrafındakılarla uyğunlaşmaq və doğru yolda olmayanların rəğbətini qazanmaq üçün doğru bildiklərindən keçərək pis əxlaqı seçən insan özünə böyük zərər verir.

İnsanların qınamasından, onların uzaqlaşmasından çəkinərək səhv yolu seçir, pislərlə ayaqlaşaraq, əslində, özünə zülm edir. Dostlarını itirməmək üçün pis əxlaqa göz yuman və həqiqi dostun sadəcə Allah olduğunu bilməyən bu insanlar, Allahın hüzurunda alçaldıqlarının və axirətlərini itirdiklərinin fərqində deyillər.

Halbuki, Allah özünə tabe olanları və Quranda əmr olunduğu kimi şəfqətli, mərhəmətli, ədalətli, fədakar, təvəkküllü, yaxşılığa dəvət edən, xoş niyyətli, hər şeydə xeyir görən, həlim xasiyyətli olmaqda nə olursa olsun, qərarlı və cəsur davrananları nəinki alçaldıb cəmiyyətdən təcrid edəcək, əksinə, dünyada və axirətdə haqdan üz döndərənlərin hamısına qalib edəcəkdir.

Qurana uyğun olan cəsarət Allahdan başqa heç nədən və heç kimdən qorxmamağı, Allahın rizasına uyğun davranmaqda tərəddüd etməməyi və qərarsızlıq göstərməməyi də tələb edir. İman edənlərin ən vacib xüsusiyyətlərindən biri çətinliklər qarşısında acizlik göstərmələri, Allahdan başqa heç kimdən və heç nədən qorxmamalarıdır. Bu da onlara hər cür qorxuya qalib gələ biləcək cəsarəti qazandırır. Onlar Allahdan başqa güc olmadığını bilirlər. Quranda möminlərin bu nümunəvi əxlaqına bu cür diqqət çəkilir:

Onlar Allahın risalətini təbliğ edir, Ondan qorxur və Allahdan başqa heç kəsdən qorxmurdular. Allah Özü haqq-hesab çəkməyə kifayətdir. (Əhzab surəsi, 39)

Pislik etməkdən xoşu gələn, pis işlər görməkdə davam edən və başqalarının da özləri kimi olmasını istəyən insanların əmələ gətirdikləri şər qruplaşmalarını dağıtmaq, yer üzündə yaxşılığın hakim olmasına çalışmaq peyğəmbərlər və saleh möminlər qədər cəsur olmağı tələb edir. Bu cəsarət isə səmimi və şirkdən təmizlənmiş imandan qaynaqlanır.

Yaxşılıq edən, insanlara yaxşılığı tövsiyə edən insan ətrafındakı pis adamların diqqətini cəlb edər. Onu yaxşılıqdan uzaqlaşdırmağa çalışarlar. Bu hal bu günə qədər, bəlkə də, min dəfələrlə təcəlli etmiş, tarix boyu yaşamış hər müsəlmanı gözəl əxlaqı yaşamaqdan və başqalarına tövsiyə etməkdən uzaqlaşdırmağa çalışmışlar.

Məsələn, Quran əxlaqı yaşanmayan cəmiyyətdə namaz qılmağa təzə başlayan insana mane olmağa çalışırlar.”Hələ cavansan, gələcəkdə qılarsan”,”günahın mənim boynuma”, - deyərək ibadətdən uzaqlaşdırmaq istəyirlər. Halbuki, gündə 5 vaxt fərz olan namaz Allahın əmridir. İnsanları bu ibadətdən uzaqlaşdırmaqdansa tövsiyə etmək lazımdır. Allah insanları bu gözəl ibadətdən uzaqlaşdırmağa çalışanlarla əlaqədar Quranda bu cür buyurur:

Gördünmü o kimsəni ki, mane olur, bir bəndəyə namaz qıldığı vaxt? Bir de görək, əgər o doğru yoldadırsa, yaxud qorxmağı əmr edirsə; bir de görək, yalan sayır və üz döndərirsə, məgər bilmir ki, Allah görür?! Yox, yox! Əgər son qoymasa, and olsun ki, Biz onu kəkilindən yapışıb sürükləyəcəyik - özü də yalançı, günahkar kəkilindən! Qoy, o, özünün bütün tərəfdarlarını çağırsın! Biz də zəbaniləri çağıracağıq! Yox, yox! Sən ona uyma! Sən ancaq səcdə et və yaxınlaş! (Ələq surəsi, 9-19)

Şeytan dünya həyatının həqiqi üzünü görən, Quran əxlaqını yaşayan və axirət üçün çalışan bir nəfərin belə olmasını istəmir. Buna görə də Qurana həssas şəkildə tabe olan insanın üzərinə öz tərəfdarlarını göndərir və onu yolundan çəkindirməyə, qorxutmağa və ona mənfi təsir etməyə çalışır. Şeytan bu fəaliyyətini bilavasitə təlqin və vəsvəsə yolu ilə apardığı kimi, insanların arasında öz təsirinə saldığı və dost etdiyi adamlar vasitəsi ilə də davam etdirir. Allah şeytanın bu üsulunun iman edənlər üçün təsiri olmadığını bu cür bildirir:

Sizi yalnız o şeytan öz dostlarından qorxudub çəkindirir. Amma siz onlardan qorxmayın! Əgər möminsinizsə, Məndən qorxun! (Ali-İmran surəsi, 175)

Bu ayədən əvvəlki ayələrdə isə Allahdan qorxan insanların dinlərini yaşamalarında cəsur və qərarlı olmalarından, bunun nəticəsində də Allahın verdiyi gözəl qarşılıqdan bu cür bəhs edilir:

O kəslər ki, xalq onlara:"Camaat sizə qarşı (qüvvə) toplamışdır, onlardan qorxun!" - dedikdə, (bu söz) onların imanını daha da artırdı və onlar:"Allah bizə bəs edər. O nə gözəl vəkildir!" – deyə cavab verdilər. Sonra da Allahın neməti və lütfü sayəsində özlərinə heç bir əziyyət toxunmadan geri döndülər və

Allahın razılığını qazanmış oldular. Həqiqətən, Allah böyük mərhəmət sahibidir. (Ali-İmran surəsi, 173-174)

Cəsur olan, vicdanının səsini dinləyən və doğruları görüb heç kimdən çəkinmədən haqq yolda irəliləyən insan Allahın rəhmətinə, rizasına, nemətinə və cənnətinə qovuşar. Şeytanın fısıltılarına qulaq asan insan isə onun arxasınca cəhənnəmə qədər gedər və daim orada qalar.

İman edən insanın vəzifəsi Allahın əmr etdiyi yaxşılığı, doğru və gözəl olanı insanlara tövsiyə etməkdir. Möminin əsas vəzifəsi budur, ancaq bu da unudulmamalıdır ki, insan bu yolda bir çox çətinliklərlə, daha doğrusu imtahanlarla qarşılaşa bilər. Bu, Allahın Quranda xəbər verdiyi vəddir:

Sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlməmiş behiştə daxil olacağınızımı güman edirsiniz? Onları fəlakət və sıxıntı elə bürümüş, elə sarsılmışdılar ki, hətta Peyğəmbər və iman gətirənlər birlikdə:"Allahın köməyi nə vaxt gələcək?" – demişdilər. Bilin ki, Allahın köməyi yaxındır! (Bəqərə surəsi, 214)

Cənnətə getməyi ümid edən hər mömin bu ayədə Allahın vəd etdiyi kimi inananların keçmişdə yaşadıqları çətinliklərlə imtahan olunacaq. Bu zaman insan Allaha tabe olacaq, Ona güvənəcək, qərarlı və cəsur olub bütün bunların imtahanın bir hissəsi olduğunu biləcəkdir. İnsanın bu zaman hər hansı bir bəhanə gətirərək dinindən, gözəl əxlaqından uzaqlaşması isə çox çirkin və səmimiyyətsiz hərəkətdir. Əgər insan səmimidirsə, qorxub çəkinəcəyi heç nə yoxdur. Allah onu qoruyacaq, işlərini asanlaşdıracaqdır. Belə ki, Allah ayələrdə hər çətinliklə yanaşı bir asanlığın olduğunu və insanları qaldıra bilməyəcəkləri yüklə yükləməyəcəyini müjdələyir:

Şübhəsiz ki, hər çətinlikdən sonra bir asanlıq gələr! Həqiqətən, hər çətinlikdən sonra bir asanlıq gələr! (Şərh surəsi, 5-6)

İman gətirib yaxşı işlər görənlər isə - Biz heç kəsi qüvvəsi yetdiyindən artıq yükləmərik – cənnətlikdirlər, onlar orada əbədi qalacaqlar! Biz onların ürəklərindəki kin-küdurəti çəkib çıxardarıq. Onların altından çaylar axar. Onlar

deyərlər:"Bizi bura gətirib çıxaran Allaha həmd olsun! Əgər Allah bizi doğru yola yönəltməsəydi, biz özümüzə doğru yolu tapa bilməzdik. Həqiqətən,

Rəbbimizin peyğəmbərləri haqqı gətirmişdilər!" Onlara:"Etdiyiniz əməllərə görə varisi olduğunuz cənnət budur!" – deyə müraciət ediləcəkdir. (Əraf surəsi, 42-43)

Cəsarət cəmiyyətdə təqdir edilən, bəyənilən xüsusiyyətdir. İnsanlar cəsur olmaq, cəmiyyətdə cəsur tanınmaq istəyirlər. Cəsur insanlar həmişə hörmət və təqdir qazanırlar. Amma insanların çoxu cəsur tanınmaq üçün çox cəhd etsələr də, həqiqətən cəsarətli ola bilmirlər. Əlbəttə, cəsur olmaq istədikləri halda, bunu bacarmamaqlarının bir çox səbəbləri var.

İnsan necə ki şəfqətli, mərhəmətli, sadiq, həlim xasiyyətli, itaətkar olmaq üçün həqiqi imana sahib olmalıdırsa, hər an və hər şəraitdə cəsur olmaq üçün də iman etməlidir. Lakin bu, o demək deyil ki, iman gətirməyən insan heç vaxt cəsarətli ola bilməz. Onun da cəsarət göstərəcəyi hadisələr, vaxtlar olar. Ancaq Allaha şirk qoşan, Ondan başqa varlıqlarda güc olduğunu hesab edən, hər şeyin Allahın hakimiyyətində və nəzarətində olduğunu anlamayan insan bir gün qorxduğu, çəkindiyi, cəsarət göstərə bilmədiyi bir hadisə ilə mütləq qarşılaşar. Bu da o insanın Allaha imandan qaynaqlanan mütləq cəsarətə sahib olmadığını göstərir.

Motivasiyanın güc predmenti məhz cəsarətli olmaqdır. Bəzən qorxu hissi bizim içimizdəki ideya və gözəl təfəkkürlərimizi məhv edir. İnsan hər zaman cəsarətli olmalıdır. İdeyaları uğrunda vuruşmağı bacarmalıdır.

Həyat cəsarətli insanları sevər. Həyatın hər bir sahəsində cəsarətli olmağımızın vacib olmasının xüsusiyyətləri:

1. Qorxusuz ola bilmək üçün daha əvvəl cəsarətinə etibar etdiyiniz insanlarla birlikdə olun. Birlikdə olmasaq da, onlarla telefonda danışırıq. Onlara email göndərin. Heç birini etmə imkanınız yoxdursa, onların həyatlarını və davranışlarını düşünün. Bir müddət sonra özünüzdə cəsarət hissi qorxusuz olacaq.

2. Qorxuyamı getmək istəyirsiniz, yoxsa qorxusuzluğamı? Qərarınızı açıq və dəqiq olaraq verməlisiniz. Qorxaq insanlardan qətiliklə uzaq dayanmalısınız. Mənim minlərlə tərif dolu e-mail və telefon aldığım bir sözüm var. Bu sözümü əvvəlki kitabıma da qeyd etdim:" kimsədən qorxmayın, qorxudun, qorxarlar".

3. Bəziləri tərəfindən sizə pisliklər edilirsə, cəsarətə ehtiyacınız var deməkdir. Yer üzündə yaşayan hər kəsə Peyğəmbərlərə daxil pislik edilmişdir, bu doğrudur, ona görə sizə də edilə bilər. İlk əvvəl yaxın ətrafınızdan başlayın .

4. Əvvəldən cəsarətli olanlar, sonradan qorxaq olurlarmı? Ümumiyyətlə, olmazlar ancaq fərd özünü zəif buraxsa, ətraf mühitin təzyiqlərinə boyun əyərsiz müqavimət qırıla bilər.

Bu detalı ağılınızdan çıxarmayın. Dünyanın ən çətin işi bir can almaqdır. Sizin də canınızı kimsə ala bilməz. Yalnız Allah icazə verincə sizə pislik edə bilərlər.

Niyə özümüzü motivasiya etməliyik?!

Bu sualın birbaşa olaraq cavabı odur ki, motivasiya insanı irəli aparır və inkişaf etdirir. Bundan kənar qalan insanlar adətən cəmiyyətdən kənar qalır. Motivasiya insanı həm özü üçün həm cəmiyyət üçün lazımlı fərd kimi yetişdirir. Sağlam təfəkkür və düşüncə sahibi olmasına kömək edir.

Allah təala insanlardan sırf istəklərdən biri cəmiyyət üçün xeyrli və dəyərli insan olmasıdır. İnsan öz düşüncələrini məhz bu cür düzgün formalaşdıra bilər. Hər bir yerdə sağlam ruhlu insanlar axtarılır. Məsələn ən çox iş amilində bədbin insanlar bəyənilmir. Motivasiya insanı nikbin edir. İşçi fəal və qüvvətli olur. Öz məqsədləri uğrunda çalışan insan tez bir zamanda məqsədinə nail olmaq istəyir.

Hər bir işçinin özünəməxsus xarakter və xüsüsiyyətləri olur. Bu zaman nəzərə almaq lazımdır ki, insanların xasiyyətini dəyişməyə cəhd mənasız işdir, sadəcə onların davranışlarına təsir etmək olar. Bu, motivasiya adlanır. Başqa sözlə, motivasiya işçini"işlədən" amillərdir.

Motivasiya işçilərin məhsuldarlığının artırılması üçün çox mühüm və vazkeçilməz vasitədir.

İnsanların motivasiyası onların hansısa ehtiyaclarının ödənilməməsi ilə birbaşa bağlıdır. Bunun üçün insanların ehtiyaclarını başa düşmək, ona uyğun reaksiya vermək lazımdır.

İşçilərin daxildə yüksək vəzifəyə çəkilməsi təkcə işəgötürmə xərclərinin, adaptasiya dövrünün az olması demək deyil, bu amil eyni zamanda bütün işçilərə mesaj verir ki, hər bir kəsin"qalxma" imkanı var. Bu, işçilər üçün çox böyük

motivasiyadır. Eyni zamanda bu təyinatın ən yaxşı olması digər işçilərə izah olunmalı, onlar üçün də qalxma imkanları açıq şəkildə izah edilməlidir. İrəli çəkilmiş işçiyə isə özünü təsdiq etmək üçün lazımi səlahiyyət verilməlidir.

Məhz bu amil inkişafdır. İşçini sağlam rəqabətə gətirib çıxardır. Rəqabət olan yerdə isə mütləq sürətli inkişaf vardır. Amma, mütləq şəkildə sağlam rəqabət olmalıdır.

"Niyə o yüksək maaşla işləyir mən yox?". Bu cür olmamalıdır. Bu paxıllıqdır. Bu İslamın bəyənmədiyi və günah hesab olunan əməllərdəndir. Dahilərdən biri buyurur ki, paxıllıq bir qurd kimidir, insanı daxildən məhv edir. Sağlam bədəndə sağlam ruh olur demişlər. Biz bu cür fikirləşməliyik:

Allahım mənə də güc qüvvət, və halal ruzi nəsib et ki, mən də o dərəcəyə çatım. Sənin fikirlərin belə olduğu təqdirdə, böyük bir irəliləyiş sahibi olacaqsan. Ən əsası bunun şahidi sənin təmiz vicdanın olacaq!

Baxın, əksər böyük şirkətlər məhz sağlam rəqabət nəticəsində çox inkişaf etmişlər.

Çoxumuzun maraqlandığı idman sahəsi – xüsüsən futbol haqqında danışaq.

"La Liqa" - İspaniya professional futbol liqasıdır. Tarix boyu"Real Madrid" və"Barselona" klubları arasında rəqabət olub. Bu rəqabət illər boyu davam edib. 1966 – ci ildən 1990 ci illərə kimi"Real Madrid" klubunun açıq üstünlüyü olmuşdur. 1990 –cı ildən etibarən bu rəqabət daha da güclənmişdir."Barselona" klubu bu üstünlüyü tədricən yox etmişdir. Bu sağlam rəqabət əsnasında baş vermişdir.

Məqsəd nə üçündür və motivasiyanın təsiri

Məqsəd — subyektin şüurlu surətdə can atdığı real və ya ideal zirvə, prosesin hərəkət etdiyi son nəticədir.

Məqsədlər də özü-özlüyündə müxtəlif növlərə ayrılır. Mənəvi məqsədlər, iqtisadi məqsədlər, siyasi məqsədlər və s. Mənəvi məqsədlər, onların fəaliyyətinin nəzəri təsviri, adətən şəxsiyyətlərarası münasibətlər sahəsilə məhdudlaşırdı, siyasi sahələrdə isə o, təbliğat vasitəsi kimi qəbul olunurdu. Buna görə də, bu mənada siyasi məqsəd və vasitələrin tədqiqi çox mürəkkəb xarakter daşıyır. Siyasi məqsəd və vasitələr probleminin əsasını siyasət və ideologiya üzərində nəzarət təşkil edir. Bu nəzarətə isə şəxsiyyətin azadlığı səbəb olur.

Ümümiyyətlə, məqsədsiz insan olmamalıdır. Allah təala yer üzünü və insanları məqsədli şəkildə yaratmışdır. Yer üzü insanlar üçün axirət azuqəsi yığmaq üçün məkan və yaxud insanların imtahan edilməsi, cəza-mükafat verilməyə layiq olanların ayırd edilməsi məqsədi ilə yaradılmışdır. Allah təalanın yaradılış sistemində məqsədsiz heç bir şey yoxdur. Qurani Kərimdə Zariyat sürəsinin 56 –cı ayəsində buyurur :

Mən cinləri, və insanları yalnız mənə ibadət etsinlər deyə yaratdım. İnsanların yaradılışının məqsədi Allahın varlığını tanımaq və ona itaət etməsidir.

Deməli, Allah təala insanlara məqsədli olmasını da buyurmuşdur. Təsəvvür edə bilərikmi, Həzrəti Muhəmməd (s. a. v) məqsədsiz şəkildə göndərilib və məqsədi olmayıb?!

Bildiyimiz kimi bu mümkün deyil. **Hz Peyğəmbərimizin məqsədi İlahi qanunları təbliğ etməkdən ibarət idi və ən əsası insanların həqiqi ləzzətləri dadmasına vaistəçilik etməsi idi.**

İnsan bir işə başlamamışdan əvvəl mütləq qarşısına məqsəd qoymalıdır. Məqsəd insanı irəli aparacaq vaistədir.

Edvin Loke tərəfindən 1968-ci ildə irəli sürülən qaydaya əsasən, insanlar ətrafındakıların fikirlərinə önəm verməklə, onlara müxtəlif şərhlər edirlər. Daha sonra bu qaydaları öz yanaşma tərzlərinə uyğun olaraq dəyərləndirirlər. Yəni, hərkəs öz xüsusiyyətlərinə görə, nəyin yaxşı, nəyin pis olduğuna, doğru yoxsa yanlış olduğuna, faydalı olub-olmamasına qərar verir. Buna görə də, insan özündə müəyyən məqsədlər yaradır, gələcək davranışlarını da bu məqsədlərə görə təyin edir.

Unutma : Məqsədin olmayınca, məqsədi olanlara işləyəcəksən !

Motivasiyada zamanın anlayışı

Zaman fəlsəfədə baş verən hadisələrin ardıcıllığının insan tərəfindən dərk edilməsidir. Bu dəyişikliklər"zamanın istiqamətini" əsaslandırırlar. Zamanın mövcudluğunu Platon, Aristotel, Avqust, Leybnits, Kant kimi dahi filosoflar müxtəlif şəkildə təsvir etmişlər.

Gündəlik həyatdan məlumdur ki, zaman dərk oluna bilməyən obyektlərdən asılı olmayaraq da mövcuddur. Buna görə də, zamanın təsvirində həmişə belə bir sual ortaya çıxırdı ki, zaman insanların düşüncəsində xüsusi baxış

formalaşdıqdan sonra mövcud olmuş, ya da ondan asılı olmayaraq obyektiv, bərabər formalı və mütləq mövcuddur. Bu sualın cavabı əsrlər boyu fəlsəfənin, teologiyanın və mistikanın əsas mövzusu olmuşdur.

Alimlərdən biri buyurmuşdur ki,"Zaman puldur". Əgər biz zamana bu prizmadan baxsaq, mütləq zamanı israf etmərik. Çünki pulun dəyərini bildiyimiz qədər, zamanın dəyərini dərk etməmişik. Zamandan faydalana bilmirik. Halbuki, zaman qədər dəyərli nemət yoxdur insan üçün.

Dövrümüzdə, insanın zamanını qətl edən o qədər lazımsız məşğuliyyətlər var ki, bunlardan bir çoxu maddi və mənəvi inkişafımıza bir səbəb olmadığı kimi, insanı yaradılış hikmətindən uzaqlaşdırdığı da bir reallıqdır. Beləliklə, insan bu cür məqsədsiz və hədəfsiz şeylərdən özünü nə qədər uzaq tutarsa o dərəcə mənfəət içində olar.

"İki şey vardır, insanların çoxu onun dəyərini bilməzlər: Sağlamlıq və boş vaxt." (Hədis-i Şərif)

Həyata atılan bir kimsənin müvəffəqiyyətli olmasında onun"zaman" anlayışının böyük əhəmiyyəti vardır. Zaman mövzusunda araşdırma aparan sosioloqlar inkişaf etmiş və geri qalmış ölkələr arasında zaman anlayışının fərqli dərk edildiyini müşahidə etmişlər. Onlara görə inkişaf etmiş ölkələrdə işlərin öncədən, zamana görə tənzim olunması və hər işin, ona həvalə edilən zaman çərçivəsində edilməsi şərtdir.

Qurani Kərimdə zaman məfhumu haqqında çox gözəl açıqlamalar vardır.

“Zaman" lüğət baxımından”uzun və ya qısa vaxt" mənasını verir. Quran, zaman əvəzinə daha çox vaxt kəliməsini seçər və istifadə edər. Bu kəlmə lüğət yönüylə

"bir iş üçün təyin olunan zamanın sonu" deməkdir. Quranı Kərimdə zamanla əlaqəli gün, həftə, il, əsr, vaxt, saat sözləri bir fərd üçün hansı daha əhəmiyyətli isə əhəmiyyət dərəcəsinə görə təkrar edilmişdir. Fərd üçün ən əhəmiyyətli gün olduğundan Quranda ən çox zikr edilən”Yəvm" yəni”Gün" sözüdür ki 475 dəfə zikr edilir. Quranı Kərim ilk səhifələrindən etibarən, ən son səhifələrinə qədər, heç fasilə vermədən, oxuyucusuna zaman məfhumunu xatırlatmaqdadır.

Ərəbcədə”Leyl" (gecə) sözü günəşin batması ilə, səhər”fəcr”-i sadiq deyilən ikinci fəcrin doğuşuna qədər keçən zamanı ifadə edir. Geri qalan müddətə də”nəhar” (gündüz) deyilir. Quranı Kərimdə gündüz (nəhar) 57, gecə (leyl) 92 dəfə zikr edilir. Gecə müddəti, illik olaraq ələ alınınca günün tam yarısı edir. Bu səbəblə maksimum ölçüdə qiymətləndirilməlidir.

"İslam boş zaman qəbul etməz.” deyərkən, istirahəti rədd edər mənası çıxarılmamalıdır. Quranı Kərimdə ən yaxşı istirahətin insanın öz evində yuxu ilə olacağı bəyan edilmişdir.

"Sizə gecəni örtük, yuxunu istirahət (vasitəsi) , gündüzü də işləmək zamanı edən Allahdır.” (Furqan, 25/47) .

İslam alimlərinin zaman mövzusundakı müştərək fikirləri belədir:”Keçmiş zaman əldən çıxmışdır, gələcək isə hələ

qeybdədir, elə isə mövcud olan sənin içində olduğun bu andır.”

Həzrət Əli (ə) gündəlik həyat proqramını üç hissəyə bölməyi məsləhət görür.

1. İbadətinə və mütailənə sərf edəcəksən.

2. İşinə sərf edəcəksən. İş insanın cövhəridir.

3. Ailənə və istirahətinə sərf edəcəksən.

İnsan gərək zamanın dəyərini vaxtında bilsin. Zamanın dəyərini biz xüsüsən çətin anlara düşdükdə və yaxud bizə sərf etdiyi təqdirdə bilirik.

Bildiyiniz kimi, artıq Time Management (Vaxtın idarə edilməsi) adlı bir elmi sahə vardır ki, bu sahənin əsas məqsədi insanların vaxtlarını düzgün və səmərəli idarə etməsinə kömək etmək və insanların vaxt etalonuna yönəltdiyi diqqəti daha da artırmaqdır. Bu sahəni nəzərə alaraq və ümumilikdə yuxarıda qeyd etdiyim mənim şərti problemlərimin həlli günümün bölgüsü və bu bölgünün düzgün aparılmaması səbəbindən irəli gəlir. Belə deyək, hər bir işçi hər gün səhər saat 9-da işə başlayır və axşam saat 6-da işdən çıxır. Bunu həmin işçi hər gün təkrarlayır və bu qayda onun beynində ümumi qayda olaraq formalaşır ki, o bunu hər gün belə etməli olduğunu bilir və qəbul edir. Əgər hər hansı bir müəyyən səbəblərdən iş vaxtı ərzində həll etməli olduğu müəyyən məsələləri həll etmək üçün rəhbərlikdən icazə alır və işdən çıxıb həmin məsələnin yaxud da işin ardınca gedir və işdən çıxdıqda yarıda qoyduğu işi sabah hansısa vaxtda həll edəcəyini müəyyənləşdirir.

İnsan heç vaxt zamanın idarə edilməsini boş buraxmamılıdır. zamanı özü idarə etməlidir.

Heç vaxt”Vaxtım yoxdur" ifadəsini dilinizə gətirməyin. Unutmayın ki, bizim hər birimizin ixtiyarında olan zaman Mikelancelo, Leonardo Da Vinçi, Tomas Cefferson, Paster, Helen Keller, Albert Eynşteyn kimi dahi şəxsiyyətlərin sahib olduğu vaxt qədərdir. Sadəcə, hər kəsin zamanı dəyərləndirmək metodu fərqlidir.

Və yaxud : Zaman dayanmaq bilmir - bu, pis xəbərdir. Yaxşı xəbər isə ondan ibarətdir ki, onu idarə etmək hər kəsin öz əlindədir.

Zaman bir daha gəlməmək şərti ilə gedir. (Lao Tszi:Çin mütəfəkkiri) .

Biz hər zaman onu bilməliyik ki, bizə verilən və istifadə etdiyimiz hər saniyə belə, geri qaytarılmayacaq. Ona görə, çox dəyərləndirmək lazımdır. Ən əsası odur ki, zaman səni”qətlə yetirməsin”.

Zaman həyatın vicdanıdır, itirilmiş zaman adamı itirilmiş vicdandan daha çox təşvişə salmalıdır. (Yusif Vəzir Çəmənzəminli:Azərbaycan yazıçısı)

Göründüyü kimi, vaxtı idarə etmək və vaxt qıtlığından əziyyət çəkməmək üçün onu dəqiqləşdirib, planlı şəkildə dəyərləndirmək lazımdır. Bəzən olur ki, vaxtımızı sadəcə gözləməyə və xəyallar qurmağa sərf edirik. Bu vaxt bizə xoş olur, çünki gözəl xəyallar və gözəl gözləntilər bizi ruhlandırır. Lakin biz anlamırıq ki, bu xoş olan vaxt nə vaxtsa bitir və bundan sonra görürük ki, bu xəyallar qurmağa və gözləməyə

sərf etdiyimiz vaxtdan istifadə etsəydik xəyalını qurduğumuz və gözlədiyimiz çoxdan reallıq olmuşdur.

C. Qarsianın 50 motivasiya məsləhəti

Özünü və digərlərini motivasiya etmək bacarığı, xoşbəxt və uğurlu həyatın əsas mənbəyidir. Sizə Amerikanın tanınmış motivasiya üzrə eksperti Ceyson Qarsianınaydın şəkildə yazılmış 50 məsləhətini təqdim edirik.

1. Şəxsi hekayənizi yazın. Bir iki abzas ilə, istədyiniz gələcək həyatınızı yazın. Nə ilə məşğul olacaqsınız, harda yaşayacaqsınız, əldə etdiyiniz uğurdan necə həzz alacaqsınız. Ancaq, yazılarınızı gələcək haqqında deyil. sanki artıq həmin gələcəkdə yaşayırmış kimi yazın.

2. Gələcəyinizi təsəvvür edin. Gözlərinizi qapayıb, məşğul olmaq istədiyiniz işlərlə hal-hazırda məşğul olduğunuzu təsəvvür edin. Əgər gözəl, idman bədən fiquruna sahib olmaq istəyirsinizsə, özünüzü idman zalında məşq edirmiş kimi təsəvvür edin. Əgər, biznes qurub şirkət sahibi olmaq istəyirsinizsə, gözlərinizi yumub, şirkətinizin yeni binasının açılışında təsəvvür edin və s.

3. Əks istiqamətdə təsəvvür edin. Bu vasitədən istifadə etsəniz, yolunuz oncəsində harda olduğunuz ilə indiki vəziyyətinizi müqayisə edə bilərsiniz. Keçmişdə edə bilmədiyiniz, lakin bu gün əldə etdiyiniz uğur üçün nələrdən keçdiyini görsəniz, bu sizi gələcək üçün də motivasiya edəcək.

4. Böyük planlar qurun. Gələcək haqqında düşünərkən, böyük planlar qurmaqdan qorxmayın. Bu cür yanaşma sizə qısamüddətli uğursuzluqlara qarşı daha güclü edəcək. Çətinliklər və xoşagəlməz hadisələr sizi yolunuzdan saxlamayacaq, çünki sizin yerinə yetiriləsi daha vacib məqsədləriniz var.

5. Öyrənməyə davam edin. Sizi Arzunuza, məqsədinizə zərrə qədər də yaxınlaşdıra biləcək hər şey haqqında oxuyun, araşdırın, qulaq asıb öyrənin və praktikada yoxlayın. Məsələn yazıçı olmaq istəyirsinizsə, qrammatika kurslarına yazıla bilər, kitablar oxuya, yazı yaza, digər yazıçılarla söhbət edib məsləhətlər ala bilərsiniz.

6. Təmizliyə riayət edin. Təmiz və rahat quraşdırılmış iş yeri, ev, ofis (və həyat!) yuxarı qalxmaq üçün əsas tələblərdən biridir. Ətrafdakı zir-zibil öz daxilimizin çirklənməsinə gətirib çıxarır. Həyatınızı qaydaya salsanız, hər bir gününz daha aydın və enerjili keçər.

7. Hər yerdə özünüzü motivatorlarla əhatə edin. Hər zaman yanınızda (stol, orqanayzer, qarşıdakı divar, avtomobil, portmane, kalendar) sizə öz məqsəd və arzularınızı xatırladacaq işarə, simvol, yazı, şəkil və yaxud əşya saxlayın. Bu cür yadasalmalar arası kəsilməyən motivasiya axınını yaradır.

8. Xeyriyyə işlərində fəal olun. Vaxtınızın bir hissəsini, digər insanlara yardım etmək üçün ayırın. Başqasına qarşılıqsız olaraq nə isə verdikdə, sənin nə qədər çox şeyə sahib olduğunu və yardımın necə də zövq verici bir iş olduğunu anlayırsan.

9. Özünüzün motivasiya bacarıqlarını dostlarınızla bölüşün. Başqalarına hər hansı bir məsələni danışıb izah edəndə, özümüz də onu dərindən anlayırıq. Uşaqlarınıza motivasiyalı olmağı öyrədin, dostlarınıza məqsədlərinə çatmaqda, sevidyiniz insanın arzularının həyata keçməsində kömək edin.

10. Uşaqlar ilə vaxt keçirin. Uşaqlar ilə ünsiyyət ətrafdakı hər şeyə digər bucaq altında baxmağa kömək edəcək. İşdə gecikdirilən bir iş üçün stress keçirə bilərsiniz lakin, üşaqlarla oyun oynayıb, vaxt keçirtsəniz bütün problemlər arxa plana keçir. Uşaqların həyata baxışı çox sadədir və çox zaman məhz bu cür yanaşma özünü doğruldur.

11. Həmfikirlərinizi tapın. Ətrafınıza baxın, öz üzərində çox işləyən bir dostunuz varmı? Ola bilər ki, sizin qohum və yaxud iş yoldaşınız daha böyük uöurlar əldə etmək istəyirlər. Həmfikirlərinizi axtarıb tapın. Qarşılıqlı dəstək, məsləhətlər, yada salmalar və kömək hər birinizə öz məqsədinizə çatmaqda yardımçı olacaq.

12. Oxşamaq istədiyiniz bir adam tapın. Elə bir adam tapın ki, ondan məsləhət alıb öyrənə bilərsiniz. Bunu etsəniz təkəri yenidən kəşf etməyə ehtiyac olmayacaq, siz hər zaman hörmət etdiyiniz insandan problemin həllini öyrənə bilərsiniz.

13. Gəzintiyə çıxın. Yaşadığınız yerin ətrafında gəzin və ya avtomobil ilə gəzintiyə çıxıb rahatlayıb, sakitləşib, fikrinizi yayın. Hərdən hər birimizə yerləşidimiz ortamı dəyişmək lazımdır, adi və ya avtomobil ilə gəzinti isə bu məqsəd üçün ən yaxşı vasitədir.

14. Uğur hekayələrini oxuyun. Sizi əhatə edən insanların uğur hekayələri ilə tanış olun. Adi qəzetdə sizi motivasiya və gələcək addımları atmaqda kömək edə biləcək onlarla hekayə tapmaq olar. Kitabxana və internetdə qeyri adi uğurları əldə etmiş insanlar haqqında istədiyiniz qədər kitab və məqalə tapa bilərsiniz.

15. Musiqiyə qulaq asın. Musiqi bizi həma sakitləşdirə, oyada, kədərləndirə, həm də motivasiya edə bilər. Qaçış zamanı ritmik musiqiyə qulaq asmaq bizi daha da sürətləndirir. Bəs hansı musiqi sizi motivasiya edir?

16. Motivasiya fimlərinə baxın. Kino bizə digər insanların həyatları haqqında danışır. Motivasiya verən filmlərdə adətən müxtəlif ağrı və çətinliklərdən keçərək, sonda yüksəliş və uğur əldə edən qəhrəman haqqında danışılır. Sizi motivasiya edə biləcək və edən filmlərin siyahısını tərtib edin.

17. Motivasiya edici kəlmələr oxuyun. İnternet və kitablarda bizi motivasiya edib, yuxudan oyadaraq dünyaya tamam başqa gözlə baxmağımıza kömək edə biləcək saysız hesabsız aforizm və sitatlar var. Sizi maraqlandıran mövzu ilə bağlı kəlmələr axtarın və əmin ola bilərsiniz ki, özünüzün motivasiya və düşüncənizi genişləndirəcək çox şey tapa biləcəksiniz.

18. Düzgün qidalanın. Düzgün qidalanma, xoşbəxt həyat qurmağımız üçün lazımı enerjini verir. Orqanizmin ehtiyacı olan bütün mineral, vitamin və əlavələrdən ibarət olan qida rasionunuzu qurun. Adi məhsullardan başlaya bilərsiniz.

19. Yuxu qəbul edin. Bəzi insanlara cəmi 6 digərlərinə isə 7-8 saat lazımdır ki, tam yuxu ala bilsinlər. Sizin orqanizmin neçə saat tələb etdiyi elə də vacib deyil, əsas odur ki, ehtiyac olan normanı alasınızı. Ardıcıl bir neçə gecəni 3-4 saat yatsanız bu həm sizin ümumi davranışınız, sağlmalığınız və motivasiyanızda özünü biruzə verəcəkdir.

20. Yeni biliklər öyrənin. Bu ən əsas məsləhətdir. Heç bir zaman ətraf dünyanı öyrənməkdə dayanmayın. Sizin üçün maraqlı olan hər bir şey haqqında oxuyun, qulaq asın və öyrənin. Sizdən nə isə soruşanda"bilmirəm" deməyin,"hələ öyrənməyə macal tapmamışam" deyərək, gedin tapın və öyərnin. Dünyada baş verənlər ilə maraqlanın.

21. Məqsədlərinizə doğru addım atın. Hər kəs bu onsuzda bu haqqda bilir, ancaq nədənsə məhz bu məsləhət kənarda qalır. Planlaşdırılmamış həyat və məqsədlərə doğru can atmasanız öz həyatınızı yaxşılığa doğru dəyişə bilməzsiniz. Ümumi axın ilə üzərək, digərlərinə sizin həyatı idarə etməyi icazə versəniz, özünüzün istəyi həyata heç vaxt çatmayacaqsınız. Bütün ömrünüz boyu qarşınıza qoyduğunuz məqsədlərə doğru hərəkət edin və bu yolda əldə etdyiniz uğur və xoşbəxtlikdən həzz alın.

22. Beyninizi işə salın. Ağ kağız və qələm götürün. Işıqlı və sakit bir yerdə oturaraq fikirləşin, fikirləşin, fikirləşin. Ağlınıza gələn bütün ideyaları yazın. Maddi, şəxsi, insanlar ilə əlaqələr, sağlmalıq və s. ilə bağlı məqsəd və ideyalarınızı yazın. Fikirləşməyi bitirdikdən sonra işinizi davam etdirmək üçün yetərincə məqsədiniz olacaq.

23. Məqsədlərinizi ağ kağıza yazın. Bütün məqsədlərinizi kağıza yazın. Kağızda yazılmış məqsədlər daha aydın və konkret görünəcək. Ağlınızda qalan fikir, onunla məşğul olmağa başlamamışdan əvvəl, silinib gedəcək.

24. Məqsədlərinizi konkretləşdirin. Məqsədlər effektiv olmaları üçün konkret olmalıdırlar.”Uşaqlar ilə münasibətləri yaxşılaşdırmaq” çox təqdirəlayiq məqsəd ola bilər ancaq, ortada olan fikir natamamdır. Bunun əvəzinə öz planlarınıza uşaqlarla oyun vaxtı, ailə ilə birgə nahar yeməyi və birgə gəzintiləri daxil edin. Konkret planın uğur əldə etməsinin daha çox şansı var.

25. Məqsədlərinizin həyata keçməsinə vaxt təyin edin. Sonraya saxlamaq və gecikdirmək sizin arzu və məqsədlərinizin ölümü ilə nəticələnə bilər. Bunun qarşısınl almaq istəyirsinizsə əldə edəcəyiniz konkret nəticələrin konkret vaxtını təyin edin.

26. İşə başlamanın vaxtını təyin edin. İşə nə zaman başlayıb nə zaman bitirəcəyinizi bilmək, işin nəticəsində də verimliliyi artırmaqda yardımçı olur. Yalnız məqsəd qurmaq ilə ona çatmaq mümkün deyil. Həmin məqsədə hansı müddət ərzində çatacağınızı da özünüz üçün təyin edib, ona əsasən hərəkət edin. 27. Məqsədlər yüngül olmamalıdır. Nailiyyətlərin daha effektiv olması üçün, qarşıya qoyulmuş məqsəd yüngül olmamalıdır. Əgər məqsədinizə çatmaq üçün çox az güc sərf etsəniz, sizin motivasiya çox tez sönəcəkdir. Ən yaxşı məqsdlər onlardırlar ki, bu məqsədlərə çatmaq üçün sizin bütün bacarıq və biliklәriniz maksimum olaraq istifadə olunsun və sizdən yeni bilik və bacarıqların öyrənilməsini tələb etsin.

28. Məqsədlər real olmalıdır. Qarşınıza real olmayan məqsədləri qoyub, onlara çata bilməsəniz bu sizi əldən salıb, motivasiyanı sıfıra endirəcəkdir. Məqsədlər yüngül olmamalıdır ancaq, real olmalıdırlar.

29. Görüləcək işlərinin dəqiq planını cızın. Qarşıya qoyulmuş məqsədə çatmaq üçün addımba-addım görüləcək işlərin planını tərtib edin. Uğursuzluğun əsas səbəbi əksər hallarda məqsədə geədn yolda nə edəcəyimizi bilməməyimizdir.

İşinizi planlayın və plana əsasən işləyin.

30. Gərgin həyat tərzini seçməyin. Qarşınıza eyni vaxtda həddindən artıq məqsəd qoymayın. Başlanğıcda 2-3 dənə olsa yetər. Həddindən çox vacib məsələlərə vaxt və enerjini ayırmaq ona gətirib çıxaracaq ki, heç bir iş vaxtlı vaxtında və keyfiyyətlə yerinə yetirilməyəcək. Bu zaman sərf edəcəyiniz enerji və vaxt boş yerə sərf olunmuş olacaq.

31. Məqsədə doğru irəliləyin. Məqsədinizə çatmaq üçün bir neçə səviyyədən keçməlisiniz və əgər həmin səviyyələri əvvəlcədən planlaşdırmısınızsa, onda hər bir səviyyəni keçdikdən sonra onu özünüz üçün qeyd edin. Bu cür yanaşma, məqsədinizə nə qədər yaxınlaşdığınızı göstərərək, sizi motivasiya edəcək.

32. Arzuların siyası. Həyatınızın sonunadək həyata keçirtmək istədiyiniz minimum

10 arzunu yazın. Məsələn – Avropanı səyahət etmək, dəniz kənarında ev almaq, xeyriyyə fondu açmaq və s. Siyahı uzana da bilər. Hər şey sizin özünüzə inamdan və istəyinizdən asılıdır.

33. Yaddaşınızı daim işlədin . Rəngbərəng kağızlarda məqsədlərinizi yazıb, göznüzün qarşısında olan yerdə vura bilərsiniz. Şəkil ilə mümkün olarsa lap əla olar. Ancaq, həddindən çox etməyin yoxsa aləm bir-birinə dəyər.

34. Özünüzü mükafatlandırın. Özünüz üçün mükafat təyin edin. Qarşınıza qoyduğunuz hər bir məqsədə çatdıqda kiçik bir bayram təşkil edin, istirahət edin və ya hədiyyə alın. Ürəyiniz istəyəni özünüz üçün edin. Siz əziyyət çəkib qazanmısınız bunu qeyd etmək lazımdır. Hər məqsədinizə görə özünüzə bir mükafat təyin edin və məqsədinizə çatan kimi, özünüzün mükafatlandırın. Bu cür adət növbəti məqsədləri də, yerinə yetirməkdə güclü motivasiya rolunu oynayacaqdır.

35. Niyə məhz bu məqsədə çatmaq istəyirsiniz? Özünüzdən soruşun və yazın:

"Bunun Mənə Nə Xeyri Var?" . Hər bir məqsədiniz üçün bu sualı soruşun. Siz mütləq olaraq özünüz üçün aydınlaşdırmalısınız ki, bu məqsədə çatmaq sizə nə verəcək. Əgər tutarlı cavab tapa bilməsəniz, həmin məqsədinizi cədvəlinizdən silə bilərsiniz.

36. Çətinliklərdən qorxmayın. Neqativ və imtinalardan qaçın."Biz bunun həlli yollarını taparıq" və ya"Mən əminəm ki, bunun öhdəsindən gələ bilərəm" kimi ifadələr istifadə edin. Gündəlik həyatınızda istifadə etdiyiniz sözlərin sizin həyat tərzinizə çox böyük təsiri var.

37. Optimizimə can atın. Mən bir çox insan ilə söhbət etmişəm və əksəriyyətinin fikrincə optimist ilə pessimis arasında heç bir fərq yoxdur. İnanmayın! Nə olrusa olsun

optimizmə can ataraq, otimist olmaq lazımdır. İnsanlar bu dünyaya optimist və ya pessimist olaraq gəlmirlər. Yalnız sizin özünüzdən asılıdır, pessimist və ya optimist olmaq.

38. Ətrafınızı diqqətdə saxlayın. Sizin ətrafınızda dünyaya açıq aşkar neqativ gözlə baxan insan varmıdır? Onlar sizə necə təsir edirlər? Çox zaman bizim dünyaya baxışımız, bizi əhatə edən insanlardan asılı olur. İşdə və yaxud evdə sizi əhatə edənlər sizin davranış və keyfinizə mənfi təsir edirlərsə gecikmədən lazımi tədbirləri görün.

39. Bəzən dəyişiklər etmək vacibdir. Özünüzü pis hiss edəndə və yaxud xoşbəxt olmadığınızı anlayanda bunu qəbul edin ancaq, hər şeyi olduğu kimi də saxlamayın. Düşdüyünüz pis haldan çıxmağa tələsin. Lakin, bunu boynunuza almasanız və yalandan özünüzü xoşbəxtmişsiniz kimi göstərsəniz çox çətin olacaq.

İlk öncə yaranmış problemi qəbul edin, sonra səbəbini axtarıb dərhal hərəkətə keçin.

40. Başqalarını dinləməyi bacarın. Biz hər zaman özümüz haqqımızda yüksək fikirdə ola bilərik lakin, əslində bu heç də düşündüyümüz kimi olmaya bilər. Yaxınlarınızın, dost və tanışlarınızın davranışınız və sizin haqqınızda dediklərinə qulaq asın. Siz eşitmək istəmədiyiniz sözləri də eşidə bilərsiniz. Lakin, əksər hallarda tənqidə qulaq asıb özümüzü düzəltməliyik.

41. Hansı halda özünüzü pis hiss edirsiz? Sizə pis təsir edən halları anlayıb, başa düşsəniz onlardan yan keçmək daha asand olacaqdır. Bu öz növbəsində sizi problemlərdən, ağrılardan və ümidsizlikdən qurtaracaq. Əgər bu cür hallardan

hələ qaça bilmirsinizsə, onları müsbət yöndə necə dəyişə biləcəyiniz barədə fikirləşin.

42. Hansı hallarda özünüzü yaxşı hiss edirsiz? Bu sizin hal-əhvalınız və davranışınız üçün çox vacib bir sualdır. Bu suala cavab tapandan sonra, kefiniz pozulanda"həmin düyməyə" basaraq, əhvalınızı yüksəldə bilərsiniz. Məsələn, mən özümü pis hiss edəndə şokolad haqqında fikirləşirəm. Şokolad alıb yeyən kimi keyfim açılır. Primitiv olsa da bu işləyir.

43. Nəfəsinizi dərin. Halınız olmayanda və ya yorulanda bir az dincəlin. Qıza bir pauza sizə hər şeyə kənardan baxmağa kömək edəcək və siz yenidən işinizə qayıdanda müsbət enerjili olacaqsınız.

44. Diqqətli olun. Əvvəl fikirləşin, sonra isə hərəkətə keçin. Nə isə etməmişdən qabaq onun nəticələri barədə fikirləşin. Məsələn, sizin partnyor sizin ziyanınıza bir iş edibsə, təhqir və ya tənqidə keçməyə tələsməyin. Nə edəcəyinizi düşünün. Sonra, bir də düşünün və yalnız bundan sonra sizə görə doğru olanı edin.

45. Vəziyyətə görə hərəkət etməyin, vəziyyəti dəyişməyə çalışın. Əsl optimis ilə pessimistin fərqi bax burdan yaranır. Həyatınızda birbaşa sizə təsir edən bir hal, vəziyyət yaranıbsa, tələsmədən fikirləşin, variantlar, çıxış yolları axtarın və halhazırki vəziyyətə uyğun qərarlar qəbul edin. Bu zaman siz düşdüyünüz vəziyyətə təsir etməyə çalışacaqsınız. Yox əgər yaranmış hala reaksiya verərək ona görə hərəkət etsəniz, tələsik qərarlar qəbul edərək, onsuzda yaxşı olmayan vəziyyətinizi daha da pisləşdirmiş olarsınız.

46. Qədr bilən olun. Ətrafınıza baxıb həyatınızın ayrılmaz hissələri olan bütün qiymətli mövhümləri görməyə çalışın: Dostlarınızı, ailə, işiniz, eviniz və s. Təkcə bunlar yetər ki, həyata pozitiv baxasınız. Axı, nə qədər də pis olsanız hər zaman dəstək tapa biləcəyiniz insanlar var. Vaxtında hər kəsi və hər şeyi qiymətləndirin ki, sonra peşman olmayasınız.

47. Hər zaman vəziyyətdən çıxış yolu axtarın. Hərdən kədərlənmək də olar. Biz insanıq və pis olmasa yaxşını görə bilmərik. Hər zaman optimist olsaq bu bizi daxilən boşluğa və ya əsəblərimizin korlanmasına gətirib çıxarar. Hərdən, elə günlər olur ki, nə edirsən et heç bir iş alınmır və heç bir işə həvəsin olmur. Bu cür hallar tam normaldır və hətta xeyirlidir.

48. Fikirləşin. Problemləriniz haqqında ağılla fikirləşin. Əgər emosiyalarınıza sizin hərəkətləri idarə etməyi icazə versəniz, bucür hallar təkrarlana bilər. İsti-isti verdiyiniz qərarlar sizə görə doğru ola bilər lakin, sonradan onların nəticələri çox pis istiqamətə axın yarada bilər. Hətta problemləriniz də arta bilər.

49. Qeybətlərə baş qoşmayın. Öz ətrafınızda baş verən mənfi fikirli söhbətlərə baş qoşmayın. Əgər görsəniz ki, söhbətin axın o istiqamətdə gedir, sakitcə üzr istəyib ordan uzaqlaşın.

50. Günə yüksək əhval ruhiyyə ilə başlayın. Tam enerjili, gülümsəmə ilə oyanın. Alınmır? Heç nə olmaz. Əl-üzünüzü yuyanda güzgüdə özünüzə gülümsəyin. Qarşınızdakı"insan" da sizə cavab olaraq gülümsəyəcək. Ondan sonra keyfiniz qalxacaq. Bu gün sizin çoxlu görüləsi işləriniz var. Həyat qısadır, odur ki, həyatdan maksimum yararlanmağı

öyrənməlisiniz. Bu gün və sabah olduğu kimi növbəti hər gün belə etməlisiniz.

Bəşəriyyətin ən güclü varlığı insan

Allah təala insan qədər ikinci bir böyük varlıq yaratmamışdır. İnsanİnsan əfzəldir. İnsan çox mürəkkəb varlıqdır. İnsan həm fizioloji həm də mənəvi cəhətdən çox mürəkkəb varlığdır. Təsəvvür edin, bizim hüceyrələrimiz, ümümiyyətlə insanın bütün bioloji baxımı olduqca heyrətamiz yaradılıb. Mənəvi hissə də mürəkkəblik odurki, insana Allah böyük dəyər verib. Öz ruhundan ona üfürüb. Ruh insanı hərəkətə gətirən və hərəkət etdirən amildir. İnsanın göz sistemi, dünyanın ən müasir çəkiliş kameralarından da gözəl yaradılmışdır və güclüdür. Beyin tutumu bir neçə böyük yaddaş kartlarından güclüdür. Bütün bunların sahibi uca olan Allahdır.

İnsan sadəcə özünün nə qədər əzəmətli olduğunu dərk etmir. Bir sözlə özünü dərk etmir. Bu səbəbdən yaradılışın sahibini bəzən tanıya bilmir.

Mövlamız Əmirəl Muminin (Ə) buyurur ki,"Mən ərəfə nəfsəhu, fəqəd ərəfə Rəbbəhu.". Yəni"Hər kəs özünü tanısa, şübhəsiz ki, Rəbbini də tanıyar.

İslam, insanın özünü tanımasına və bu aləmdə öz mövqeyini düzgün dərk etməsinə xüsusi diqqət yetirir. Quran ayələrində bu mətləbə dəfələrlə işarə edilmişdir. Belə ki, insan özünün həqiqi varlığını, nə üçün mövcud olduğunu və yaradılış hədəfinin nədən ibarət olduğunu dərk etməlidir. Quran insanı haqqa hidayət edən və onu tərbiyə edən səmavi

kitabdır. O, yalnız nəzəri fəlsəfə irəli sürmür. Bəşəriyyətə təklif olunan hər bir şeyin əməli olaraq həyata keçirilməsini tələb edir.

Bütün bunlar insana həyatda böyük güc verir. İnsan hər zaman özünü uca tutmalıdır. Bir şərt vardır ki, bu təkəbbürlük anlamına gətirməməlidir. Sadəcə olaraq özünün nə qədər güclü olduğunu bilməlisən. Allah səni əzəmətli varlıq olaraq yaratmışdır.

Belə olduğu müddətdə insanı öz hədəflərinə doğru daha sürətlə irəliləyə bilər.

Uğursuzluqların səbəbləri

Ümümiyyətlə İslam dinində uğursuzluq yoxdur. Rəsullulah (s. ə. v) buyurmuşdur :

"Uğursuzluq deyə bir şey yoxdur." (Buxari, Tibb 19, 25) .

Qurani-Kərim o kəslərdən söhbət açır ki, xoşagəlməz hadisələri İlahi peyğəmbərlərə (ə) nisbət verərdilər. Ona görə də, onları uğursuz adlandırardılar.

"Dedilər: «(Ey Saleh,) bizim uğursuzluğumuz sənin və yanındakıların nəhsliyindəndir (şərin və pisliyin səbəbi sizsiniz) ». Dedi: «Sizin şər və uğursuzluğunuzun (səbəbi günahlarınızdır və günahlarınız) Allah yanındadır (Biz onun səbəbi deyilik) . (Əslində) siz imtahan olunan bir tayfasınız (bu hadisələrin hamısı cəza xarakteri daşımır, əslində sizin imtahanınız üçündür) »".

("Nəml" 47) .

Bu ayə Həzrət Salehin (ə) qəbiləsi haqqındadır. Həzrət Saleh (ə) zühur edən zaman bir çox təbii hadisələr baş vermişdi. Qəhətlik və quraqlıq olmuşdu. İnsanlar belə zənn edirdilər ki, həmin bəla peyğəmbərə (ə) görə nazil olmuşdur.

"Dedilər: «Biz sizi görməyi nəhs bildik (zərər və ziyan yetişməsinin bir əlaməti hesab edirik) , şübhəsiz əgər dediklərinizdən əl çəkməsəniz, mütləq sizi daşqalaq edəcəyik. Bizim tərəfimizdən sizə mütləq ağrılı bir əzab yetişəcəkdir»". ("Yasin" 18) .

"Onlara yaxşılıq və bolluq gələndə, «bu, bizim özümüz(ün ləyaqətimiz) dəndir deyirdilər və elə ki, onlara bir pislik və bəla gəlirdi, (bunu) Musanın və yanındakıların (ayaqlarının) uğursuzluqları ilə əlaqələndirirdilər. Əsla! Onların uğursuzluqlarının (və onlara gələn hər bir şər və bəlanın) səbəbi (onların)

Allahın yanında (qeyd olunmuş günahları) dır və lakin onların çoxu (bunu) bilmirdilər". ("Əraf" 131) .

Əgər onlara hansısa bir bəla yetişsə idi, bunu İlahi peyğəmbərlə bağlayırdılar. Firon Musanı (ə) inkar edəndən sonra quraqlıq dövrü başlandı. Firon da bu fürsətdən istifadə edib, insanlara dedi ki, bu quraqlığın səbəbkarı Musadır.

Bu cür tənələrin cavabını Allah Təala bu ayədə açıq şəkildə belə verir:"(Peyğəmbərlər) dedilər: «Nəhsliyiniz özünüzdəndir(günahlarınız ucbatındandır) , sizə öyüd-nəsihət verildikdə (onu əzablamı hədələyirsiniz)?!

(Bizim danışığımız nəhslik gətirmir) , əksinə, siz həddini aşan bir qövmsünüz»".

("Yasin" 19) .

İslam dinində əsasən bu mövzu”Təfəül” və”Təşəüm” adlanır. Bu cahiliyyə dövründə geniş yayılmışdı.

Cahiliyyə dövründə”təşəüm” çox yayılmışdı. O dövrün insanları hər şeyin bir uğursuzluq əlamətinin olduğunu düşünür və çox vaxt hadisələrdən aldıqları işarələrə görə etdikləri və edəcəkləri işlərə davam edir, ya da onlardan vaz keçirdilər. Məsələn, evin damına bayquş qonub ulamağa başlasa, başlarına böyük bəlanın gəlməsindən qorxardılar. Quş adlarından, cinslərindən və ya müəyyən istiqamətə uçmalarından bəzi mənalar çıxarırdılar. Əsasən qəsdən uçurduqları bir quş sağa uçsa, xeyrə, sola uçsa, şərə yozardılar. Ceyran kimi ov heyvanlarının sağ tərəfdən sola keçib gedənlərinin uğursuzluğa, sol tərəfdən sağa keçib gedənlərinin isə uğura səbəb olduğuna inanırdılar. Fala üstünlük verir, bütün işlərini buna görə müəyyən edirdilər. O qədər uğursuzluq əlaməti icad etmişdilər ki, qarabasmalarla oturub duran bir qorxu cəmiyyətinə dönmüşdülər.

Hz Peyğəmbər (s) məhz bu cəmiyyəti aydınlığa çıxartmaq üçün təyin edilmiş bir rəsul idi. O,”Təşəül”ü qadağan etmişdir. Çünki əksər hallarda təşəül şirkə gətirib çıxardır.

Rəsulullah (s. ə. s) bir hədisində:”İslamda”təşəüm” yoxdur, ən xeyirli yozum”təfəüldür”” – buyurmuşdu. Məclisində iştirak edənlərdən biri də:”Ya Rəsulallah, təfəül nədir?” – deyə soruşanda, Rəsuli-Əkrəm (s. ə. s) :”(Hadisələri yozmaqla əlaqəli olan) gözəl sözdür” şəklində sualı cavablandırmışdı. (Buxari, Tibb 19; Müslim, Salam 102)

Allah Rəsulunun (s) Hüdeybiyə müqaviləsində Suheyl ibn Amrın adını xeyrə yozması təfəülün ən gözəl nümunəsi olaraq diqqəti çəkir. Müqavilə üçün Qureyşin göndərdiyi heyətin başında Suheyl ibn Amrın olduğunu öyrənəndə Rəsuli-Əkrəm

(s. ə. s.) asanlıq, mülayimlik və yumşaqlıq mənasına gələn”Suheyl” adı ilə təfəül edərək”Artıq işimiz asanlaşdı” demişdi.

“Təfəül” bəzi hadisələri uğurlu sayıb onları xeyrə yozmaqdır. Təfəülün ziddi olan”təşəüm” isə bəzi əşyaları və hadisələri uğursuz saymaq, bunları şər bilmək və həmişə pis ehtimalları ön plana çıxarmaq mənalarına gəlir.

Yuxarıda qeyd etdiyimiz kimi, bütün uğursuzluqların səbəbkarı insandır. İnsan bütün günahları özündə axtarmalıdır. Bu günahları bir –bir araşdıraq görək hansılardır?!

1. **İnsanın azad iradəli olmaması.**

Bəzi insanlar aslı vəziyyətdə yaşamağa çox öyrəşmişlər. Hətta öz fikirlərini belə cəmiyyətə təqdim etməyə qorxurlar. Çünki, aslı olduğu insanlar onlara sərt reaksiya verə bilər, və yaxud”O nə deyər” kimi ifadələr bizim gənclərimizi məhvə sürükləyir. **Hz Əli(ə) bir hədisdə buyurur ki, *Heç bir şeyə qul olmayın, çünki Allah sizi azad iradəli yaratmışdır.***

İndi bəzilәriniz deyəcək ki, bəs Quran axı deyir məsləhətləşin?! Bəli, heç kim bunu inkar etmir. Müqəddəs kitabda artıq və yersiz bir kəlmə işlədilməyib.

Müsəlman heç vaxt”MƏN deyəndi heç kimin fikri mənə maraqlı deyil” deməməlidir. Müsəlman özündən əməldə və elmdə üstün olan şəxslərdən məsləhət almalı, lazım gəldikdə onların dediklərini etməlidir. Rəbbimiz”məsləhətləş” Rəsulullaha (s. ə. v) ona görə əmr etdiki, kobudluq, pis rəftar müsəlman əxlaqına xas olmayan Bu, aləmlərə rəhmət göndərilən Peyğəmbərə xüsüsən yaraşmazdı. Ətrafına

insanları cəlb etmək, dostluq əlaqələri qurmaq üçün mühum şərtdir ki, sən onlarla mehriban davranacaqsan və fikirlərini bölüşəcəksən.

Amma, heç vaxt fikirlərinlə və əməllərinlə qul kimi olmayacaqsan. Belə olduğu təqdirdə uğursuzluqlar səndən uzaqlaşacaqdır.

2. Valideynin haqqı.

İslam dininin ən aktual mövzularından biri də övlad və valideyn münasibətidir. Valideynin xeyir –duası olmayan, valideyninin razılığını qazanmayan şəxs, istər bu dünyada, istərsə də axirətdə heç vaxt xoşbəxt ola bilməz. O insanlar heç vaxt uğur qazana bilmirlər.

"Qurani-Kərim"də və Peyğəmbər və Əhli beytin hədislərində valideynlərə hörmət və qayğı göstərməyin vacibliyi haqqında çoxlu tövsiyələrə rast gəlirik. Övladlar öz valideynləri ilə rəftar zamanı həmişə təvazökarlığa, mülayimliyə riayət etməli, Quran dili ilə desək, hətta onların könlünü qıra biləcək «uf» kəlməsini söyləməyi də özlərinə rəva görməməlidirlər ("İsra" surəsi, 23-24-cü ayələr) .

Allah-Təala bu ayədə övladlara ata-ana ilə davranış ədəbini və onlara müraciət şəklini göstərir. Bir övladın ata-anaya qarşı təhqiramiz sözlər söyləmək, onlara əl qaldırmaq, onların qəlbini qırmaq, onları qocalar evinə atmaq bir yana dursun, heç

“uf” kəlməsini işlətməyə belə haqqı yoxdur. Qurani-Kərim ata-anaya hörmətsizliyin minimum həddini göstərmişdir. Allah onlara”uf” deməyi qadağan edirsə, bir övladın valideynlərinə həqarət etməyə, onları incitməyə, onlarla kobud danışmağa haqqı çatırmı? Bu baxımdan”uf”

deməkdən başlayaraq hər cür çirkin davranış və söz valideynə qarşı hörmətsizlik və asilik mənasına gəlir.

Ata və anamız bizim dünyaya gəlişimizə vəsilə olan insanlardır. Zəif və aciz halda dünyaya göz açan hər bir insan Rəbbin lütf və kərəmi ilə valideynlərinin mərhəməti və şəfqəti ilə böyüyüb həyata addımlarını atır. Valideynlər uşaqlarını boya-başa çatdıranadək hər cür fədakarlığa qatlanırlar. Yeməyib-içməyib övladlarına yedirirlər, özləri geyinməyib onları geyindirirlər. Və onlar üçün hər çətinliyə sinə gərirlər.

Hər zaman insan öz valideynləri ilə xoş davranmalıdır. Elə həyat yaşamalıdır ki, valideynləri ondan razı qalsın. Uğursuzluqların açarı məhz valideyn haqqını tapdalamaqdadır. Çalışın ki, bu cür hallar həyatınızda baş verməsin.

3. Pessimistlik.

Bir qrup insanlar həyatı boyu hər şeydən narazı qalırlar. Pessimizm insanın hər hansısa xüsusiyyətə mənfi yanaşma tərzidir. Adətən pessimist insanlar bir çox obyektə eyni anda mənfi yanaşır ki, bu da bu anlayışın əsasını təşkil edir.

Bir işin ardınca gedəndə artıq özündə ümidsüzlük yaradır ki, bu iş alınmayacaq.

Hətta qabaqlarına imkan çıxdıqda belə, onu dəyərləndirmək əvəzinə yenə də yox deyib, pis və ümidsiz fikirlərinə davam edirlər. Bu uğursuzluğ yaradan amillərdəndir. Uğur qazanmaq istəyən insan hər cür əziyyətə qatlaşmağa hazır olmalıdır.

4. İnsanın özünü aciz bilməsi.

Əvvəlki mövzularda qeyd etdiyimiz kimi, insan yaradılışın ən əfzəldir desək yanılmarıq. Çox böyük potensiala malik olan varlıqdır.

Quran ayələrindən müstəzəf kəlməsi öz oxşar kəlmələri ilə istifadə olunub və əksər yerlərdə"zəiflənmişlər və ya aciz mənasındadır. Bu sözün özünün çoxlu mənaları vardır. O cümlədən, əqidədə acizlik, maddi acizlik, cismi acizlik, əqli acizlik və s. .

Acizliyin başqa mənası acizlik halına gətirilmişdir. Yəni, bu cür insanlar əslində əql və əqidə cəhətdən qüdrətlidirlər amma, dünya imperalizmi və istemarçılar vasitəsi ilə əl qolları və imkanları bağlanmış ictimai cəhətdən elə vəziyyət gətirilib çıxarılmışdır ki, müxalifət etməyə heç bir qüdrətləri qalmamışdır. Bu son iki məna rəvayətlərdə də qeyd olunmuşdur.

Bəzən müəyyən iş təklif edilir insana, təklif edilən insan işlə tanış olmamasına baxmayaraq,"Yox bunu bacarmaram" ,"Biabır olaram"kimi ifadələr işlədir. Cəhd etməyə belə acizlik göstərir.

"Nisa" surəsinin 28-ci ayəsində bu həqiqətə belə diqqət çəkilir:". . . insan zəif yaradılmışdır". İnsan zəif varlıq olaraq yaradılmışdır ki, yaradıcımız olan Allah qarşısında acizliyini bir qul olaraq dərk edə və dünyanın müvəqqəti məkan olduğunu anlaya bilsin.

Allah insanı ən gözəl şəkildə və ən ideal sistemlə yaratmışdır. Lakin dünyanın müvəqqəti olmasını göstərmək və ehtiraslara qapılmalarının qarşısını almaq üçün orqanizmi ət və yağ kimi tez korlanan maddələrdən təşkil etmişdir. Əgər insanın orqanizmi başqa maddələrdən təşkil edilmiş, zirehli

quruluşa malik olsaydı, bu vaxt heç bir virus və mikrob, soyuq və ya hər hansı bir qəza bu zirehi deşib keçərək ona zərər verə bilməzdi. Halbuki ət və yağ bir neçə saat açıqda qaldıqda tez xarab olan maddələrdir. Elə insanın ən böyük acizliklərindən biri də”bu maddə"sinin çürümək təhlükəsinin bu qədər böyük olmasıdır.

İnsan Allah tərəfindən verilmiş bir xatırlatma olaraq orqanizminin acizliyini daim hiss edir. Məsələn, soyuq havanın təsiri insan bədəninin acizliyini tamamilə ortaya çıxaran bir faktordur.

Qurani Kərimdə buyurulur ki, Allahın rəhmətindən ümidinizi kəsməyin. Hər zaman uğur qazanmaq istəyən insan Allaha təvəkkül edib, aciz olmamalıdır.

5. Yalan, riya, təkəbbürlülük

Həyatda uğur qazanmaq istəyən insan daim Allahı zikr etməlidir yəni, Onu heç vaxt yaddan çıxartmamalıdır. Bütün işlərində sanki Allahı görürmüş kimi davranmalıdır.

Yalan - bilə-bilə (yaxud bilməyərəkdən) ifadə olunmuş məlum həqiqətə uyğun olmayan iddiadır.

Psixologiyada yalan termini geniş istifadə olunur. Yalanın müəyyən olunması ilə bağlı çoxlu təkliflər var.

Fray Odlerin fikrincə”yalan - başqasına xəbərdarlıq etmədən onda həqiqətə uyğun olmayan fikir formalaşdırmağa edilən uğurlu və ya uğursuz cəhddir".

İslam dinində ən böyük günahlardan biri yalan danışmaqdır. İnsan yalan danışdıqca, onu gizlətməyə çalışır. Belə olduğu müddətcə, bu aludəçilik halı alır. Bu yalançılıq

növü patoloji yalançılıqdır. İnsan heç bir məcburi və ya adi səbəb olmadan yalan danışır. Yəni, insan yalanla yaşayır və ondan zövq alır. Bu patoloji yalançılıqdır. Əksər mütəxəssislər patoloji yalançılığa psixi və sosial xəstəliyin ayrılmaz atributu kimi baxırlar. Hətta patoloji yalançıları narkomanlar, alkoqoliklər, psixopatlarla müqayisə edirlər.

Yalanın səbəbləri insandan insana dəyişə bilir, lakin onun iki təməl səbəbi var:

1. Hər hansı bir şeyi əldə etmək üçün yalan söyləyərik.

2. Cəzadan qurtulmaq üçün yalan söyləyərik.

İnsan övladı hər nə olursa, olsun çalışmalıdır ki, bu zərərli vərdişdən uzaq olsun. Səhf olsa belə, həqiqət nədirsə onu deməyi bacarsın.

Riya - Qurani-Kərimdə"riya" sözü beş ayədə keçir. Bu ayələrdən ikisi Allah yolunda malını verənlərin özlərini nümayiş etdirdiyini bildirir və Müsəlmanlara xəbərdarlıq edir. Digər ikisində isə namazlarını, başqa sözlə, ibadətlərini insanlara göstərməyi vər-dişə çevirənlərdən bəhs edilir və nümayiş məqsədi daşıyan bu xüsusiyyət pislənir. Sonuncu ayədə isə din adından hərəkət edənlərin azğın və riyakar davranışlarından xəbər verilir, ardınca da əmr və tövsiyələr bildirilir.

Peyğəmbərimizin (sallallahu əleyhi və səlləm) riyanın"kiçik şirk" olaraq adlandırmasına Əbu Hureyrənin rəvayət etdiyi bu qüdsi hədisdə də rast gəlirik:"Allah-Təala (cəllə cəlaluhu) bu-yurdu ki,"Mən şəriklərin şəriklikdən ən uzaq olanıyam. Kim işlədiyi əməldə Mənə qeyrisini şərik edərsə, onu da, şərik etdiyini də rədd edərəm"

İmam Qəzaliyə görə riya üç cürdür:

1. Niyyətin birbaşa riya olması ki, ən təhlükəli kateqoriya budur.

Riyakarlıq vasitəsilə bir məqsədə çatmaq istəyi. Bu, var-dövlət, vəzifə və s. ola bilər. Doğruluq pərdəsi altında xalqı aldatmağa çalışmaq, vətənpərvər kimi görünüb, əslində, qəlbində olan düşmənçilik hislərini"doyurmağa" çalışmaq kimi.

Riyakarlıq üçün alətə çevrilən hərəkət və ya davranış. Ürəkdən iman etmədiyi halda, imanlı görünmək. Dinin əsaslarını qəbul etməklə yanaşı, ibadətlər vasitəsilə özünü göstərmək. Məsələn, bir insan tələm-tələsik rüku və səcdə edib namazı bitirmək istəyir, amma kiminsə gəlişini görüncə uzun rüku və səcdələrlə namazını qılmağa başlayır.

İslamın böyük alim və mütəfəkkirləri müqəddəslərin davranışlarından nümunə, kəlamlarından ibrət alaraq, həmişə riyadan uzaq olmağa çalışır, ətrafdakılara da bunu tövsiyə edirdilər. Onların hər bir sözü, yazısı, əməli yalnız Allaha xatir idi.

İnsanların gözündə ucalmaq, avam camaatın hörmətini qazanmaq onları qətiyyən düşündürmürdü.

Riyanın məhv edilməsi yəni, tam əksi ixlaslı olmaqdır. İxlas, sırf hər bir əməli Allah rizası üçün etməkdir. Hz Peyğəmbərimiz buyurub ki, elə edin ki dünyanızı axirətə satmayasız. Yəni, riya ilə bəlkə də dünyada nəsə qazana bilərsən, amma axirətin məhv olacaq. Amma ixlasla etsən əməllərini həm dünyada həm də axirətdə uğur qazanacaqasan.

6. Ambisiyaların yoxluğu

Əgər insan öz karyerasına etinadsızdırsa, onun uğur pilləsində yuxarı qalxa biləcəyinə şübhəylə yanaşıram. İnsan addım atdığı zaman ilk öncə daha böyük nailiyyətlər fikirləşməlidir. Məqsədlər böyük o Uğur bu cür qazanmaq olur.

7. İnsanın öz istəyi olmaması

Uğursuz insanlar həyatda nə üçün yaşadıqlarını bilmirlər. Uğursuzluqların başlıca səbəbi, insanın məqsədsiz olmasıdır. İnsanın nə qədər öz istəyi olmadığı işə şövq etdikdə, o insan çox az müddətdə o işdə qalacaq.

Məhşur filosoflardan biri Sədi Şirazi buyurur ki,"***İstəyi olmadan öyrənən şagird, qanadsız quş kimidir".*** Məktəb dövründən fikir verin. Əksər valideynlər uşaqlarını hansısa səmtə yönəldirlər. Bəzi uşaqlardan soruşurlar sən nə olmaq istəyirsən?. Əgər şagirdin həqiqi istəyi, həkim olmaqdırsa, mütləq o bu işin sonunu müvəffəqiyyətlə tamamlayacaqdır.

8. Ürəyincə olmayan iş

Heç kəs istəmədiyi işdə müvəffəqiyyət qazana bilməz. Karyera düzəltməzdən öncə, qarşımızda duran əsas məsələ, düzgün peşə seçməkdir. Uğur yalnız öz işini həqiqətən də ürəkdən sevənlər tapır.

Bir ağaca dırmanmaq istəyirsinizsə, ulduzlara çıxmağı niyyət etsin ki, bacara biləsiniz. (Kofutsi)

Bu həqiqətən belədir. İnsanın və hədəfləri çox böyük olmalıdır. İnsan potensialı çox böyükdür. Sadəcə özünə əziyyət vermək istəməyən bir varlıqdır. Bir damcı nütfədən

yaranan varlıq, dünyanın ən son texnalogiyalarını yaradır. Atom Elektrik Stansiyası kimi böyük kəşflər edir. İnsan durduqca, bütün yeni kəşflər də var olacaq. Niyə inkişaf edən və etməyən ölkələr qruplara ayrılır. İnkişaf edən ölkələrin vətəndaşları da daima inkişafdadırlar. Hər zaman axtarışdadırlar ki, yəni bir şeyə nail olsunlar. İnkişafdan geri qalan ölkələrdə isə, insanların düşüncələri fərqli olduğu üçün ölkələri də inkişafdan qalır.

Hədəfsizlik, məqsədsizlik insanı inkişafdan saxlayan amillərdəndir.

Məqsədə çatmaq üçün bir böyük addım atmaqdansa, yüz kiçik addım atmaq yaxşıdır. (Helmut Kol)

Bu söz sənə onu bildirir ki, məqsədə çatmaq üçün cəhdlər edəcəksən. Cəhdlərin uğursuzluqla nəticələnsə belə, davam edəcəksən.

Əgər getdiyiniz yolda çətinlik və maneə yoxdursa, bilin ki, o yol sizi heç bir yerə çatdırmaz. (Bernard Şou)

Ümumiyyətlə bu həyat bir pianenoya bənzəyir. Pianenonun"Ağ dilləri" – həyatın bütün xoşbəxt üzüdür. Pianenonun"Qara dilləri" isə həyatda baş verən acı hadisələridir. Axı biz bilirik ki,"Ağ dillər""Qara dillərlə" birlikdə ifa edilir. Həyat da belədir, xoşbəxtlikləri yaşamaq üçün bəzən acılarla rastlaşmalıyıq. Amma bu acılar bizə daha da motivasiya olmalıdır. Həyata, məqsəd və hədəflərimizə doğru sürətlə irəliləməliyik.

Məqsədinə çatmaq üçün batan tikanı gül kimi qoxlaya bilsən, qazanarsan.

Böyük insanlar öz qarşılarına müəyyən məqsəd qoyurlar, qalan adamlar isə istəklərinə uyğun hərəkət edirlər. . (Vaşinqton İrvinq)

İnsanın həyatda məqsədi özünə əbədi şöhrət qazanmaqda deyil, ömrün hər bir gününü kiçik bir əbədiyyətə çevirməkdədir. Andre Morua

Bəzən məqsədə çatmaq bir çox qurbanlar tələb edir. Bu qurbanları qəbul etmək və səbr etmək hər adam bacarmır.

Həyatın məqsədi - məqsədli bir həyatdır. . (Depak Çopra)

Məqsəd haqqında çox danışmaq olar. Son olaraq sizə məqsəd haqqında böyük şairimiz Məhəmməd Hadinin şeirini təqdim etmək istəyirik.

Cahanda olmasaydı əhli-ərzin yüksək amalı,

Ucalmazdı göyə yer oğlunun şəhbali-iqbalı.

Qətiyyətsizlik və onun əlamətləri :

Qətiyyət elə bir amildir ki, insan yalnız uğura onun vaistəsiylə can atır. Ümümiyyətlə, həyatda özünə yer tapmaq istəyən insanlar adəti üzrə qətiyyətli olanlardır. Bu cür insanlar dəqiq insanlardır.

Qətiyyətsizlik nədir?! Qətiyyətsizlik inadkarlığın əks tərəfidir.

1) İnsanın nə istəməsinin tam bəlli olmaması.

2) Məsuliyyətsizlik, işlərə və əhatəsinə etinasız yanaşmaq və yaxud məsuliyyəti başqalarının üzərinə atmaq.

3) İnkişafdan geri qalmaq. İnkişaf haqda düşünməmək.

4) Vəziyyətdən çıxış yolu tapmaq əvəzinə, uğursuzluğa qane olmaq.

5) Güzəştə gedə bilməmək. Özündən razılıq.

6) Əl çatmayan"arzular"

Sublimasiya

Sublimasiya — psixikanın müdafiə mexanizmi olaraq, daxili gərginliyinin sosial faydalı əməyə istiqamətləndirilməsi vasitəsi ilə çıxarılmasıdır.

İlk dəfə Ziqmund Freyd tərəfindən təsvir edilib. Ziqmund Freyd iddia edirdi ki, cinsi instinktlərin birbaşa çıxışının məhdudlaşdırılması nəticəsində, onların başqa fəaliyyət növlərinə çevrilməsi baş verir. Cinsi həyatını məhdudlaşdırılması nəticəsində, onların çıxış tapa bilməyən cinsi enerjisi, başqa sosial faydalı fəaliyyət növlərinə çevrilməyə başlamışdır. Onlarda diqqət, düşüncə, dözümlülük, qavrama və bir çox başqa keyfiyyətlər yaranmışdır.

Freyd öz fikirlərində qeyd edir ki, insan cinsi həyatdan aslı vəziyyətə düşməməlidir.

Əks halda, insan bir oyuncaq olur. İnsan varki, cinsi həyatın quludur. Freyd bu cür insanları çox aşağılayır. Siz hisslərinizi, hər şeyinizi Allaha təslim etsəz, siz Allaha öz fikirlərinizi və hisslərinizi idarə etməsinə imkan verirsiz.

Bu məsələni mən sizə sadə dillə izah etməyə çalışım. Həqiqi iman odurki, daha doğrusu imanın ən yüksək pilləsi budur, insan aldığı hər nəfəsində Allahı hiss etsin və görsün.

Hər bir insan irəli getmək üçün bir rəhbər və başçıya ehtiyacı var. Xoş o insanın halına Allahı özünə rəhbər və başçı seçir. Hər şeyini Allaha təslim edir və hər şeyi ondan istəyir.

Bəs biri sizi öhdəsinə götürsə, hər ehtiyacınız və problemlərinizlə məşğul olacağını desə, nə edərdiniz?

Təbii ki, bu, olduqca sevindirici və təəccüblü hal olardı. Halbuki bu, bir həqiqətdir və Allahın insanlara vədidir.”***Allaha təvəkkül et! Allahın Qoruyan olması (sənə) bəsdir” ayəsi ilə (Əhzab surəsi, 3)***

Allah insanların Özünə əmanət olduğunu, əgər təvəkkül etsələr, çox rahat olacaqlarını xəbər vermişdir.

Allaha təvəkkül edən, yəni hər şeyin Allahın nəzarətində olduğunu bilən insan möcüzələrlə dolu metafizik həyat yaşayar. İnsan özünü Allaha təslim etdikcə

Allahın xüsusi müdafiəsi altına girir. Allah bu gerçəyə Quranda diqqət çəkmişdir. Bunun bir nümunəsi də, Məkkəni məhv olmaqdan qoruması idi.”Rum” surəsinin

67-ci ayəsində bu möcüzəvi hadisə belə bildirilir:

Məgər onlar, ətraflarındakı insanlar yaxalandıqları halda, (Məkkəni) onlar üçün müqəddəs, təhlükəsiz bir yer etdiyimizi görmürlərmi? Onlar batilə inanıb Allahın nemətini inkarmı edirlər?

Allaha təvəkkül edən həqiqi mömin hər bir işində mümkün qədər sistemli və planlı çalışmaqla, səbəbləri yerinə yetirməyə ciddi səy göstərməklə yanaşı, bunların heç birinə bel bağlamır, yalnız Allaha güvənir. Səbəblərin də, nəticənin də Allah tərəfindən yaradıldığını bilir və buna qəlbən inanır. Başına bir bəla gələndə də, bir sıxıntıya düçar olanda da:"Halım Sonsuz Mərhəmət Sahibi Rəbbimə əyandır, bunda da bir xeyir var", – deyib səbir edir. Bir uğur qazananda da, bir nemət veriləndə də:"Bu, ancaq Rəbbimin bir lütfüdür", – deyib şükür edir.

Uğur prinspi

1. Heç vaxt həyata təslim olmayacaqsan. Həyat sənə daim uğur qazanmaq üçün manelər yaradacaq, işinə əngəl törədən insanlar qarşına çıxacaq mma sənə enə də daim edəcəksən. Onda zaman uğur səninlə olacaq.

2. Ətrafınızda baş verən və uğursuzluqla nəticələnən hadisələrdən mütləq nəticə çıxarıb dərs almalısız. Müdriklərdən biri buyurub ki, həyata yeni qədəm qoymuşlar üçün həyat ən böyük məktəbdir. Yaxşılar da bilinir, pislər də bilinir. Sadəcə ümümi bir nəticə çıxardaraq yola davam etmək lazımdır.

3. Daxilinizdəki bütün mənfi enerjilərinizə qalib gəlməyi bacarmalısız. Burda ən böyük qorxu və təəssübkeşlikdən uzaq olacaqsan. Hətta risk edəcəksən amma bunun pis nəticələnəciyini düşünməyəcəksən. Çünki, bu qorxu hissi yaradacaq.

Burada bunu qeyd edək ki, bilərəkdən sonu acı nəticələnəcək bir şeyə risk etmək qəti şəkildə olmaz. Lazımsız və lüzumsuz şeylərə ümümiyyətlə çalışın vaxt sərf etməyin.

4. Uğurlu insanlar adətən gününün bir hissəsini elm-təhsilə yönəldirlər. Xüsüsən insan sual –cavab vaistəsi ilə çox şey öyrənir. İnsanın özünü sorğu sual etməsi dinin bəyənən əməllərindəndir. Günün yekununda daim özünü sorğu et, nə qazandın və yaxud nə itirdin?!. İtirdiklərin çalış ki, ikinci gün təkrar itirməyəsən. Belə olduğu təqdirdə insan irəliləyiş əldə edir.

5. Deyingən olmayacaqsan. Bəzən işə başladıqda həm mənəvi, həm də maddi imkansızlıq insanı sıxa bilər. İnsan heç vaxt şikayətlənməməlidir. Bu, insanı çox yorur. Beynimizi və zehnimizi tamamilə yorucu şeylərdən uzaq etməliyik.

6. Onlar məşğul, yaradıcı və punktualdırlar. Hamının bekar gəzdiyi, işsiz dayandığı və sanki işləyirmiş kimi davrandığı yerlərdə və anlarda – onlar həqiqətən işləyirlər.

Daim axtarış içindədirlər. Allah təala bu cür insanları sevər. Bekar qalmaq müsəlmana yaraşmaz. İnsan daim axtarışda olmalıdır.

7. Onlar həmişə mövcud potensiallarını maksimal şəkildə reallaşdırmaq üsulu tapırlar. Onlar həmişə özlərinə qarşı tələbkar olur. Nəzərə alsaq ki, insan potensial varlıqdır. Bircə işi budur ki, bunu düzgün istiqamətdə işlədə bilsin.

8. Özün olacaqsan. Yəni, həyat axışını kimlərəsə bənzətməyəcəksən, və yaxud filankəs rəngsazdı, məndə rəngsaz olacam yox. Öz daxilinin gücü və hansı səmtə meyillilik varsa, ora doğru gedəcəksən.

9. Hamıya qarşı mehriban olmaq.

Bu xüsüsiyyət insanın üzünü bütün qapıları açır. Hətta müqəddəs kitabımızda Allah təala Peyğəmbərimiz (s) -ə buyurur ki, insanlarla gözəl və mehriban davranmaq, insanın öz ətrafına insan toplamasına vaistədir. İnsanlarla mehribanlıq sənə əlavə güc gətirəcək. Sən daha da uğur qazanacaqsan. Əks halda həm dostların itkisi, həm də mənfi enerjilər səni məqsədinə çatmağına imkan verməyəcək.

10. Onlar ürəklərində arzu tutub, bəxtin onlara güləcəyini və xoşbəxt şansı gözləmir, bu insanlar özləri-öz talelərini qururlar.

11. Problemlərdən qaçmayacaqsan.

Problemin gözünə dik baxmağı bacaracaqsan. Belə olduqda problemlərin azalacaq.

12. Onlar emosiyalarını idarə etməyi bacarırlar.

13. Onlar da hamının hiss etdiyini duyğuları yaşayır, lakin öz hisslərinin əsirinə çevrilmirlər.

14. Əksər insanların komfortdan asılı olduğu halda, uğurlu insanlar bilir ki, polad döyüldükcə bərkiyər və insan xarakteri məhz çətinliklər gördükcə möhkəmlənir.

14. Xeyirxah və səxavətli olacaqsan. Pul hər şey deyil. İnsan müvəffəqiyyət qazanmağı üçün pul bir o qədər də önəm kəsb etməməlidir. Əksər insanlar başa düşmür ki, pul –sadəcə vasitə və alətdir. **Xoşbəxtlik yalnız sənin öz əlindədir.**

15. Onlar təvazökardır, səhvlərini qəbul etməyə və üzr istəməyə hazırdır. Onlar öz bacarıqlarına arxayındır, amma buna rəğmən təkəbbürlü deyillər. Onlar digərlərindən öyrənməyi bacarırlar. Onlar başqalarına fərqlən imkanı verdiklərinə görə özlərini xoşbəxt sayırlar və qabağa dartmağı xoşalmırlar.

16. Onların özləri üçün müəyyən etdiyi zirvə nöqtəsi həmişə digərlərindən daha hündür olur.

Mein balıqçısı –Uğur hekayəsi

Bir vaxtlar bəxtinin hər zaman gətirməsi ilə məşhur Mein balıqçısı adında bir adam olub. Mein deyilen bölgədə balıq az olmasına baxmayaraq bu adam ne vaxt balıq tutmağa gedibsə, əli dolu geri qayıdarmış. Buna görə də, insanlar onun çox şanslı olduğunu düşünürmüşlər, beləliklə o ad-san qazanıb məşhurlaşıbmış.

Adamın şanslı olmağı o dərəcədə dillərə yayılıbmış ki, hər hansısa bir insanın bəxtindən danışanda insanlar"Mein baliqçısı kimi" bəxti var deyirlərmiş.

Bir gün balıqçı ölür. Cənazəyə gedənlər balıqçının evində balıqçılıq və dəniz məmulatlarına aid çox sayıda kitablar görürlər. O vaxtdan sonra balıqçının niyə əli boş qayıtmadığını hər kəs anlayır.

Uğur qazanmaq üçün bilgi və savad çox önəmlidir. Savadı əldə etmənin yollarıda dərslər, seminarlar, təlimlər və kitablardır. Ən asan yol isə oxumaqdır (kitab oxumaq) . Buna

görə də”Sürətli oxumaq” qabiliyyətinizi təkmilləşdirməyiniz lazımdır.

Kitab oxuyan insanlar beyinlərini televizor izləyən insanlardan daha əlverişli işlədirlər. Kitab oxuyarkən beynin hər iki tərəfi, koordinasiyalı və balanslı bir halda çalışır. Beynin sol yarım kürəsi oxuyaraq sözləri və fikirləri qavrayır, sağ yarım kürəsi də bunları təsvir edir, canlandırır və xəyal qurur. Daha vacibi isə, bunun nəticəsində beyin yeni fikirlər çıxarmağa başlayır. Televiziya isə hər şeyi hazır təqdim edir və beynin yalnız passiv olaraq izləməsini təmin edir. Beləliklə, televiziya beynin inkişafına heç bir kömək etmir.

2) Michael Jordan, məktəbdə oxuyarkən basketbol komandasına qəbul edilməz.

Müəllim boyunun qısa olduğunu və istedadsız olduğunu əsas gətirərək, qrupa qəbul etməz. Hal-hazırda təkcə Amerikanın deyil, dünyanın ən böyük basketbolçusu adına sahibdir.

3) Enriko Karuzo musiqiyə başladığı ilk illərdə musiqi müəllimi ona belə deyir; Sənin səsin pəncərə kənarından girən küləyin fit çalmasına bənzəyir.

4) George Westinghouse, yaşıdlarına görə axmaq, istedadsız, çalışmağı sevməyən biri olduğu bəhanəsi ilə məktəbdən atıldı. 26 yaşına çatmamış buxarlı motor çarxını tapdı. Yaşadığı müddətdə 400-dən çox ixtiraya imza atmışdır, sənaye imperatorluğu qurmuşdur.

5) Xuan və Cinq universiteti qurtarandan sonra bir topdan satış şirkətində işləyirdilər, onların hər ikisi çox səylə çalışırdı. Bir neçə il sonra müdir Cinqi satış meneceri

vəzifəsinə ucaltdı, ancaq Xuan satış təmsilşisi vəzifəsində qaldı. Xuan bunu çox da yaxşı qəbul etmədi. Bir gün müdirə çox səylə çalışmağına baxmayaraq, ancaq ona yaltaqlananların vəzifəsini qaldırdığını dedi və istefa istədi.

Müdir bilirdi ki, Xuan keçən bu illər ərzində çox səylə çalışıb, ancaq o, Xuana onunla dostu arasında olan fərqi göstərmək istəyirdi. O, Xuandan bir şey etməyini istədi. Gedib marketdə qarpız satan kimisə tapa bilərsən? Xuan qayıtdı və bəli dedi. Müdir- ona get soruş gör qarpızın 1 kq neçəyədir?

Xuan marketə getdi və qayıdıb dedi:

- 1 kq 12$ dedi.

Müdir Xuana dedi, gəl eyni sualı Cinqə də verək. Cinq getdi və qayıdıb dedi:

-"Müdir, yalnız bir nəfər qarpız satan var. 1 Kq 12$-dır. 10 kq üçün 100$dır. Onun 340 sayda qarpızı da var. Piştaxtanın üstündə 58 qarpız var və hər biri təxminən 15 kq-dır. Onları iki gün əvvəl cənub tərəfdən gətirib, hamısı təzə, qırmızı və yaxşı vəziyyətdədirlər.

Bu Xuana çox təsir etdi və o özü ilə dostu arasındakı fərqi anladı. O, işdən çıxmamağı və qalıb dostundan çox şey öyrənməyi qərara aldı.

Karuzonu bəyənməyən müəllim ona dərs deməyi rədd edir. Enriko daha sonra İtalyanın və dünyanın ən böyük tenorlarından biri olur.

6) Antoni Burger motivasiya hekayəsi :

Antoni Burgess beynində şiş olduğu öyrənəndə və bir neçə il ərzində öləcəyini biləndə 40 yaşında idi. O vaxtlarda heç nəyi yox idi. Dul qalacaq xanımına miras verəcək heç nəyi yox idi. Burgess keçmişdə heç proffesional yazıçı deyildi, amma daxilində bu istedad yatırdı. O, buna çox inanırdı. Bir gün çap maşınına bir kağız qoyaraq ilk romanını yazmağa başladı. Qorxu var idi ki, insanlar tərəfdən qınaq obyekti ola bilər. 1960 -cı il yanvar ayı idi və qoyulan diaqnoz əsasında qarşıda yaşaya biləcəyi bir qış, bir ilk bahar, bir yaz vardı. O il yarpaqlar tökülməyə başladığı zaman, mən də ölmüş olacağdım -deyirdi. O həyəcan, stresslə il bitmədən Burgess 5 cild roman yazmağı bacarmışdı. Bunnan əvvəl E. M. Forster kimi yazıçı yaşadığı müddətcə güclə yazmışdı. J. D. Salinger Amerikanın ən məhşur yazıçılarından biri bütün ömür boyu bunun yarsını yaza bilmişdi. Nə var ki, Burgess ölmədi. Kanseri də üstələdi. Kanserin ona verdiyi ölüm cəzası olmasaydı, bu romanların birini də yazmaya bilərdi. Çoxumuz Burgess kimiyik. Daxilimizdəki gücü ortaya çıxartmaq üçün fövqəladə bir vəziyyət gözləyirik. Öz özünüzü gündəlik motivasiya edin. Özünüzü Burgessin yerində hiss edin. Ömrünüzün axırına bir il qalmış kimi düşünün. İçinizdə yatan gücünüzü işə salın. Siz bir il ərzində həyatda nələri dəyişə bilərsiz? Ümümiyyətlə, ömrünüzün axırına bir il qalmasına bilsəydiz nələr edərdiz? Gündəlik olaraq beyninizi işə salın. Özünüzün dostu olun. Zamanın qiymətini bilin. Ən əsası öz dəyərinizi bilin. **Unutmayın potensial varlıqsız.**

7) Stephan King. Bu insanın həyatı olduqca möhtəşəmdir. Dünyanın ən məhşur roman yazıçılarından biridir. O, ilk dövrdə bir roman yazmışdı və bəyənmədiyindən o romanı həyətə atmışdır. Həyat yoldaşı isə israrla –"bu roman bizə uğur gətirəcək" –deyirdi. Romanı həyətdən

götürərək, onun üzərində bir az işləyən xanım Kingi –dünya şöhrətli yazıçı etdi.

Diqqətlə baxın, insanın özünə inanması böyük faktordur. Ən böyük amildir.

Hər zaman özünüzə inanmağı bacarın.

8) Tomas Edison – dünya şöhrətli məhşur fizikaçı. O, işıq lampasını kəşf etməmişdən əvvəl 999 dəfə ayrı –ayrılıqda təcrübə aparmışdır. Hər tərrübə apardıqda ətrafdakı insanlar ona gülürdülər,"Yorulmadınmı?" –deyirdilər. Tomas onlara cavabında buyururdu ki, hər təcrübədə yeni bir şey öyrənirəm, inanıram bir gün alınacaq. O, illərin zəhməti nəticəsində lampanı kəşf etdi.

Zəhmət çəkmədən nəyəsə nail olmaq mümkün deyil. Çoxlu cəhd etməlisən, əmin olmalısan ki, nə vaxtsa alınacaq. Özünə hər zaman inanmalısan.

9) Nik Vuyçiç Tetra-Ameliya sindromu ilə anadan olub. Bu nadir irsi xəstəlik əlayaqların hamısının olmamasına gətirib çıxarır. Yaxınlarına əziyyət verməsin deyə o, 10 yaşında özünü vannada boğmağa cəhd edib. Hal-hazırda isə, Nik dünyanın ən məşhur və tanınmış motivasiya natiqlərindəndir. Onun gözəl həyat yoldaşı və oğlu var. Öz varlığı və fəaliyyəti ilə Nik minlərlə insana"normal" həyata ümid bəxş edir.

10) 17 yaşlı Kerri Braun – Daun sindromunun daşıyıcısıdır. Bu yaxınlarda tanışlarının və internetin dəstəyi ilə o, gənclər üçün geyim istehsal edən Amerika şirkətlərindən birinin modeli olub. Kerri əvvəlcə"Wet Seal" geyimində olan fotolarını sosial şəbəkədəki səhivəsinə

yerləşdirməyə başlayıb. Bundan sonra onun səhivəsi o qədər populyarlaşıb ki, onu bu ticarət markasının siması olmağa dəvət etdilər.

11) İrkutsk uşaq evinin balaca yetirməsi Tanya Kirillovanın bəxti gətirib – anadan gəlmə dizindən aşağı ayaq sümükləri olmayan 13 yaşlı Tanyanı amerikalı ailə övladlığa götürüb. Beləcə, Cessika Lonq peydə olub - tanınmış üzgüçü, 12 qızıl paraolimpiya medalı mükafatçısı və ayaqları olmayan idmançılar arasında dünya rekordsmeni.

12) Yeni Zelandiyalı Mark İnqlis 2006-cı ildə Everesti fəth edib, hər iki ayağını isə bundan 20 il əvvəl, 1986-cı ildə itirib. Alpinistin ayaqlarını əvvəlki ekspedisiyaların birində don vurub, amma o Everst haqqındakı arzusundan ayrılmayıb. Nəhayət,"adi" adamlara belə çətinliklə fəth olunan zirvəyə qalxıb – Everestə çıxıb.

13) Tatyana – ayaqları iflic olmuş rus əsilli amerikalı əlil idmançıdır. O, dəfələrlə əlil arabası ilə qadınlar arasında qaçışların – o cümlədən, 2013-cü ilin Boston marafonunun qalibi olub.

14) Günlərin bir günü Lizzi internetdə bir çox şərhi və ziyarətçisi olan"Dünyanın ən eybəcər qadını" adlı videoçarx görüb. Sən demə, videoçarxda elə Lizzinin özü imiş. O, piyin tam olmamasına səbəb olan nadir bir sindromla dünyaya gəlib.

Lizzinin birinci arzusu şərhçilərlə bərabərsiz"döyüşə" girib onlara düşündüklərini yazmaq olub. Ancaq bunun əvəzində o özünü ələ alıb bütün dünyaya sübut etdi ki, insanları ruhlandırmaq üçün gözəlçə olmaq heç də mütləq deyil. O, artıq özünün iki kitabını buraxıb və motivasiya nitqləri ilə çıxış edir.

15) Günlərin bir günü padşah yolun ortasında böyük bir daş parçası qoyur, yoldan keçənlərin reaksiyasını bilmək üçün kənarda gizlənir. Tacirlər, saray adamları etinasız halda daşın kənarından keçir və hələ üstəlik şəhərdə səliqə-səhmanın olmamasından gileylənir, amma onlardan heç biri əyilib daş parçasını yolun ortasından götürmürdü.

Axşamüstü çiynində ağır yükü olan bir kəndli daşın yanından keçəndə, yükünü yerə qoyub, min əziyyətlə də olsa daşı kanara çəkir. Bu zaman daşın altında bir kisənin olduğunu görürür. Onu açıb içərisində çoxlu qızıl və gümüş pullar və bir yaddaş olduğunu görür

Şah o yaddaşda yazmışdı:"Hər bir maneə insanın həyatını dəyişmək üçün bir şans ola bilər. Həyat əməldən, əməkdən ibarətdir. Çayı şirin edən şəkər deyil, onu qarışdıran qaşığın hərəkətidir".

16) Jan Koum - 1976-cı ildə Ukraynada doğulub, 1992-ci ildə anası ilə ABŞ-a köçən Jan Koum, 2014-cü ilin fevral ayında Facebook-un aldığı WhatsApp-ın qurucusu və CEO-

sudur. ABŞ-da yoxsul həyat sürən Jan Koum, bir müddət təmizlikçi olaraq işləmişdir.

Yahoo-da proqramçı olaraq işə başladığı zaman Brian Acton-la tanış olmuş və onun dəstəyi ilə WhatsApp-ı yaratmışdır. İndi 7. 9 milyard dollarlıq sərvəti ilə Amerikanın ən zəngin insanlarından biridir.

17) Dolanışıq şərtlərinə görə, uşaqlığını uşaq evində keçirən İtaliyalı işadamı Leonardo Del Vecchio, iş həyatına eynək və avtomobil hissələri qəlibi istehsal edən bir zavodda işləyərək başladı. Burada bir barmağını itirən Del Vecchio, 23 yaşında öz zavodunu qurdu və indi Ray-Ban və Oakley kimi markalara qəlib istehsal edir. Leonardo Del Vecchio-nin sərvəti 19. 1 milyard dollardır.

18) Uğurlu iş adamı, dünyanın ən böyük moda nəhənglərindən Ralph Lauren, markasını yaratmadan əvvəl bir kişi geyim mağazasında satıcı işləyirdi. Belarusiyadan Amerikaya köçən Lauren, rəngli qalstukların istehsalçısı olaraq moda sektoruna daxil oldu. Birinci il hardasa 500 min dollar dəyərində qalstuk sattı. İndi sərvəti 8. 2 milyard dollar olan iş adamının, avtomobil kolleksiyası da var.

Çox kiçik yaşlarda iş həyatına daxil olan, 1958 təvəllüdlü, Amerikalı milyarder Mark Cuban, pul alış-satışı, mühafizəçi, ofisiant kimi işlərdə işlədi. Cuban, 1999da 5. 7 milyard dollara Yahoo-nun aldığı broadcast. com-un qurucusudur. Son zamanlar 2200 kvadrat metrlik malikanəsində vaxt keçirən Cuban, Dallas Mavericks adlı NBA yığmasının da sahibidir.

19) Əvvəllər evi olmadığı üçün maşında yatan John Paul DeJoria, kredit alaraq"John Paul Mitchell Systems" saç baxım məhsullarını yaratdı. İllərlə qapı-qapı gəzib məhsul satışı edərək markasını böyütdü və daha sonra Patron Tekila şirkətini qurdu. İş adamının sərvəti 3. 2 milyard dollardır.

20) Stiven Hoking - Dünya şöhrətli alim, məhşur fizikaçı

22 yaşında Stivendə hərəkəti əlaqələndirən sinir hüceyrələrinin nadir xəstəliyi aşkar olunur. Birinci arvadı Ceyn ilə evlənməyə hazırlaşdığı dövrdə həkimlər onun çox yaşamayacağını proqnoz ediblər. Cütün ailə həyatı 26 il davam edib, onların 3 övladı doğulub.

- Məktəbdə Stiven orta səviyyədə oxusa da riyaziyyatda yaxşı nəticələr əldə edirdi və əlavə olaraq kimya ilə maraqlanırdı. 9 yaşında olanda onun dərslər üzrə qiymətləri sinifdəki ən bərbad qiymətlər idi. Buna baxmayaraq, müəllimlər onun dahiliyinə inanırdılar. Buna görə də məktəbdə o,"Eynşteyn" ləqəbinə layiq görülmüşdü.

- Stası istəyirdi ki, Stiven tibb ilə məşğul olsun. Lakin Stivenin biologiyaya həvəsi yox idi. O, biologiyanı həddindən artıq dəqiq olmayan bir elm hesab edirdi. Nəticədə o, Oksfordda hissəciklərin nəzəriyyəsi və kosmologiya ilə məşğul olmağa başladı. Belə ki, bu sahələr insanlar tərəfindən az öyrənilmişdi və böyük imkanlar vəd verirdi.

- Kral Cəmiyyətinin görüşündə Stiven birdən məşhur astrofizik Fred Hoylun mühazirəsini dayandırmışdır. O, bunu Fredin səhv etdiyini söyləmək üçün etmişdi. Onun bu səhvi necə tapdığını soruşduqda isə belə cavab vermişdi:"Sadəcə olaraq mən bütün bunları başımda hesabladım".

- 1970-ci illərdə Stiven öz əsas kəşflərini etmiş və bəlkə də kosmologiyaya ən vacib töhfəni vermişdi: Hokinq şüalanmalarının kəşfi (qara dəliklər enerji ifraz edir və həmin enerji bitənə qədər bu proses davam edir) .

- 1980-ci illərdə Stiven professor Ceyms Hartle ilə birlikdə zaman və məkanda sərhədlərin olmadığı kainat modelini təqdim etmişdi. Həmin kainat konsepsiyası həmçinin Stivenin"Zamanın qısa tarixi" kitabında da əks olunmuşdu. Həmin kitab bütün dünya üzrə 25 milyonluq tirajla satılmışdı. Stiven kainatı Yer kürəsinə bənzədirdi. Belə ki, Yer kürəsinin hansı nöqtəsinə gedirsən get onun kənarı yoxdur. Lakin planet yalnız ikiölçülü fəzada, kainat isə dördölçülü fəzada mövcuddur.

- 1985-ci ildə Stiven pnevmoniya xəstəliyinə tutuldu. Onun vəziyyəti o dərəcədə ağır idi ki, həkimlər onun həyatı dəstəkləyən aparatla əlaqəsini dayandırmaq istəyirdilər. Həyat yoldaşı Ceyn bu fikirdən imtina etmişdi. Nəticədə Stivenin həyatını qurtarmaq üçün onun üzərində traxeotomiya əməliyyatı aparılmışdı. Bu əməliyyat nəticəsində o, danışa bilmək qabiliyyətini itirdi və həmin vaxtdan insanlarla səs sintezatoru vasitəsilə ünsiyyət saxlamağa başladı.

- 1995-ci ildə Hokinq ona baxan xadimələrdən biri ilə Elaine Mason adlı qadınla evlənir. Onlar 11 il evli olduqdan sonra boşanıblar.

- Stiven elm dünyasının pop-ulduzu hesab olunurdu. Müxtəlif vaxtlarda o,"Simpsons","Star Trek","Big Bang Theory" kimi layihələrdə iştirak etmişdi.

- Baxmayaraq ki, Stiven çoxlu sayda nüfuzlu elmi və ictimai mükafatlara sahibdir, sağ ikən Nobel mükafatını ala bilmədi. Oksfordda 30 il ərzində o, İsaak Nyutonun çalışdığı kafedrada çalışdı.

- 2007-ci ildə Hokinq iflic xəstəliyindən əziyyət çəkməsinə baxmayaraq, xüsusi təyyarədə yaradılmış çəkisizlik vəziyyətini sınayan dünyada ilk insan olub. Bundan sonra o deyib:"Bəşəriyyət kosmosa çıxmasa, gələcəyi olmayacaq".

- Stiven Hokinq riyaziyyat və elm sahəsində bir çox mükafatlara layiq görülüb,

2009-cu ildə ABŞ prezidenti Barak Obama alimi Azadlıq Prezident Medalı ilə təltif edib.

22) Anadangəlmə gözdən əlil olan Devid Blanketə Böyük Britaniya hökumətində Daxili İşlər Nazirliyinin rəhbəri olmaq qismət olub. Həmin vaxta qədər heç bir ölkədə anadangəlmə əlil belə siyasi vəzifəyə qalxmağa nail olmamışdı.

23) Kanadada doğulan Guy Laliberte sirk karyerasına küçə çalğıçılığı edərək, akordiyon çalaraq, ipin üzərində kəndirbazlıq edərək və atəş udaraq başlamışdır. 1987-ci ildə Los Angeles İncəsənət Festivalına Kolumbiyadan müvəffəqiyyətli bir rəqs qrupunu dönüş bileti belə almadan gətirərək riskli bir cəhd etmişdir. Sirk qrupunu Las Vegasa gətirərək bu gün tanıdığımız dünya tərəfindən məşhur Cirque de Soleili yaratmağı bacarmışdır. Eyni zamanda professional poker oyunuçusu və kosmonavt olan Laliberte bu gün 2. 5 milyard dollarlıq sərvətiylə Cirque du Soleilin rəhbəridir.

24) Howard Brooklində böyüyüb. O, hər zaman yük maşını şoferi olan atasının ona təqdim etdiyi həyat tərzinin kənara çıxmaq istəyib. Bütün yoxsulluğa baxmayaraq, idman mövzusunda təkmilləşmiş və Northern Michigan Universitetindən futbol təqaüdü qazanmışdır. Rabitə sahəsində təhsilini tamamladıqdan sonra Xeroxda işə başlamışdır. O zaman kiçik bir qəhvə mağazası olan Starbucks qəhvəsi ilə sehrlənən Schultz 1987-ci ildə Xeroxu buraxıb Starbucksın hissələrini satın alıb şirkətin rəhbəri olmuşdur. 60 qəhvə mağazası ilə başlayan zəncirin bu gün dünyada 20. 891 dükanı var. Schultz bu müvəffəqiyyətli şəbəkə ilə bu gün 2. 1 milyard dollarlıq sərvətin sahibidir. Özü bir müddət iş həyatına ara verdikdən sonra Starbucksı enişdən qurtarmaq üçün təkrar CEO vəzifəsinə gəlmişdir.

25) İngvar Kamprad ferma həyatı yaşayaraq böyüsə də içində hər zaman sahibkarlıq ruhu olub. Kiçik yaşlarda Stokholmda topdan aldığı kibritləri qonşularına satmağa başlamışdır. Daha sonra işləri bir az daha böyüdərək balıq, Milad dekorasiyası və qələm satmışdır. Kiçik işlər onu təmin etməyincə atasından pul alıb bir poçt sifarişi işi qurmuşdur. Daha sonra bu təşəbbüsü dünyanın ən böyük mebel mağazasına çevrilmişdir. IKEA adı, Ingvar Kampradın baş hərfləri ilə yaradılmış, böyüdüyü ferma (Elmtaryd) və qəsəbənin (Agunnaryd) baş hərfləri də marka adını tamamlamışdır. Zaman içində mebel şirkətin ən çox satan məhsulu halına gəlmişdir və Kampradın razılaşdığı yerli istehsalçılar qiymətlərin aşağı qalmasını təmin etmişdir. Bir zamanlar dünyanın ən zənginləri arasında olan Kampradın sərvəti bu gün 3. 4 milyard dollardır.

26) Terri Crews böyük bir ulduzdur. Əgər hər şey onun üçün asan olduğunu düşünürsənsə; başından qalib olmaq üçün anadan olan hər şey həqiqətdən uzaqdır.

Digərləri kimi dünyanın uğurlu sahibkarlarının hekayələriTerri Crews, bu günün uğuru olmaq üçün inanılmaz maneləri aşmalı idi. Onun hekayəsi kimi digər böyüklərin duyğularını əks etdirir, Tony Robbins və Oprah Winfrey kimi.

Qorxunc uşaqlıq

Köhnə müvəffəqiyyətli futbolçu və oyunçu, atasının daimi zehni və fiziki istismarına məruz qalan dəhşətli bir uşaqlıq yaşadı. Buna görə Terri, bütün gəncliyini atasının qorxusundan, Flint şəhərində (ABŞ) şəhərində yoxsul həyat içində yaşaya biləcəyi ən pis vəziyyətdən birində böyüdü.

Amma qorxu altında yaşamağın əvəzinə o, fiziki məşqlər və futbola diqqət etmək üçün bu əzablardan qorxmadı. Buna görə, orta məktəbdə futbol oynayandan sonra, Miçiqaniyanın Interlochen İncəsənət Mərkəzində oynamaq üçün tam təqaüd almışdır.

Daha sonra Los-Ancelesə gedərək, bir aktyor olaraq özünü sınadı.

Bu çəkiliş ona daha çox təcrübəyə səbəb oldu, belə ki, Crews”Təlim Günü" və”Kings Street" kimi filmlərin rolunu oynayırdı. Bunun səbəbi, onun iş etikası və qətiyyəti, Kino Məkkəsində uğur qazanmaq üçün əsaslar və televiziya və filmlərdə daha da əhəmiyyətli rollar idi.

Terry Crewsun həyatı haqqında sahibkarın həyatında uğur qazanmaq üçün megastardan öyrənilə bilən dərslərindən istifadə edə bilərsiniz.

1) Keçmişə bunu təyin etmə. Terri Crews keçmişindən qaçmadı. Onu çətin uşaqlığını əhatə etdi və keçmiş təcrübələrindən ötəri böyük uğur qazandı. Və o, keçmişinin məhdudlaşdırıcı inanclarına böyüklük əldə etməsini manea törətməyə imkan vermədi. Əksinə, keçmişdə, həyatda olması lazım olan insan olmaq üçün istifadə edilməlidir.

2) Başlamaq üçün yaxşıdır:

Rahatlıq zonasından çıxın: Terri, rahatlıq zonasını hərəkətə keçirərkən və onun iş səylərində tamamilə kənara qoyur. O, ciddi filmlərə çəkildi, həm də"Brooklyn 9-9" kimi komediyalarda da. Onun komik və uğurlu Old Spice reklamlarından söz etməyəcəyəm. Terri üçün heç bir rahatlıq yox idi, rahatlığı tərk etməlisiz, əksər insanlar bunu edirlər. Ona görə qeyri-müəyyənlikdən qorxmaq və uğursuzluqdan qorxmaq üçün mübarizə aparmalıyıq.

Həmişə sağlamlığınıza diqqət yetirin.

Terri dediyi kimi:"Çalışın gününüzün bir hissəsini idman zallarında keçirin. İdman zahirinizə və daxilinizə çox xeyri və təsiri vardır. Pozetiv həyat tərzinə keçməyinizə vaistədir.

Arzunu"Qızıla" çevirmək

Bu hekayə tamamilə həyatı yaxşılığa dəyişəcək bir hekayədir. Onun həm vardövləti, həm də cəmiyyətdə yeri var idi, ilkin həyatı boyu addımladığı məqsədin üç addımlığında ayaq saxladığından hər şeyini itirir. Məğlubiyyətin ən çox

yayılmış səbəblərindən biri insanın müvəqqəti uğursuzluğa düçar olarkən irəlidəki axtarışlardan əl çəkməsidi. Heç birimiz bu səhvdən sığortalanmamışıq.

"Qızıl axtarışı" günlərində minlərlə başqaları kimi, R. U. Derbinin dostu tez bir zamanda varlanmaq həvəsinə düşür və o bu məqsədlə Qərbə qızıl axtarmağa gedir. Derbi əslində yerin altında o qədər də qızıl olmadığı fikrini yaxınına belə buraxmırdı.

O, əldə etdiyi sahəyə sərhəd çəkib, gecə-gündüz külüng vurmağa başlayır. O, istəyində qərarlıydı: qızıla olan şiddətli həvəsi onun inadkarlığını yemləyirdi. Beləcə, bir neçə həftəlik məşəqqətli əziyyətinin qarşılığında göz qamaşdıran külçələrlə mükafatlandırılır. Lakin onu yuxarı qaldırmaq üçün Derbiyə texnika lazımıydı.

O, sakitcə şaxtasını bağlayıb evə, Uilyəmsburqə, Merilend ştatına dönür və qohumlarını məsələdən xəbərdar edir.

Maşını ala bilmələri üçün birlikdə pul toplayırlar, sonra Derbi və dostu qızıl yataqlarına qayıdırlar. Beləcə, qızıl külçələri doldurulmuş ilk yük maşını qızılların yanına aparılır, süxurun analizi həyata keçirilir; Nəticə başgicəlləndirici olur: Sən demə, Koloradoda ən zəngin qızıl yatağını tapıbmış! Daha bir neçə bu cür yük maşını və yalnız zərərini ortadan qaldırmayacaq, həm də varlı bir insana çevriləcək! Çılğınlıqla gəzməyə başlayır. Lakin tezliklə qızılların yoxa çıxması eşidilir. Onlar lap sonunadək gəzirlər, amma bir daha qızıla rast gəlmirlər. Onlar yenə də gəzməkdə davam edirlər, ümidlərini heç cür üzmürlər, amma səyləri

uğursuzluqla nəticələnir. Nəhayət, şaxtadan əl çəkmək qərarına gəlirlər.

Dostu və Derbi texnikanı bir neçə yüz dollara köhnə maşınların alveriylə məşğul olan möhtəkirə satıb, Uilyəmsburqa bilet alırlar. Köhnə maşın alanların çoxu müştərilərin işləri ilə az maraqlanır.

Amma bu möhtəkir çoxluğa aid olmur. O, tanış geoloqa zəng edib bəzi hesablamalar aparmasını xahiş edir. Geoloq qızıl yatağını tədqiq edib, orada külçənin olması qənaətinə gəlir. Sən demə, DERBİ və dostu bitirdikləri yerdən 3 km dərinlikdə yeni yataqlar varmış!

Möhtəkir bu sövdələşmədən milyonlarla dollar qazanır, çünki fürsəti əldən verməzdən öncə mütəxəssislə məsləhətləşəcək qədər ağıllıydı. Bir incəliyə fikir verin: Bu qazancına görə o, demək olar ki, heç nə ödəməmişdi. Bütün kapital başqası tərəfindən qoyulmuşdu. Bəşladığı işə görə, qohum-qardaş və qonşularından pul götürərkən R. U. Derbi çox cavanıydı, borcunun sonuncu dollarını qaytararkən isə artıq ahıl yaşını ötmüşdür.

Hərçənd Derbi arzunun”qızıla çevrilə biləcəyini" kəşf etməklə itkisinin əvəzini çıxa bilir. Bu qənaətə o, heyətlərin sığortalanması işiylə məşğul olarkən gəlir. Derbi cavanlığının kədərli əhvalatından dərs ala bilir. Yəni o, sadəcə bu sözləri tez-tez təkrarlamaqla uğura nail olur:”Nə vaxtsa qızılın üç addımlığında hər şeyi tulladım, lakin indi sığortalarım alınır deyə, başladığım işi heç vaxt yarıda qoymaram".

Vaxtilə Derbinin biznesində yüzdən az adam iştirakçıydı, lakin bu adamlar zamanla milyon dollarlıq sığorta vəsiqəsi sata bildilər. Beləcə, Derbi ildən-ilə düşünür, varlanır. O,

sığorta biznesindəki uğuruna görə qızıl hasilatındakı uğursuzluğuna borcluydu.

Bu hekayətdən belə qənaətə gəlmək olar ki, hər hansı bir insan müəyyən uğurlardan əvvəl, uğursuzluq və peşmançılıq yaşaya bilər. Biz uğursuzluqla üzləşərkən ən məntiqi hərəkət hər şeyi tullamaqdır və çoxları da məhz bu cür hərəkət edir.

Dua böyük motivasiyadır

Yaradılış səbəbi ilə insan möhtac bir varlıqdır. İnsan hər nə qədərdə yaradılmışların üstünü olmasına baxmayaraq daim yaradana ehtiyacı var. Bu sanki bilirsiz nəyə oxşayır?! Biz adətən telefonlarımıza barmaq izi ilə kod qoyuruq. Bunu öz barmağımızdan başqa heç kim açа bilmir. Allah təala yaradılışı elə tənzimləyib ki, bütün yaratdıqları axır-əvvəl yaradana tərəf qayıdırlar. Dua insanın Allah ilə danışmasıdır. Bütün ehtiyac və istəklərini öz yaradanına təqdim etməkdir.

İnsan hansı fəzada, hansı nöqtədə olduğunu aydınlaşdırır. Dua təslimiyyətdir. Allah təala Qurani Kərimdə buyurur ki,”***Əgər duanız olmasaydı, Rəbbiniz yanında dəyəriniz olmazdı”.***

Dua etmək insanın özü üçün müəyyən etdiyi hədəfinə doğru yolçuluq üçün isinmə hərəkətinə başlamaqdır.

İnsanın özündə cəsarət tapıb, özünü etiraf etməsidir dua.

Mənə dua edin Mən də sizin duanızı qəbul edim. Mənə ibadət etməyi təkəbbürlərinə sığışdırmayanlar alçaldılmış halda cəhənnəmə daxil olacaqlar. (Mumin 60) .

Dua etməyi öz təkəbbürünə sığışdırmayanların cəzası budur.

Peyğəmbər (s. a. v) demişdir:”Kim Allahdan istəməzsə, Allahın ona qəzəbi tutar". Uca Allah Ondan istəməkdən əlavə bəndəsinin duasına sevinir. Dua edib yalvaranları daha çox sevir və onlara daha yaxın olur.

Peyğəmbərin (s. a. v) səhabələri bunu hiss edib, ən kiçik bir şeyi Allahdan istəməyə utanmazdılar. Onlar Allaha o qədər bağlanmışdılar ki, hətta başqa insanlardan da heç nə istəməzdilər. Bu, onların Allaha, Allahın da onlara olan yaxınlığının nəticəsi idi. Örnək isə uca Allahın bu ayəsidir: (Bəndələrim səndən Mənim barəmdə soruşsalar de ki, Mən yaxınam) (əl-Bəqərə: 186) . Duanın Allah yanında çox yüksək məqamı vardır. Dua Allahın ən çox dəyər verdiyi ibadətdir. Müsəlmanın duası məqbuldur. Təbii ki, səbəblərdən düzgün istifadə olunduqda və maneələr götürüldükdə dua məqbul olar. Peyğəmbərin dediyinə görə, dua edən insana bunlar verilər:”Bir müsəlman günah və qohumluq əlaqələrinin kəsilməsi olmayan bir dua edərsə, Allah bu duası ilə ona üç şeydən birini bəxş edər: Ya duası tez qəbul olunar, ya axirətə savab kimi saxlanılar, ya da duasının mislində bir pisliyi ondan uzaq edər.” Səhabələr dedilər:”Əgər belədirsə, biz daha çox dua edək?" Peyğəmbər (s. a. v) dedi:”Allah da sizə daha çoxunu verər!" (Əhməd və Tirmizi) .

Hər zaman, hər işində Allahın səninlə olmasını hiss etməlisən. Sən bunu özündə cəm edə bilsən bütün uğurların, müvəffəqiyyətlərin açarı sənin əlində olacaq.

Hedonizm prinsipi

Hedonizm – həzzin mütləq mənada yaxşı olduğunu, insan davranışlarının həzzi təmin edəcək şəkildə planlaşdırılması gərəkdiyini, davamlı olaraq zövqə yönəlik fəaliyyətə istiqamətlənmənin ən uyğun davranış olduğunu əks etdirir.

Bu təlim, Kirene məktəbinin, yəni Sokratın tələbəsi Aristippos'un (E. ə. 435-355) təlimidir.

Hedonizm anlayışında insanların müəyyən nəticələri artırmağa (mükafatlar, təqdir olunma və s.) bəzi nəticələri isə (cəzalar, bəyənilməmə, qəbul edilməmə və s.) bacardıqları qədər azaltmağa meyilli davranış nümayiş etdirdikləri əks olunub.

Həzzin həqiqi anlamda yaxşı olduğunu, insan öz hərəkətlərini ona həzz verəcək bir şəkildə planlaşdırması gərəkdiyini, həmişə həzz verənə yönəlmənin ən uyğun davranış şəkli olduğunu müdafiə edən fəlsəfi cərəyandır. Düşüncə tərzi belədir: Həzzçilikdə həyatın duyğusal həzzlərini maksimum artırmağa çalışılır. Ən yaxşı şey həzz, en pis isə ağrı-acıdır deyə düşünülür. Hər insan həyatın acılarından qaçaraq həyatın yolunu axtarmalıdır. Burada həzz deyilərkən, insanı xoşbəxt edən bir şeyi etmək başa düşülür. Məsələn, sevdiyi bir yeməyi yemək. Amma həzzin ölçüsü də müəyyən oluna bilər. Məsələn; sevdiyin bir yeməyi almayıb o pulu yığaraq onunla bir ev və ya maşın, yaxud da sevdiyin, sənə həzz verən başqa bir tələbatını ödəyirsən.

Həzzin həmişə əks təsirləri də vardır. Məsələn, sevdiyin bir şirniyyatı çox yesən bunun ziyanını da çəkə bilərsən. Buna hedonizm və ya həzzçilik deyilir.

Ümumiyyətlə demək olar ki, bütün motivasiya nəzəriyyələri insanların davranışlarını zövqlü hesab etdiyi nəticələrə yönəltdiyini və xoş olmayanlardan uzaq tutduğunu əsas götürür. Motivasiyanın təməlində də məhz bu durur: insanları fəaliyyətə təhrik etmək üçün onların sevdiyi, həzz aldığı istiqamətə yönəldirlər.

Həzz duyğusunu yaşamaq istəyi və buna uyğun olaraq ağrı duyğusundan qaçmaq insanları motivə edir.

Biz qeyd etdiyimiz kimi, insan zövq alacağı işlərlə məşğul olduqda həm vaxt cəhətdən həm də mənəvi cəhətdən qazancları çox olur. Daim insan içindəki istiqaməti hiss etməlidir. Bizim tək problemimiz daxilimizdən xəbərimizin olmamısıdır. İnsan öz daxilinin həm həkimi, həm müəllimi olmağı bacarmalıdır.

Həkim olduğu təqdirdə bir çox xəstəliklərin vaxtında çarəsini tapmaq, müəllim olduqda isə, özümüzə düzgün, tam doğru istiqamət seçməyi anlayacağıq.

V. Q. Leontyev motivasiya nəzəriyyəsi

V. Q. Leontyev motivasiyanın iki tipini ayırırdı: ilkin motivasiya- tələbat, meyl, instinkt formasındadır. Bu onun fikrincə motivasiyanın ilkini təşkil edir.

İkinci motivasiya isə motiv formasında təzahür edir.

Əksər hallarda psixoloqlar motivasiya dəyəndə davranışın determinasiyasını nəzərdə tuturlar və bu səbəbdən xarici və daxili motivasiyadan danışırlar.

Bəs motiv nədir?

«Motiv» anlayışı da «motivasiya» anlayışı kimi fərqli şərhlərə məruz qalır. Motiv (latınca movere- hərəkətə gətirmək, itələmək dəməkdir) dedikdə tələbatların təmin olunması ilə əlaqədar olaraq insanı fəaliyyətə təhrik edən amillər nəzərdə tutulur. Motiv insanı fəaliyyətə təhrik edir və onun fəaliyyətinin istiqamətini müəyyənləşdirir. Bu iki cəhət bir-birilə vəhdət təşkil edir və motivin əsas funksiyaları kimi meydana çıxır.

Motivlər hər bir fəaliyyət sahəsində özünəməxsus xüsusiyyətlərlə təzahür edirlər. Bu cəhəti nəzərə alsaq, biz onları fəaliyyətin növlərinə görə: oyun, təlim və əmək motivləri kimi xarakterizə edə bilərik.

Motivasiyanın"Düşməni"- Frustrasiya

Frustrasiya – (lat. frustratio — "yalan","uğursuzluq","əsasız gözləmə","fikirlərin qarışması") — insanın öz həyatı məqsədlərinə çatmasına maneçilik törədən real və xəyali maneələrlə üzləşdiyi zaman düşdüyü psixi vəziyyətdir.

İnsan həyatda istədiyinə nail olmadıqda, istədiyi mövqeyə çatmadıqda onda narazılıq hissləri yaranır, lakin bu zaman şüur və fəaliyyət sabit, dəyişməz qalır, pozulmur. Lakin insan elə məqamlarla, elə maneələrlə qarşılaşır ki, bütün bunlar onun arzularını, xəyallarını və istəklərini ürəyində qoyur. Bu zaman yaranmış mənfi emosional psixoloji vəziyyət insanın şüur və fəaliyyətini pozur. İnsanın narazılıq və təmin olunmamaq səviyyəsi onun dözüm səviyyəsindən yüksək olur. İnsan həyatda mənfi qiymətləndirilərkən, onun

müqəddəs hesab etdiyi hisslərinə, duyğularına təcavüz olunması, ona qarşı edilən haqsızlıq onda frustrasiya halını gücləndirə bilər. Bunun nəticəsində insanda qəzəb, nifrət, küskünlük, özünü itirmək kimi vəziyyətlər yaranır.

İnsanda dərin psixi sarsıntılar törəyir, xarakterində dəyişikliklər yaranır. İnsanın davranışında özünə inamsızlıq, ruh düşkünlüyü müşahidə olunur, ciddi nevrozlar baş verir.

Allah Qurani Kərimdə buyurur ki,"***Ümüdünüzü Allahdan üzməyin".*** Bəzən sual verirlər ki, mən çoxlu günah etmişəm, x eyli günah sahibiyəm, Allah məni bağışlayarmı?

Allah insanlar üçün tövbə qapısını qiyamətədək açıq qoymuşdur. İnsan öz nəfsinin aslılığından üz döndərdikdə, Rəbbinin necə mərhəmət sahibi olduğu görür.

Məhz bəhs etdiyimiz, xəyal qırıqlığı həyatımızda, başladığımız bütün ilk işlərdə baş verən psixoloji hadisədir. Biz bu hisslərə təslim olmamalıyıq, daim irəliləməliyik. Çünki ilk cəhdən uğur qazanmaq çətindir, amma əgər davam etsək, bir çox nailiyyətlər qazana bilərik.

Motivasiya edici Kitablar

1) Jon Acuff"Start"

Kitab olduqca maraqsız həyatınıza rəng qatmağa kömək edəcək. Hamı kimi olmaq çox asandır. Qeyri-ordinallığı ilə seçilmək isə hörmətə layiq bir bacarıqdır.

Yaşınızdan və sosial statusunuzdan asılı olmayaraq hər şey bir nöqtəyə söykənir, başlanğıcın zəruriliyinə. Kitabı oxuduqdan sonra siz həqiqətən yeni həyata başlamağa, özünü

dəyişdirməyə özünüzdə güc və motivasiya tapacaqsınız. Yeni ildə yeni həyata başlamaq isə bir çoxlarının istəyidir!

2) M. J. Ryan"This year I will…"

Kitab vərdişləri dəyişməyə, verilən vədlərə əməl etməyə və öz məqsədlərini təxirə salmamağı öyrədir. Hər kəsin bildiyi kimi adətən şəxslər belə vədləri yeni il öncəsi verirlər və sonra unudurlar. Kitabda müəllif özünün psixologiya, neyrofiziologiya və fəlsəfə sahəsində biliklərini və təcrübəsini toplayaraq onları oxuculara məsləhət şəklində təqdim edir.

3) Brian Tracy" Eat that Frog!"

Kitabda vaxtdan düzgün istifadə edərək çətin məsələ və situasiyalardan çıxış yolları haqqında bəhs olunub. Kitabda təqdim olunan praktiki 21 məsləhət ən azı kitabın müəlifi qədər uğurlu olmağa istiqamətləndirəcək. Brayan Treysi – məktəbi ataraq öz yollarını quran milyonerdir. Kitabda Brayan Treysi öz uğur yolu və şəxsi effektivliyin təsvir edib. Kitab qırx dildə tərcümə olunaraq dünya üzəri 1 200 000 tirajda satılmışdır.

4) Дмитрий Чернышев «Как люди думают»

Kitab düşüncənin mahiyyətini əks etdirir. Düşüncə əksər hallarda insandan asılı olmadan, avtomatik baş verir. Lakin, insanlar anlamırlar ki, düçüncə bir incəsənət aktıdır. Kitab ayrı-ayrı hadisə və mövcudluqlara təmiz baxışla yanaşmağa öyrədir.

5) Josh Kaufman"The Personal MBA"

Kitab özünü təhsil və özünə inam üzərində yazılıb. Kitabın mahiyyəti ondan bəhs edir ki, biznes məktəblərinə pul ayırmaq o qədər də vacib deyil. Beləki, informasiya əsrində özünü təhsil daha effektiv və daha ucuz üsuldur. Coş Kofman oxuculara işgüzar düşüncəni aşıladır və buna görə kitab bir çox parametrlərə görə MBA təhsili ilə müqayisə oluna bilər.

6) Nüvit Osmay –"İnsan Mühəndisliyi"

İnsan mühəndisliyi, Türkiyənin bir şəxsi inkişaf və idarəetmə təlimatları klassikidir. Zəngin məzmunlu, Türkiyədə ən çox satılan əsərlərindən biridir. Kitabın xüsusiyyətlərindən biri, müasir idarəetmə, təhsil və şəxsi inkişaf təlimləri və təcrübələrini Türkiyəyə gətirmək üçün ilk işlərdən biridir.

7) David Burns - Yaxşı hiss etmək.

Yaxşı hissləri olan psixiatr David Burns, həyatınızı stimullaşdıran və həyatda daha müsbət görünən bir çox elmi test üsulu təklif edir.

İnsanı depresiyadan, pessimistlikdən uzaqlaşdıracaq gözəl vaistədir.

8) Wilhelm Reich –"Dinlə kiçik adam"

Həqiqət böyük adamdan tək bir fərqin var: Böyük adam da bir vaxtlar kiçik adam idi, amma yalnız bir xüsusiyyətini inkişaf etdirdi; Harada kiçik və məhdud düşünməsi və davranması vacibliyini bilirdi. Hər hansı bir vəzifənin təzyiqi altında, zamanla uşaqlığının və mənasızlığının necə xoşbəxtliyi təhdid etdiyini hiss etməyi öyrəndi.

Demək ki böyük adam, harada və nə zaman kiçik adam olacağını bilir. Kiçik adam isə kiçik olduğunun fərqində deyil və bunun fərqinə varmaqdan da qorxar.

9) İmtina / Rejection Proof

Mövzü: 100 gün rədd edildikdən sonra mən necə qorxularıma qalib gəldim və məğlubedilməz oldum. Müəllif: Jia Jiang

10) Nailiyyət Alışqanlığı / The Achievement Habit Mövzu: Arzulamağı burax, nəsə etməyə başla və həyatının kapitanı ol. Müəllif: Bernard Roth

11) Biznes Romantiki / The Business Romantic

Mövzü: Hər şeyi ver, heç nəyi ölçmə və özündən daha böyük bir şey yarat.
Müəllif: Tim Leberecht

12) Böyük Sehr / Big Magic

Mövzu: Qorxulardan uzaqda həyat qur. Müəllif: Elizabeth Gilbert.

13) Güclü Yüksəliş / Rising Strong

Mövzu: Hesablaşma. Gurultu. İnqilab. Müəllif: Bren Brown

14) Xaos Sakitləşdirici / Calming the Chaos Mövzu: Zamandan daha çox enerjinizi idarə etmək üçün bələdçiniz. Müəllif: Jackie Woodside

15) Tam Enerjilisən? / Are You Fully Charged

Mövzu: Həyatına və İşinə enerji qatmağın 3 yolu. Müəllif: Tom Rath

Motivasiya nəzəriyyələri

Bütün motivasiya nəzəriyyələrinin ortaq səciyyəvi xüsüsiyyəti insan ehtiyaclarıdır. İnsanlar nəyə görə belə edirlər və yaxud belə davranırlar bütün bunlr öyrənilir.

Nəzəriyyələr əsasən biri –birindən qaynaqlanır. Əgər insanlar ehtiyacları varsa və yaxud yoxdursa və yaxud onları idarə edə bilmirsə, mütlədir ki, özündə motivasiya yaratmalıdır.

1. Maslounun ehtiyaclar İyerarxiyası (Piramidası) :

Maslounun (Maslow) Ehtiyaclar İyerarxiyası/Piramidası, Maslou bu haqqında ilk dəfə 1943-cü ildə çap olunmuş A Theory of Human Motivation məqaləsində məlumat verir. 1954-cü ildə isə Motivation and Personality adlı kitabında detallı şəkildə bu mövzudan bəhs edir. Ehtiyaclar İyerarxiyası digər motivasiya nəzəriyyələrinin də bəziləri üçün təməl olduğu və müasir dövrdə də öz təsirini saxladığı üçün önəmlidir.

Piramida ilk varinatda 5 pilləli olub və bəsitdən mürəkkəbə doğru bu şəkildə açıqlanır:

Fizioloji (physiological) ehtiyaclar: Hava, su, qida, istilik, sığınacaq, yuxu, və s.

Təhlükəsizlik (security) ehtiyacları: Təhlükəsizlik, sağ qalma, sağlamlıq, iş, sığınacaq, haqq və hüquqlar və s.

Aid olma, sevgi (belonging, love/social) ehtiyacı: Dostluq, ailə, ünsiyyət, aid olma, sevgi, yaxınlıq, və s.

Hörmət (esteem) ehtiyacı: Özünə hörmət, özünə inam, hörmət edilmək, uğur qazanmaq, tanınmaq, status sahibi olmaq, və s.

Özünü reallaşdırma (self-actualization) ehtiyacı: Şəxsi inkişaf, şəxsi potensialını reallaşdırma, istedadının fərqinə varma və onu istifadə etmə, yaradıcılıq, həqiqətləri qəbul etmə, qərəzsiz olma və s.

Ehtiyaclar Piramidasına görə bir insan bu 5 pillənin hansına aid ehtiyaclarla bağlı daha güclü təzyiq hiss edir və bu kateqoriyadakı ehtiyacları qarşılamağa çalışırsa, onun şəxsiyyəti də o kateqoriyaya aiddir. İnsan alt pillədəki ehtiyaclar qarşılanmadığı təqdirdə bir üst mərtəbəyə qalxa bilmir. Yəni, ac, susuz olan insandan müsiqi tarixi və ya hər hansı bir roman oxuyaraq zaman keçirməyə ehtiyac duymasını gözləmək məntiqli deyil. Bir binanın mərtəbələri kimi, əvvəl birinci, sonra ikinci və digər mərtəbələr sıra ilə qət edilir.

2. Frederick Herzberg – Cüt faktor teoremi. (Motivasiya gigiyenası)

1923 –cü ildə Amerikada anadan olmuş, əsl sənəti biznesin idarə edilməsi üzrə mütəxəssis olmuşdur. Sonralar isə"Motivasiya gigiyenası"nın tətbiq nəzəriyyəsi ilə məhşur olmuşdur.

Onun 1968-ci il nəşrində”Daha bir dəfə, necə işçilərinizi motivasiya edirsiniz?" 1987-ci ilə qədər 1, 2 milyon nüsxəsini satmışdı və Harvard Business Review-dən ən çox tələb olunan məqalə məhz bu idi.

Herzberqin uğur qazanmasının tək səbəbi məhz, bütün problemlərə rəğmən öz üzərində işləməsi idi. Onun cüt faktor teorisi:

1. Giriş:

İdarəetmə nəzəriyyələri; hər insan davranışının müəyyən bir məqsədi olduğu və bu məqsədə doğru yönəlməsi lazım olduğu düşüncəsindən hərəkət edərək, bu məqsədlərin nələr olduğunu ortaya qoymuşlar. Bu qaydaların heç birində insanın əldə etmək istəyəcəyi məqsədlər yaxşı ya da pis deyə ayrılmamakla birlikdə, hamısının təməlində yatan görüş, insanoğlunun daha yaxşı, daha yaradıcı, daha yetkin, daha sağlam məqsədlərə doğru yönəlməsini təmin etməkdir. Bu nəzəriyyələr insan davranışının insanları daha da yetkin və daha sağlam hala gətirmək üçün rəhbərlik etdiyi vacibdir.

İdarəetmə nəzəriyyəsinin bir hissəsi motivasiya nəzəriyyələridir. Motivasiya nəzəriyyələri iki kateqoriyaya bölünür: Sahə və proses nəzəriyyələri. Təqdimatlar çərçivəsində ehtiyaclar ilkindir və motivasiya edən amilləri izah etməyə çalışırlar. Proses nəzəriyyələrində; nəticələr və bu nəticələrin qəbul edildiyi yol vacibdir.

2. Motivasiya

Motivasiya məna və mahiyyəti :

Motivasiya konsepsiyasının mahiyyəti motivasiyadır. Motivasiya davranış baxımından çox əhəmiyyətli bir prosesdir. Görünməz bir hipotetik fenomen.

Motivasiya Latın”MoVe" dən alınır.”Movere" hərəkət deməkdir. Buna əsaslanaraq, motivi”davranışı məqsədə doğru hərəkətə keçirən, yönəldən bir daxili vəziyyət" olaraq təyin edə bilərik.

Motiv”bir və ya daha çox insanı davamlı bir şəkildə hərəkət etmək üçün edilən səylərin bir hissəsidir. Müəssisədə olan insanlar işlərini effektiv və səmərəli şəkildə həyata keçirmək üçün motivasiya edilməlidirlər.

Ruhi insanın müəyyən davranışlarının səbəblərini izah edən və davranışa səbəb olan motivator və ya motivatordur. Bir insana ehtiyac duyulduğunda xəbərdarlıq edildikdə, o, müəyyən bir davranışa qovuşacaq. Bu davranış bu ehtiyacı qarşılamaq məqsədi və ya arzusu istiqamətində olacaqdır. Məsələn, aclıqda olan bir kəsə yem lazımdır. Bu, ehtiyac üçün ərzaq tapmaq hərəkətinə gətirib çıxaracaq. Pulu varsa, o, bir restorana gedəcək. Amma cəmiyyətdə pul qazanmaq üçün işləmək üçün bir çıxış yolu axtaracaq. Bu nümunə əsasən azaldılmış yanaşmadır, lakin motivasiya həqiqətən daha mürəkkəb bir prosesdir. Şəxsin xüsusi bir davranışı bir-birindən çox fərqli ehtiyacları ayırmağa yönəldilə bilər.

Bir-birinə bənzər bir sıra hərəkət və davranışlar dəyişik motivlər ortaya çıxdıqları kimi, bəzi dəyişik hərəkət və davranışlar üçün səbəb yalnız bir tək motivlər dayanır. Onlar bir-birini tamamlayaraq və ya onların gücünü azaldır və insan davranışına təsir edərək bir-birinə təsir edirlər.

3. David McClelland –Uğurlu motivasiya nəzəriyyəsi.

McClelland – 1920 –ci il mayın 17 sində Amerikada doğulmuşdur. Amerikan psixoloqu"Ehtiyaclar teorimi" ilə məhşurdur.

1950-1990-cı illər arasında Tematik Apperception Test (TAT) , yeni bir balsistemi ilə fəaliyyət göstərirdi.

Ümumi Psixologiya nəzəriyyəsi ilə 2002-ci il sorğusuna əsasən, XX əsrin 15-ci ən nüfuzlu psixoloqo idi.

. Müvəffəqiyyət Tələbi: Murray (1955) müvəffəqiyyət ehtiyacını (nach) ,"çətinliklərin öhdəsindən gəlmə, gücü istifadə etmə, çətin olan şeyləri mümkün olduğunca sürətli və yaxşı bir şəkildə etmək səyi" na duyulan bir arzu ya da meyl olaraq təyin etmişdir. Digər tərəfdən McClelland (1976)"Yaxşı iş görməyə və ya mükəmməllik standartı ilə rəqabət etməyə qərar verin". Bu yanaşmaya görə, müvəffəqiyyət motivi, çətin bir işin boynuna götürülməsi, qeyri müəyyənliklə üzləşmə, şəxsin icraatının nəticəsi üçün şəxsi məsuliyyət kimi davranışlara əsaslanır.

Araşdırmalar göstərir ki, müvəffəqiyyətin yüksək olması ehtimal olunan şəxslər müəyyən şəkildə hərəkət edirlər. Buna görə, bu şəxslərdə aşağıdakı xüsusiyyətlər görüləcəkdir (McCelland, 1961, 1965) :

Yüksək uğurlu tələblər olan şəxslər böyük və ya kiçik riskləri nəzərə almadan hesablanmış riskləri nəzərə alaraq onların uğurlarını göstərməyin zəruriliyini hiss edirlər.

Bu şəxslərin çox uğurlu motivasiyaları olur, bunlar müvəffəqiyyətdən böyük həzz alırlar.

Bu şəxslər zehnlərini öz hədəf və məqsədlərinə yönəldirlər.

4. Clayton Alderfer - Varlıqla əlaqəli böyümə nəzəriyyəsi.

1940 –cı il Amerikada anadan olan Alderfer, Masloun"Ehtiyaclar nəzəriyyəsi" teorimini daha da inkişaf etdirməklə dünya gündəmində qalmışdır.

Alderfer 1962-ci ildə Yale Universitetində psixologiya kafedrasında psixologiya üzrə doktorluq dissertasiyasını almış, 1977-ci ildə Amerika Professional Psixologiya Şurasının (ABPP) sertifikatını almışdır.

Clayton Alderfer 1972, Maslow'un tələblərin hiyerarşisini fərqli bir şəkildə ifadə edir. Maslow'un modeli iş həyatına xüsusi hazırlanmadı, lakin Alderferin nəzəriyyəsində təşkilatların insan ehtiyaclarına uyğunlaşmağa çalışdırdı. (Onun nəzəriyyəsində onun ehtiyacları mövcudluq, əlaqəli qurma və inkişaf tələbləri kimi üç qrupda araşdırılıb.

İmam Cəfər Sadiq (ə) 25"Qızıl kəlam"

İmam Cəfər Sadiq əleyhissalam buyurur:

1- Cənnəti qazanmağın yolunu axtardım, onu səxavətli olmaqda tapdım.

2- Sağlamlıq və salamatlığın yolunu axtardım, onu guşənişin olmaqda tapdım.

3- Əməl tərəzisində yaxşı əməllərimin ağır olmasının yolunu axtardım, onu"la ilahə illallah, Muhəmmədun rəsulullah" zikrində tapdım.

4- Cənnətə sürətlə və tez girməyin yolunu axtardım, onu bütün işləri Allaha xatir etməkdə tapdım.

5- Ölümü sevməyin yolunu axtardım, onu mal-dövlətdən Allahın razılığını qazanmağa xatir ehtiyaclı olanlara bəxşiş etməkdə tapdım.

6- İbadətin şirinliyinin yolunu axtardım, onu günah etməməkdə tapdım.

7- Qəlbin incəliyinin yolunu axtardım, onu aclıq və susuzluqda (oruc tutmaq, ya az yeməkdə) tapdım.

8- Qəlbin nurlu olmasının yolunu axtardım, onu düşünmək və ağlamaqda tapdım.

9- Sirat körpüsünü asan keçməyin yolunu axtardım, onu sədəqə verməkdə tapdım.

10- Üzümün nurlu olmasının yolunu axtardım, onu gecə namazı qılmaqda tapdım.

11- Cahad və çalışmağın üstününü axtardım, onu ailəm üçün ruzi qazanmaqda tapdım.

12- Allahın məni sevməsinin yolunu axtardım, onu günahkarlarla düşmən olmaqda tapdım.

13- Böyüklük və başçılığın yolunu axtardım, onu insanların xeyirini istəməkdə və onları nəsihət etməkdə tapdım.

14- Qəlbimin rahatlığının yolunu axtardım, onu az sərvətə malik olmaqda tapdım.

15- İşlərin ən üstününün yolunu axtardım, onu səbr etməkdə tapdım.

16- Şərafətli və hörmətli olmağın yolunu axtardım, onu elm öyrənməkdə tapdım.

17- Həqiqi ibadəti axtardım, onu pərhizkarlıqda və şübhəli şeylərdən uzaq olmaqda tapdım.

18- Rahatlıq və asayişin yolunu axtardım, onu dünyaya bağlı olmamaqda tapdım.

19- Ucalıq və alicənablığın yolunu axtardım, onu təvazökar olmaqda tapdım.

20- Əziz və hörmətli olmağın yolunu axtardım, onu doğruçuluqda və düzgünlükdə tapdım.

21- Sadəlik və yumşaqlığın yolunu axtardım, onu oruc tutmaqda tapdım.

22- Ehtiyacsızlığın yolunu axtardım, onu qənaətcil olmaqda tapdım.

23- Özümə həmdəm və sirdaş axtardım, onu Quran oxumaqda tapdım.

24- İnsanların dostu olmağın yolunu axtardım, onu gözəl əxlaqlı olmaqda tapdım.

25- Allahın razılığını axtardım, onu ata-anaya yaxşılıq etməkdə tapdım.

Məsumların həyatından motivasiya axtarışı

Bütün bəşəriyyətə örnək Həzrəti Muhəmməd və onun pak Əhli beytidir. Allahın salamı olsun Peyğəmbərimizə və onun ailəsinə !

Hər bir şəxs üçün Allah təala tərəfindən bu insanlar ideal insanlar seçilib. Hər şəxs bu insanlardan öyrənməli və öyrəndiklərini həyatına tətbiq etməlidir.

Biz Məsumların həyatı boyu necə əzab -əziyyət çəkdilərini tarixdən öyrənmişik. Bu əzablara rəğmən İslam dünyasına ən çox uğur gətirən insanlar məhz bunlardır. Belə bir sual ortaya çıxır ki, necə olur bu qədər problemin içində, bu insanlar çox böyük nailiyyət və uğurlar qazana biliblər.

1. Həzrəti Fatimə (s. ə) . Peyğəmbərimizin qızı Hz Əlinin həyat yoldaşı. Bəşəriyyətin ən üstün xanımı, cənnət xanımlarıın seyyidəsi, cənnətə gedəcək ilk xanımdır. Qazandıqlarını gördünüzmü?!

İlk baxışdan bütün bunları oxuyan şəxs, elə bilər ki, Hz Fatimə çox gözəl,

”Konfortlu” həyat yaşayıb. Amma, tarix bu cür böyük şəxsiyyətə qarşı da amansız olub. Elə sağ ikən oğlu İmam Hüseynin (ə) Kərbəla müsibəti haqqında ona məlumat verilmişdi. Həzrət Əlinin məlum hadisələrdə yanında oldu.

Min cür əziyyətlərə qatlaşmağa hazır idi. Özünün də zalımlar tərəfindən çəkdiyi zülmlər onu, atasının vəfatından sonra cəmi 72, bəzi rəvayətlərdə 92 gün yaşatdı. Əvvəldə qeyd etdiyimiz o böyük məqamları Həzrət Fatimə məhz duaları vaistəsiylə qazanmışdı. Dua əbəs yerə deyilməyib ki, möminin silahıdır. Allaha o qədər bağlı idi ki, gecəsini gündüzünü duaya həsr edirdi. Hətta Hz Əli (ə) buyurur ki, Mən Xanım Fatimə qədər yer üzərində ibadət edən ikinci bir şəxs tanımıram. Hz Fatiməni, Fatimə(s. ə) edən məhz onun duaları idi.

2. Hz Əli –Bu şəxsiyyət haqqında sonsuz sayda kitablar yazıb, saatlarla, günlərlə danışmaq olar. Hz Əli –Allah evində dünyaya gəlib, Allah evindən dünyadan gedən yeganə şəxsiyyət olub.

Məgər Həzrət Əli (Ə) –problemsiz həyat yaşayıb?! Əlbəttə yox, Həzrət Əli (ə) qədər əziyyət çəkən, məzlum qalan şəxs olmayıb.

Əlinin (ə) –nin həyatından motivasiya amillərini sizin nəzrinizə çatdırmaq istəyirəm.

1. Əli (ə) çox zəhmətkeş insan idi. Əlinin işləməkdən əllərində çoxlu qəbərlər var idi. Gündüzləri islam fəaliyyətini məsciddə təbliğ edirdi. Gecələr fəhlə paltarı ilə fəhləlik edirdi. Hətta elə geyinərdi (köhnəlmiş libas) , onu görənlər tanıya bilmirdi.

Məhz Əli (ə) öz zəhməti sayəsində çox nailiyyətlər əldə etdi.

2. Əli(ə) çox mərd bir kişi idi. Hətta onun düşmənləri belə onun haqqında heç vaxt nəlayiq ifadələr işlətməmişdir. Döyüşlərdə ən, önə gedən bir insan idi. Mərdlik insanı irəli

aparan ən böyük xüsüsiyyətdir. Əli(ə) bu mərdliyi sayəsində Allah təala tərəfindən"Seyfullah","Şiri Xuda" kimi böyük ləqəblər almışdır. Peyğəmbər onun haqqında buyurmuşdur :

Əlidən üstün igid, Zülfuqardan iti qılınc yoxdur.

3. Əli (ə) çox səxavətli bir insan idi. Onun qapsına gələn heç bir insan əliboş qaytarmazdı. Əlinin son tikəsi belə qonşularında olardı. Allah onu bu cəhətinə görə insanlar içində mənəvi cəhətdən ən zəngin insan etdi.

4. Əli (ə) bütün insanlara örnək I Pisliklәri yaxşılıqlarla dəf etməklə bütün insanlara örnək idi.

Bütün dinlərin ortaq xüsüsiyyətlərindən biri pisliklərə yaxşılıqlarla cavab verməkdir.

Səbr etdiklərinə görə onlara iki dəfə mükafat veriləcəkdir. Onlar pisliyi yaxşılıqla dəf edər və özlərinə verdiyimiz ruzidən (ehtiyacı olanlara) sərf edərlər.
(Qəsəs 54)

Pisliyə pisliklə, söyüşə də söyüşlə cavab verməyin, əksinə xeyir-dua edin. Çünki bunun üçün çağırılmısınız ki, xeyir-duaları irs olaraq alasınız. (1 Peter, 3: 9)

Sözüm sizədir, ey Məni dinləyənlər: düşmənlərinizi sevin, sizə nifrət edənlərə yaxşılıq edin. Sizi lənətləyənlərə xeyir-dua verin və sizi incidənlər üçün dua edin. Bir üzünə vurana o birini də çevir və üst paltarını aparandan köynəyini də əsirgəmə. (Luka, 6: 27-29)

Düşmənin acdırsa, onu yedizdir, susuzdursa, ona su ver. Belə etməklə sanki başına köz tökərsən, bunun əvəzini Rəbbdən alarsan. (Süleymanın məsəlləri, 25: 21-22)

Heç kəsdən qisas alma, heç kimə kin saxlama. . . Qonşunu özün kimi sev. . . (Levililər, 19: 18)

Xeyirxahlıq və sədaqət hər təqsirə kəffarə olar, insan Rəbb qorxusuna görə pislikdən dönər. (Süleymanın məsəlləri, 16: 6) (Müqəddəs Tövrat kitabı)

İmam Həsən (ə) :

İmam Həsən bütün bəşəriyyətə səbr etməklə çox böyük örnək oldu. Bəzən biz qərar verərkən, hisslərimizin qurbanı oluruq. Həsən (ə) səbr etdi və düşmənlə sülh bağladı. Halbuki o müqavilədən, heç bir qazancı yox idi. Əksinə itirəcəkləri var idi.

Amma o hissləri ilə deyil, İslam mənfəətlərinə görə səbr etdi. İnsan gərək bu cür səbrli olsun. Elə məqamda səbr etsin ki, səbr müqabilində itirdiklərini, sonrada iki qat qaytarmaq gücü olsun.

İmam Hüseyn –Seyyidəl şühəda :

İmam Hüseyn (ə) bütün bəşəriyyətin ən üstün qəhrəmanı olmuşdur. İmam şücaət məktəbi yaratmışdır. Öz qəhrəmanlığı ilə daim qəlblərə həkk olunmuşdur.

İmam heç bir şeyi olmadan, Yezidin onlarla insandan ibarət qoşunun qarşısına çıxdı. Haqqın müdafiəsi, haqq uğrunda ölüm əbədi yaşamaqdır dedi Mövla

(ə) . O, öz əməli və əqli ilə sübut etdiki, insan özünə inanarsa, hər bir şeyə qadir ola bilər.

İmam Baqir (ə) :

O həzrətin ədəb və tərbiyyəsi haqqında belə yazıblar:

«Heç vaxt ucadan gülməz, həmişə ahəstə və ədəbli danışardı». İmam Məhəmməd Baqir əleyhissalam heç vaxt əsəbləşməzdi, həmişə rastlaşdığı adama hörmət göstərib onunla mehribanlıqla görüşərdi. Özü isə bu haqda belə buyurur:

«Bu iş ürəkləri bir-birinə yaxınlaşdırıb, düşmənçilikləri aradan qaldırar» İmam sübut etdiki, insan öz elmi ilə bir çox nailiyyətlər qazana bilərÖz dövrünün ən elmli şəxsi olan Məhəmməd, elmdə çox qüvvətli olduğu üçün ona"Baqir" – elmləri yaran deyilirdi.

İmam Baqir (ə) –dan sonra gələn bütün imamlar sadaladığımız bütün bu ortaq səciyyəvi xüsüsiyyətlərə malik olmuşlar. Həyatı bütün əziyyət içində keçməsinə baxmayaraq, daim həyatda səadət axtarışında olmuşlar. Bütün insanlar üçün motivasiya mənbəyi olmuşlar. İnsanlar onlara baxdıqda həyatda yaşamaq, çalışmaq, iş qurmaq həvəsləri və özünə inam hissi xeyli artmışdı.

Deyl Karnegi"10" məsləhət

1. Heç vaxt düşmənlərinizlə hesablaşmağa (qisas almağa) cəhd göstərməyin, bu onlardan daha çox sizə ziyan gətirəcək.
2. General Eyzenhaur kimi hərəkət edin: xoşunuz gəlməyən insanlar haqqında heç bircə dəqiqə belə düşünməyin.
3. Əgər siz xoşbəxtlik tapmaq istəyirsinizsə, onda minnətdarlıq və ya nankorluq haqqında düşünməyin, özünüzü fədakarlıqdan irəli gələn daxili sevinc hissinə həsr edin.
4. Tənqid, şikayət və heç kəsi mühakimə etməyin.

5. Yadda saxlayın ki, sizin həmsöhbətiniz tamamı ilə haqsız ola bilər. Amma o, belə fikirləşmir. Ona görə də, onu mühakimə etməyin.

6. Əgər insan öz məqsədləri naminə səndən istifadə etməyə çalışırsa, onu öz tanışların siyahısından çıxar.

7. Əgər tale qarşına limon çıxarıbsa, ondan limonad hazırla.

8. Özünüzü digər insanın yerinə qoyub, sizə yox, məhz ona nə lazım olduğunu dərk etməyə çalışın. Əgər bunu edə bilsəniz, bütün dünya sizin tərəfinizdə olacaq.

9. Daima özünüzü məşğul edin, bu yer üzündəki ən ucuz və ən effektiv dərmanlardan biridir.

10. Özünü sanki artıq xoşbəxtsənmiş kimi apar və doğrudan da xoşbəxt olacaqsan. Heç kəsi təqlid etmə, heç kəsə bənzəməyə çalışma. Özünü tap və özün olaraq qal.

“Xoşbəxtliyin təqibində” filmindən (The Pursuit of Happyness) motivasiya haqqında ən yaxşı sitatlar

Bu film iş adamı və filantrop Kris Hardnerin xatirələrinə əsaslanan bioqrafik bir filmdir.

– İşdən əvvəl müsahibəyə gedəcəm. Broker olaraq işləmək istəyirəm.

– Hə? Bəs niyə kosmonavt olaraq yox?

Heç kəsə sənin nəyisə edə bilməyəcəyinə inandırmaqlarına icazə vermə. Hetta mənə belə! Bilirsiniz, mən belə insanam. Əgər siz mənə bir sual versəniz, və mən bu sualın cavabını bilməsəm, bunu açıq- aydın etiraf edəcəm. Lakin nə olursa olsun, sualın cavabın tapıb siə deyəcəm.

Ata, istəyirsən sənə gülməli bir hadisə danışım? Qoca bir kişi fırtına zamanı balıq tuturdu. Onun yanına bir gəmi üzüb gəlir və gəminin kapitanı belə deyir:" Sənə kömək edim?" Qoca kişi cavab verir:"Mənə Allah kömək edəcək". Qoca kişi dənizdə boğulur və Allahın hüzuruna gələrək deyir:" Sən mənə niyə kömək etmədin?" Allah isə cavab verir:"Mən səni xilas etmək üçün gəmi göndərmişdim".

Prinsip çox sadədir: bir şirkətə nə qədər zəng olarsa, şirkət o qədər də müştəri qazanar. Müştərilərin sayı isə şirkətin gələn dollarların sayına bərabərdir.

Ştata 20 nəfərdən yalnız birini götürürdilər. Həmin şəxsin ən çox müştəriləri olmalıdır. Hər kəs gündə 8 saat çalışırdı. Lakin mənim oğlum var idi. İşə yalnız 6 saat ayıra bilirdim. Vaxtımı boş yerə itirmək üçün mən telefonun dəstəyini demək olar ki, heç asmırdım. Beləliklə mən gün ərzində altı dəqiqə qənaət etmiş olurdum.

Bir də mən ayaq yoluna getməmək üçün su içmirdim.

İstifadə olunan kitablar:

1. Qurani Kərim
2. Best Seller – Larry King
3. Mürtəza Mütəhhəri – Əxlaq fəlsəfəsi
4. Mürtəza Mütəhhəri – Kamil insan
5. Mürtəza Mütəhhəri – İlahi ədalət
6. Simon Sinek - Niyə ilə başla
7. İslam Ensiklopediyası
8. Hüdudsuz Güc- Entoni Robbins
9. Tony Robbins - İçindəki divi oyat
10. Napaleon – Uğurun qanunu
11. Sən innovativ olmalısan
12. Dahilərin uğur hekayələri
13. Jim Collins – Yaxşıdan mükəmmələ
14. Mürtəza Mütəhhəri – Quranda insanı tanıma